# İSLAM VƏ YENİ DÜNYA

## İslam və yeni dünya münasibətləri mövzusunda müsahibələr

## Yeni dünyada dövlətçilik məfhumu

Doktor Həddad, Vilayəti-fəqih haqqında

Sual:

İmam Xomeyni (r) İslam Cümhuriyyəti – nə bir söz artıq, nə bir söz əskik - ünvanı ilə bir nəzəriyyə bəyan edib. Sırf elmi yox, nəzəri baxımdan bu nəzəriyyəni siyasi quruluşa tətbiq üçün kamil sayırsınız?

Doktor Həddad:

Sualınızı belə anladım ki, inqilabın əvvəllərində İslam Cümhuriyyəti nəzəriyyəsi hökumət yaratmaq üçün kifayət edəcək həddə formalaşmışdı, yoxsa yox? İnqilabın qələbəsindən qabaq cəmiyyətimizdə siyasi fəlsəfə sahəsində az iş görülmüşdü. Siyasi fəlsəfənin inkişafında bir maneə vardı. Dini elm hövzələrində də dini hökumət və siyasi fəlsəfə yetərincə inkişaf edə bilməzdi. Amma İslamda elə əvvəldən dini hökumət ideyası olub. Siyasi İslam fəlsəfəsi və şiəliyin əsas mövzularından olan hökumət, vilayət, rəhbərlik və imamət prinsiplərinin tarixi qədimdir. Ötən iki yüz ildə dini hökumət olmayıb, şahlıq olub. Amma xalq müctehidlərə, din alimlərinə itaət edib. Müctəhidlə hökumət arasında fikir ayrılığı yarananda xalq müctehidin arxasınca gedib.Tənbəki (tütün) hadisəsi misal ola bilər. Həmin hadisə zamanı xalq Nasirəddin şah hökuməti yox, Mirzayi Şirazinin hökmünə tabe oldu. Məşrutə inqilabı zamanı da böyük din alimlərinin göstərişi ilə xalq meydanlara çıxdı, məşrutə qələbə qazandı. Bu münasibət təqlid mərcələrinin hakimiyyətini, vilayətini qəbul etmək deməkdir. Demək, din alimlərinə tabeçilik xalq arasında aşkar hadisə olub.

Şəmsi 1345-ci ildə (48 il qabaq) şah rejimi ilə mübarizəyə başlayan İmam Xomeyni (r) 41-57-ci illərdə vilayəti-fəqih mövzusunda dərsləri imkan həddində genişləndirdi. 57-ci ildə İmamın qənaəti bu idi ki, İslam Cümhuriyyəti qurmaq üçün bu nəzəriyyə bəs edir. Amma bu o demək deyil ki, 1357-ci ildə biz geniş, yetərli, bu günün suallarına cavab verə biləcək fəlsəfəyə malik idik. Bir çox çətinliklər işdə üzə çıxır. Ölkə daxilindəki durum və beynəlxalq əlaqələr yeni suallar yaradır, zehnləri hərəkətə gətirir. Amma sizin sualınıza xülasə cavabım budur ki, İslam hökumətinin banisi və onun düşüncəsi ilə tanış olanlar üçün bu mövzu məqbul səviyyədə aydın idi. Eyni zamanda bu düşüncə bütün başqa düşüncələr kimi zaman keçdikcə təkmilləşir, formalaşır, ehtiyaclara cavab verir.

Sual:

İslam Cümhuriyyətinin yaradılması üçün bu barədə aydın təsəvvürümüz olmalıdır. İmamın (r) Nəcəfdəki çıxışları sonradan "Cihade-əkbər" ünvanı ilə kitab şəklində cap edildi. Oradakı təsvirlə inqilabdan sonrakı vəziyyət arasında fərq var. Qəbul edirəm ki, nəzəriyyə baxımından kamil layihə həyata keçəndə müəyyən vaxta ehtiyac var və dəyişikliklər olması mümkündür. Məsələn, İslam hökumətinin bünövrəsi vilayəti-fəqihdir. Konstitusiya yazılır, Xibrəqan Məclisinə gedir. Məclisdə vilayəti-fəqih prinsipi mətnə əlavə olunur. Xibrəqan Məclisində müxtəlif baxışlar var və bu müxtəliflik vilayəti-fəqih sütunu üçün təhlükəsiz deyil. Sizin nəzərinizcə, bu model hökumət təşkili üçün etibarlı sayıla bilər?

Doktor Həddad:

Yeni dünyada dövlətçilik məfhumu yeni mahiyyət daşıyır. Bu məfhum beş yüz, min il əvvəlki mənada deyil. Beş yüz il əvvəl dövlətin vəzifəsi məhdud idi. Hakimiyyətin əsas işi xalqın asayişini təmin etmək idi. Ölkə ərazisi, sərhədləri qorumaq dövlətin üzərinə düşürdü. Hökumət xalqın gündəlik həyatına müdaxilə etmirdi. Hətta iqtisadiyyat dövlətin nəzarəti altında deyildi. Beş yüz il qabaq hökumətlər təhsil və mədəniyyət sahəsində iş görməyi öz vəzifəsi saymırdı. Dövlət yeni məna kəsb edəndən sonra səhiyyə və təhsildən başlamış ideologiya və təbliğata qədər sahələr nəzarətə götürüldü. Xalq üçün sual yarandı ki, din alimlərinə itaət etməlidir, yoxsa dövlətə? İmam Xomeyni (r) vilayəti-fəqih formatında İslamın siyasi fəlsəfəsini yaratdı. Onun kökləri və budaqları vardı. Bu kök və gövdə, budaaqlar inkişaf edir. Əsas odur ki, bu ağac öz kimliyini qorusun.

Dediniz ki, vilayəti-fəqih konstitusiya layihəsinə Xibrəqan Məclisində artırılıb. Bu maraqlı nöqtədir. Sizdən soruşuram ki, vilayəti-fəqih nəzəriyyəsini inqilabdan neçə il qabaq Nəcəfdə hazırlayan, fiqh kitablarından çıxarış edən, bu mövzunu kitab halına gətirən, tədris edən İmam Xomeyni (r) onun konstitusiyada yerini nəzərdə tutmaya bilərdi? Əgər layihədə olmayıbsa, bu o demək deyil ki, nəzərdə tutulmayıb.

Sual:

İmam vilayəti-fəqih mövzusunu yeni dövrdə gündəmə gətirdi. Olsun ki bu mövzuya ilk dəfə ciddi yanaşan Molla Əhməd Nəraqi olub. Amma İmam həmin mövzunu yeni dövrdə klassik formada ortaya qoydu. Nə üçün İmam Parisdə olanda vilayəti-fəqihi inqilabın əsası kimi göstərmirdi?

Doktor Həddad:

İmamın Parisdə olduğu dövr nəzəri, fiqhi, fəlsəfi mövzuların bəyanı üçün münasib dövr deyildi. Əgər İmamın Parisdəki müsahibələrini nəzərdən keçirsəniz görərsiniz ki, İmam çox çətin bir zamanda inqilaba rəhbərlik məsuliyyətini öz üzərinə götürdü. İmamdan neft barədə, hicab barədə, müxaliflərlə necə rəftar ediləcəyi barədə soruşulurdu. İmam inandığı insanlara konstitusiya layihəsi hazırlamağı tapşırmışdı. Təfərrüatı bilməsəm də aydındır ki, bu bir layihə idi. İmam Xibrəqan Məclisində konstitusiyanın müzakirəsini izləyirdi. Müxaliflər də vardı. Vilayəti-fəqihin konstitusiyaya əlavə edilməsi şübhəsiz İmam tərəfindən təsdiqlənmiş qərar idi. İnqilabın sürətli qələbəsindən sonra müdiriyyət üçün lazımi qüvvələrin olmaması bizi də narahat edirdi. İnqilabdan qabaq müdiriyyət məsuliyyətim olduğu üçün çətinliyi dərk edirdim. Siz İmamın (r) yerinə olsaydınız İran xalqının əsrlər boyu gözlədiyi tarixi fürsəti əldən buraxardınızmı?!

## Vilayəti-fəqihin konstitusiyada yer almasında şəhid Ayətin rolu

Vilayəti-fəqih Şəhid Ayətin nəzərində

İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) ilk başçısı cənab Mənsuri deyir ki, əgər şəhid Ayət...

"Ayətin sirləri" kitabının müəllifi Cavad Muqui ilə söhbət

Şəhid Ayət bu əqidədə idi ki, nə vaxt inqilab baş verirsə cərəyanlar bu inqilaba nüfuz edir, inqilaba rəhbərliyi ələ alır. Bu zaman inqilabın öz yolundan çıxması mümkündür. (Şəhid Ayət cənab Musəvinin gəlişini bu qəbildən sayır)

Şəhid doktor Seyid Həsən Ayət inqilab tarixində öz yerini almamış şəxslərdəndir. İti baxış, İslama dərin etiqad, inqilabın məqsədləri yolunda barışmazlıq ona qarşı kin-kidurətə səbəb olmuşdur. Ona həsəd aparanlar var idi.

"Ayətin sirləri" kitabının təqdimat mərasimi çoxsaylı reaksiyalarla qarşılaşdı. Bu kitabda 60-cı illərin (şəmsi təqvimlə) gerçəkliklərindən gedən söhbət qorxu yaratmışdı. Kitabın müəllifi bu fikirdədir ki, həmin tarixi dövrün təkrar mütaliəsi İslam İnqilabı ilə bağlı bəzi suallara cavab verir. Həmin dövürdə xətdə olmayanlar, büdrəyənlər təbii ki belə mütaliələrin tərəfdarı deyil.

Kitabın çapında müəyyən maneələr olub. Onun mətnindən bəzi hissələrin çıxarılması istənilib. Müəllif deyir ki, həmin hissələr çıxarılsaydı kitabın adından sirr sözü götürülməli idi. Kitabda bəzi siyasətçilərin fəaliyyətlərindən danışılır və bu söhbət kimlərisə razı salmır.

Sual: Sizi şəhid Ayətin sorağına aparan nə oldu? Məqsədiniz nə idi, kitabınızın mesajı nədir?

Müəllif: Biz tələbə olduğumuz zaman xüsusi bir qrup yaratmışdıq, bu qrupun məqsədi yüksək elmi səviyyəyə malik istedadlı şəhidlərin həyat və fəaliyyətini

araşdırmaq idi. Mən ilk dəfə şəhid Ayət adını həmin qrupda eşitdim. Onunla bağlı qovluğu Tehran universitetindən aldıq. Aydın oldu ki, şəhid Ayət ictimai elmlər, hüquq və ədəbiyyat sahəsində çox yüksək təhsilə malik olub. Maraqlı bu idi ki, şəhid Ayət həm də Quranı tam əzbər bilib, hafiz olub. Fiqh və üsul səthinədək hövzə dərsləri oxuyub. Bütün bunlar bizi cəzb etdi. Qərara gəldik ki İnqilab tarixində layiq olduğu yeri almamış şəhidlərin sorağına gedək. Şəhid Ayəti seçdik. İşimizə şəmsi 88-ci ildə başladıq. Əvvəlcə məqsədimiz sənədli əsər yaratmaq idi. Nəhayət şəmsi 91-ci ildə "Ayətin sirləri" filmi ərsəyə gəldi.

Film müxtəsər idi, onda yer almamış müsahibələr, sənədlər, məlumatlar qalmışdı. Qərara gəldim ki, bütün bu materialları ayrıca bir kitabda toplayım.

Kitab üzərində iş beş il uzandı. İslam Cümhuriyyətinin ilk məclisindəki müzakirələr, şəhid Ayətin çıxışları, onun dostları və düşmənləri ilə müsahibələr kitabda yer aldı.

Sual: Şəhid Ayətin bariz xüsusiyyəti nədir?

Müəllif: Mən ilk araşdırmalarda şahid oldum ki, siyasi cərəyanları, büdrəmələri dərindən tanıyan bir şəxsiyyətlə üzbəüzəm. Şəhid Ayət müvəqqəti dövlətin iqtidara gəlişinə etiraz edən ilk şəxs olub. Çünki azadlıq hərəkatını yarandığı gündən izləmişdi. Şəhid Ayətin şəmsi 42-ci ildə Müzəffər Bəqaiyə yazdığı məktub var. Orada azadlıq hərəkatından danışır. Cərəyanları və onların məqsədlərini açıqlayır. Bu o deməkdir ki, hərəkat yaranan gündən şəhid Ayət onu təhlil edib. Müvəqqəti dövlət yarananda, Bazərqan baş nazir olanda şəhid Ayət etiraz edir ki, bu dövlət İnqilabi dövlət ola bilməz.

Bəni Sədrin hakimiyyətə gəlişinə ilk etiraz şəhid Ayətdən gəlir. Təəssüf ki, onun etirazları diqqətdən kənarda qalır. Bəni Sədrə bağlı cərəyanlar, eyni zamanda Mübariz Ruhanilər cəmiyyəti Bəni Sədri müdafiə edir.

Xalq Mücahidləri təşkilatı şəhid Ayətin hədəfində olur. Mütəfəkkir alim dəfələrlə xəbərdarlıq edir ki, bu təşkilatla keçinmək mümkünsüzdür, onlar yalnız silahla danışır.

Şəhid Ayət həmin dövürdə mühəndis Musəvinin İslam Cümhuriyyəti partiyasına gəlişinə etiraz edir. Bu etirazlar da diqqətdən kənarda qalır.

Şəhid Ayətin cərəyanları və fərdləri belə tanıması bizi heyrətə gətirdi. Bir şəxs müxtəlif cərəyanları, onların məqsədlərini, fərdlərin fikirlərini necə dəqiq proqnozlaşdıra bilib!

Sual: Onun terrorundan 33 il ötüb. 33 ildən sonra bu şəxs haqqında bir kitab yazılması nə üçün bəzilərini bu qədər naraht edir? Hər vasitə ilə bu kitabın çapının qarşısını almaq istəyirlər. Bəziləri şəhid Ayəti ifratçı cərəyanların nümayəndəsi kimi təqdim etmək istəyir. Hətta onun anım mərasimindən ona qarşı istifadə etmək istəyənlər var. Bu reaksiyanı doğuran nədir?

Müəllif: Şəhid Ayətin əsas xüsusiyyəti baş verəcək büdrəmələri öncədən görməsi olub. O heç zaman İnqilaba münasibətdə şübhəli cərəyanların haqqında danışmaqdan çəkinməyib. Açıq şəkildə sözünü deyib. Vilayəti-fəqih prinsipinin konstitusiyada yer almasında şəhid Ayətin rolu müstəsnadır. İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) ilk başçısı cənab Mənsuri deyir ki, əgər şəhid Ayət konstitusiyada SEPAH-ın yerini müəyyənləşdirməsəydi millətçilər və digər çaşqın cərəyanlar SEPAH-ı səhnədən çıxaracaqdılar. Şəhid Ayətin siyasi cərəyanların çaşqınlıqları haqqında açıq bəyanatları onun tanıtdırılmasının qarşısında açıq maneədir. İstər həyatı dövründə, istər şəhadətindən sonra şəhid Ayət güclü hücumlara məruz qalıb.

Düşünürəm ki, şəhid Ayət bilərəkdən inqilab tarixindən çıxarılıb. Biz bəzi dəyərli şəxsiyyətlərimizə qarşı diqqətsizlik göstərmişik. Onların düşüncələrini cəmiyyətə çatdırmağı bacarmamışıq. Bəziləri isə ümumiyyətlə haşiyədə qalıb, hətta tənqid olunub. Mənim əlimdə şəhid Ayətin şəhadətindən sonraya aid ona qarşı 15 qovluq var.

Sual: Şəmsi 91-ci ildə şəhid Ayət haqqında filmin nümayişindən bir həftə ötməmiş mətbuatda bu filmə qarşı yazılar getdi. Nə üçün şəhid Ayətdən bu qədər qorxurlar? Ölkədə yüz minlərlə anım mərasimi keçirilir və etiraz edən yoxdur. Nə üçün şəhid Ayətin anım mərasimi xof yaradır?

Müəllif: Qeyd etdim ki, şəhid Ayət cərəyanları tanıyırdı. Əgər cəmiyyət şəhid Ayəti lazımi qədər tanısa həm inqilab tarixini, həm də ayrı-ayrı şəxsləri yaxşı

tanıyar. Şəhid Ayətin səhnəyə gəlişi qarşısında dayananlar Musəvini əfsanə kimi yaşatmaq istəyənlərdir. Bu gün islahatçı kimi çıxış edənlər 60-cı illərdə səhnədən uzaqda idi. Bu gün Bazərqanın müdafiəsinə qalxanlar bir zaman ona qarşı ən ədalətsiz hücumlara imza atıblar. Bu gün Müntəzirini müdafiə edənlər bir gün onun üstünə buldozerlə gedirdilər. Bəli, kimlərsə keçmişinin gündəmə gəlməsini istəmir. 60-cı illərə qayıdış, şəhid Ayət şəxsiyyətinin ortaya qoyulması, baş nazirin qərargahında partlayış hadisəsinin xatırlanması çox qaranlıq nöqtələri işıqlandırardı.

Sual: Şəhid Ayətin mərcəiyyət və vilayəti-fəqihə münasibəti necə olub?

Müəllif: Şəhid Ayətin məşrutə və neftin milliləşməsi hərəkatı mövzularında dərin mütaliələri vardı. O belə bir qənaətə gəlmişdi ki, mason və nasionalist cərəyanlar istənilən bir inqilab zamanı ona rəhbərliyə can atır, inqilaba nüfuz edirlər. Şəhid Ayət ruhaniyyətin bu yolla səhnədən çıxarılacağından qorxurdu. Məşrutə dövründə Şeyx Fəzlullah Nurinin edamı, Nəqizadə kimilərinin azğınlıqları şəhid Ayətin nigarançılıqlarına haqq qazandırıb. Şəhid Ayət bu sırada Ayətullah Kaşaninin xanənişin edilməsini, saxta çevrilişləri ibrət dərsi sayırdı. O İmam Xomeyninin də belə bir hücuma məruz qalacağından ehtiyatlanırdı.

Şəhid Ayətin vilayəti-fəqih prinsipinin konstitusiyada yer alması üzərində israrı belə nigarançılıqlardan qaynaqlanırdı. İmam (r) hələ 47-ci ilə Nəcəfdə vilayəti-fəqih dərslərini başlayır. Onun ilk kitabları şəhid Ayətin diqqətini çəkir. O İmamın düşüncələri ilə tanış olur. Şəhid Ayət xibrə məclisində İslam hökumətinin bünövrəsi kimi vilayəti-fəqihi təqdim edir. O vilayəti-fəqih prinsipinin müdafiəsinə qalxaraq deyir: "Mənim məclisə daxil olmaqda məqsədim vilayəti-fəqih prinsipinin qəbul olunmasıdır. Nə qədər ki, bu prinsip qəbul olunmayıb, demək İslam hökuməti qurulmayıb."

Şəhid Ayət şəhid Behişti, şəhid Haşiminejad, şəhid Bahünər kimi insanlarla birlikdə vilayəti-fəqih prinsipinin qəbuluna çalışırdı. O zaman da Bəni Sədr, Müqəddəm Marağeyi kimiləri tərəfindən amansız hücumlara məruz qalmışdı. Bir qrup çalışırdı ki vilayəti-fəqih konstitusiyada yer almasın, hətta bu məqsədlə xibrə məclisinin buraxılmasını tələb edirdilər. Amma sonda şəhid Ayət və tərəfdarları qalib gəldi.

Sual: Şəhid Ayətin Müzəffər Bəqai ilə nə rabitəsi olub:

Müəllif: Şəhid Ayət şəmsi 39-cu ilin sonlarında Zəhmətkeşlər Partiyasına daxil olur. 42-ci ilə qədər bu partiya ilə həmkarlıq edir. O partiya ilə tanışlıqdan sonra Bəqaiyə məktub yazır. Yazır ki, partiyaya daxil olduğu vaxt ölkədə iki siyasi cərəyan olub: Biri Sovetlərə bağlı Tudə, o biri Müsəddiqin tərəfdarlarının cərəyanı. Şəhid Ayət bu cərəyanları qəbul etmədiyindən iki xüsusiyyətinə görə Zəhmətkeşlər Partiyasını seçir. Bu partiya Müsəddiqə qarşı idi, digər tərəfdən Ayətullah Kaşani tərəfindən himayə olunurdu. Hətta Ayətullah Kaşaninin övladları partiyaya get-gəl edirdi. Əslində bu partiya siyasətlə maraqlanan dindarlar üçün münasib yer idi.

Şəhid Ayət Pəhləvi rejimi ilə mübarizə məqsədilə partiyaya daxil olur. Amma qısa müddətdən sonra başa düşür ki, Bəqai səltənətə qarşı deyil. 42-ci ildə 15 xordad qiyamında şəhid Ayət çalışır ki Bəqaini şah əleyhinə mübarizəyə qaldırsın. Bəqai bu təklifi qəbul etməyəndə şəhid Ayət ondan uzaqlaşır. Şəhid Ayətin partiya üzvlərinə təsiri böyük olduğundan Bəqai onu partiya sıralarından çıxarır. İmamın gəlişi ilə şəhid Ayət bir çox başqa mübarizlər kimi İmama qoşulur.

Sual: Nə üçün mədəniyyət nazirliyi kitabın bəzi hissələrinin çıxarılmasını istəyib?

Müəllif: Kitabın üç əsas mövzusu var: Şəhid Ayət nasionalistlərə qarşı, şəhid Ayət Bəni Sədrə qarşı, şəhid Ayət cənab Musəviyə qarşı. Kitabın əsasən son hissəsinə irad bildirilib. Kitab mötəbər sənədlər əsasında yazılıb. Heç bir müddəa sənədsiz deyil. Ən azı xatirələrə istinad olunub. Əsas iradlardan biri Musəvinin hakimiyyətə gəlişində əsas rol oynayanlarla bağlıdır. Musəvi ilə Ayətullah Xamenei arasında olan fikir ayrılığı mövzusu etiraza səbəb olub. Şəhid Ayətin terroru ilə bağlı ehtimallar da etirazla qarşılanıb. Mən bu ehtimallları İslam İnqilab məhkəməsinin sənədlərindən götürmüşəm. Təəssüf ki, bu barədə 30 səhifəlik məlumat çapa getmədi.

Sual: Kitab neçə səhifədən ibarətdir? Söz azadlığının genişləndiyi şəraitdə kitabın ixtisarı tələbi necə əsaslandırılır?

Müəllif: Kitab 750 səhifədir. Qanun mədəniyyət nazirliyinə belə bir ixtiyar verib ki kitabın müəyyən hissəsini çapa verməsin. Bizim etirazımız kitabın ixtisarı yox, hansı mövzunun ixtisar olunmasıdır. Əslində çıxarılan hissələr məşhur şəxslərin xatirələridir. Onlar bu işlə sanki təsbehin ipini çıxarıblar. Mən ixtisarla razılaşmamışam...

## Ayətullah Xamenei: Dünyanın gerçəklikləri və ABŞ-ın istəkləri...

Doktor Seyid Məhəmməd Mərəndi ilə söhbət

Doktor Seyid Məhəmməd Mərəndi Tehran Universitetinin beynəlxalq araşdırmalar institutunun rəisidir. Bu müsahibədə ABŞ-ın beynəlxalq konfliktlərdə yol verdiyi səhvlər, dünyada Qərbin planlarının gerçəkləşməməsi səbəbləri təhlil edilir.

Sual:

Cənab Rəhbər 1 fərvərdində baş tutmuş çıxışında buyurdu: "Dünyanın gerçəklikləri ABŞ-ın istəklərinə uyğun həyata keçmir." Ayətullah Xamenei bu mövzuda nümunələr də göstərdi. Fələstin, Suriya, İraq, Əfqanıstan, Pakistan,eləcə də İranda baş verən hadisələr misal çəkildi. Şəmsi 1392-si ildə (ötən il) İranda baş vermiş iki hadisə yada salındı: prezident seçkiləri və 22 Bəhmən nümayişləri. Nə üçün bu hadisələrdə ABŞ və müttəfiqlərinin istəkləri həyata keçmir?

Doktor Seyid Məhəmməd Mərəndi:

Əgər İraqla 8 il uzanmış müharibəni yada salsaq mövzu bir qədər aydınlaşar. 1363-cü ildə (30 il öncə) Tehranda cümə namazında partlayış həyata keçirildi, eləcə də Tehran bombalandı. Ayətullah Xameneinin imaməti ilə qılınan cümə namazında 14 nəfər şəhid oldu. Bomba partlayışı zamanı mən Tehran Universitetinin həyətində çəmənlikdə oturmuşdum. Xatırlayıram ki, növbəti həftə namaza gələnlərin sayı qat-qat artıq idi. Təhlükə artsa da, namazda iştirak edənlər əvvəlkindən çox idi.

Nə üçün belə olmuşdu? Çünki xalq dinə, məmləkətə, dövlətə, dəyərlərə qarşı təhlükənin artdığını hiss etmişdilər. Meydana daha böyük izdihamla çıxmağa qərar verilmişdi.

Düşünürəm ki, son hadisələrdə də xalqın reaksiyası eyni olub. 22 Bəhmən nümayişlərindən qabaq ABŞ təhqiramiz rəftarlara yol vermişdi. Xalq gördü ki, İran yeni münasibət ortaya qoysa da ABŞ-ın rəftarı dəyişməyib. Nümyaiş vaxtı yaxınlaşdıqca ABŞ ədəbsizləşirdi. Bu rəftar xalqa öz təsirini göstərdi.

Sual:

Qərb informasiya vasitələri çalışır ki, ictimai rəyə təsir göstərsin. Nə üçün ABŞ və müttəfiqləri bu sahədə uğur qazana bilmir?

Doktor Seyid Məhəmməd Mərəndi:

ABŞ təkcə İrana qarşı hesablamalarında yanılmayıb. Bir çox ölkələrə münasibətdə hesablamalar yanlışdır. Bunun səbəbi ölkələrindəki mütəxəssislərin İran mövzusuna xüsusi bir şəkildə yanaşmasıdır. ABŞ-da iranşünaslar bir neçə qrupdur. Bir qrupu Amerikada yaşayan iranlılardır. Başqa bir qrup valideyni İranda yaşamış insanlardır. Adı iranlı olan beləlləri heç fars dilini bilmir. Bir qrup da sırf amerikalılardan ibarətdir. Onlar heç vaxt İranda olmayıblar. Bu qruplar informasiya vasitələrinə təsirlidirlər. Onlar İranı olduğu kimi yox, öz istədikləri kimi tanıtdırırlar. Bu səbəblərə görə ABŞ və Qərbin İran haqqındakı hesablamaları həqiqətdən uzaqdır.

Sual:

Əgər onlar hesablamalardakı səhvi görürlərsə nə üçün əvvəlki yolu davam etdirirlər?

Doktor Seyid Məhəmməd Mərəndi:

Qərb dövlət rəsmiləri reallıq yox, kimlərinsə subyektiv rəyləri əsasında qərar çıxarırlar. Bir növ İranla bağlı reallığı qəbul etmək istəmirlər. Onlar həqiqiəti görür və onu görməzliyə vururlar. Onlar daha çox görmək istədiklərini "görürlər". Bu baxışla son 35 ildə öz səhvlərini təkrarlayırlar. Maraqlıdır ki, həm də səhvlərini etiraf edirlər. Onlar şahiddirlər ki, 22 Bəhməndə hər il xalq meydanlara çıxıb dövlətə dəstəyini nümayiş etdirir. Yenə də deyirlər ki, meydandakı xalq deyil. Seçkiləri qeyri-demokratik adlandırırlar. İranşünas mütəxəssislərin hesablamaları özünü doğrultmasa da onlar araşdırma, beyin mərkəzlərində oturmaqdadır. Çünki onlar ABŞ rəhbərlərinin istəyinə uyğun hesablama hazırlayırlar.

Sual:

ABŞ digər ölkələrə də eyni münasibət göstərir?

Doktor Seyid Məhəmməd Mərəndi:

Bəli, belədir. Onlar bizim məntəqədəki gerçəkliyi dərk etmirlər. Düşünürəm ki, "İslam Oyanışı" "Ərəb Baharından" fərləndirilməlidir. Əgər İslam oyanışına ərəb baharı kimi baxsaq, onda prosesin başa çatdığını düşünməliyik. Amma İslam Oyanışı bu gün da qaynamaqda olan bir hərəkatdır. Qərbdə mötəbər mənbələrin fikri budur ki, İranın özündə xalqın 70 faizindən çoxu kimliyini hər şeydən çox müsəlmanlıqd görür. Yəni bizim kimliyimizdə ilk faktor İslamdır. Bu mənbələr Misirdə də eyni vəziyyətin olduğunu açıqlayır. Misirdə də əhalinin 70 faizindən çoxu özünü müsəlman olaraq təqdim edir. Bu rəy sorğuları Amerikanın Merilend Universitetinin World Public Opinion sorğu mərkəzinin məlumatlarıdır.

Misirə baxdıqda görürük ki, meydanda Mursiyə qarşı olanlar da, onun tərəfdarları da özünü müsəlman sayır. Hər cəbhədə hicablı qadınlar var. Hər iki cəbhə ABŞ-ı düşmən sayır. Mursinin müxalifləri onu ABŞ-ın adamı sayır. Tərəfdarlar isə müxalifləri Amerikanın əlaltısı hesab edir. Aydın olur ki, Misir inqilabında büdrəmələr olsa da oyanış davam edir. Cənab Rəhbər o zamankı cümə namazı

xütbəsində ifratçılıq, məzhəb ayrıseçkiliyi, tayfabazlıq kimi təhlükələrlə bağlı xəbərdarlıq etdi. Belə görünür ki, həmin amillər Misir inqilabının məğlubiyyətinə səbəb oldu.

İslam Oyanışı ona görə davam edir ki, məntəqə xalqları özünü müsəlman hesab edir. Onlar cəmiyyətdə İslamın aparıcı rol ifa etməsini istəyirlər. İslamı qəbul edənlər ictimai münasibətlərdə də dini prinsipləri qəbul edirlər. Təbii ki məntəqədə qərbpərəst azlıq da var. Amma söz sahibi müsəlmanlardır.

Regionda problemlər o zaman dərinləşdi ki, ABŞ və Qərb vəhaibələrə, ifratçılara meydan verdi. Məzhəb, tayfa ixtilafları qızışdırıldı. Suriyada bu layihə üzərində işləyirlər. Amma düşünmədilər ki, ifratçılığı idarə etmək mümkün deyil. Bu ifratçılıq sünnə əhli, təkfirçilərin özünə zərbə oldu. Bu gün Misirdə xalq ifratçılarla vuruşur.

Sual:

Təkfirçilik Qərbə də zərbə ola bilərmi?

Doktor Seyid Məhəmməd Mərəndi:

Şübhəsiz! Təkfirçilik Qərb üçün ən böyük təhlükədir. Bu arada ən böyük zərərə düşən Qərb olacaq. Sərvət və güc Qərbin əlində olduğundan məhz onlar ifratçılığa hədəfə çevriləcək. Qərb özünə çox pis müttəfiq seçdi. "Ərəb Qışı" Qərbin mənafeləri üçün böyük təhlükə ola bilər. Artıq bu təhlükəni görürlər. Bu da onların yanlış hesablamalarının nəticələrindəndir.

Sual:

Qərbin regiondakı strategiyalarından biri ictimai fikri həqiqətdən yayındırmaq üçün məcazi fəzalar yaratmaqdır. Sizcə, onların Suriya və digər ölkələrdəki ssenariləri nə qədər uğurlu olub?

Doktor Seyid Məhəmməd Mərəndi:

Mən Qərb mətbuatı ilə sıx əlaqədəyəm, hətta bəzi müxbirlərlə saatlarla söhbətim olur. Şəbəkə rəhbərləri etiraf edir ki, bu gün həqiqəti demək gücündə deyillər. Onlar öz işində, postunda qalmaq üçün qırmızı xətləri gözləyirlər. Açıq deyirlər ki, böyük siyasətin tələbləri çərçivəsində işləməyə məcburdurlar.

Qərb mətbuatının vəzifəsi Suriyada xalqı hökumətə qarşı qaldırmaqdır. Suriya hökumətinin zəif nöqtəlir olsa da İran bu fikirdədir ki, bu hökumətə qarşı olanlar demokratiya yox, başqa məqsədlər ardıncadır. Ərəbistan kimi ölkələrin demokratiyaya dözümü yoxdur. Elə ABŞ da Misirdə demokratiya istəmir. Bəşar Əsəd Bin Əli və Mübarəkdən fərqli olaraq xalqın dəstəyinə malikdir. İran Suriya böhranının siyasi həlli üçün çalışırdı. Amma Qərb imkan vermədi. Onlar bəz məntəqə ölkələri ilə əl-ələ verib istənilən yolla Bəşar Əsədi devirməyə qərar verdilər.

Qərb mətbuatı ilk addımda Suriyada ifratçıların varlığını inkar edirdi. Dəməşq və Hələb kimi böyük şəhərlərdə intihar əməliyyatları baş verəndə Qərb və müxaliflər bunu Əsəd hökumətinin ayağına yazmaq istəyirdi. İfratçıların, Əl-Qaidənin cinayətlərini təsdiq edən videomateriallar yayılanda belə bunu etiraf etmək istəmirdilər. O qədər susdular ki, ifratçılıq əjdahası onların öz mənafelərinə caynaq atdı. İndi İranın mövqeyinə yaxın mövqedən çıxış edirlər.

Sual:

Ukrayna, Krım böhranında Qərb uğur qazana bildimi?

Doktor Seyid Məhəmməd Mərəndi:

Amerika narahatdır ki, Asiyada iqtidar mərkəzləri yaranır və güclənir. Avropanın ağlına gəlmirdi ki, Rusiya Ukraynaya hərbi müdaxilə edib, Krımı nəzarətə götürəcək. Qərb Rusiyanın bu addımları qarşısında heç bir iş görə bilmədi. Biz bu münaqişədə kiməsə haqq vermirik. Fakt odur ki, Qərbin zəifliyi sübuta yetdi.

Sual:

Qərbin uğursuzluğunda yanlış hesablamlardan əlavə nə kimi amillər rol oynayıb?

Doktor Seyid Məhəmməd Mərəndi:

Digər amil dünyanın dəyişməsidir. Xalqlar keçmişdəki ilə müqayisədə daha agah olub. Yeni güclər meydana çıxıb. Bu Qərb inhisarının dağıması deməkdir. Artıq dünyada ticarət təkcə dollar ya avro ilə aparılmır. Bir neçə il önəcəyə qədər dünyanın yeddi super gücü Avropa dövləti idi. Proqnoz belədir ki, qarşıdakı 20 ildə dünyada söz sahibi başqa dövlətlər olacaq. Hindistan, Çin, Meksika, Braziliya, Rusiya güclənir. Bu proqnoz Qərb mütəxəssislərinə məxsusdur.

İran 30-40 il öncəki İrandan çox güclüdür. İran 30 il öncə sadə silah da istehsal etmirdi. Bu gün İran kosmosa peyk göndərir. İran xalqı və dövlətinin özünəinamı qat-qat güclənib. Güclü dini kimliyə malik İranın mədəniyyəti istismarçı düşüncəyə malik qərb mədəniyyətindən çox fərlənir.

İrana münasibətdə məqsədlərinə çata bilmədilər. Regionda gərginlik artmaqdadır. Onlar vəziyyətə nəzarəti itiriblər. Misirdə böhrandır, Ərəbistanın gələcəyi qaranlıqdır. Digər tərəfdən Çin kimi sürətlə inkişaf edən ölkələr Qərb sənayesini növbə ilə sıradan çıxarmaqdadır.

## Tam qələbə Qərb Sahilinin silahlandırılmasından keçir

Məntəqə üzrə ekspert cənab Hüseyn Ruyvəranla söhbət

Sionist rejimin iki dayağı vardı: mühacirət və hərbi imtiyaz - hər iki dayaq süstləşib!

Cənab Rəhbər Ayətullah Xamenei cümə axşamı günü İslami Cihad Hərəkatının baş katibi Ramazan Abdullahla görüşündə düşmənin hiyləgər fitnəkarlıqlarına hazır olmaq zərurətindən danışdı. Cənab Rəhbər ehtimal olunan hücumlara hazırlıq və sionist rejimə qarşı Qərb Sahili ilə birləşməyi iki strateji nöqtə kimi qeyd etdi.

Cənab Rəhbər görüşdə məntəqədəki hadisələrlə bağlı buyurdu: “Sionist rejimlə müharibə həyati əhəmiyyətli bir müharibədir...” Burada maraqlı nöqtələrdən biri Cənab Rəhbərin Qərb Sahilinin silahlandırılması məsələsi üzərində təkididir. 51 günlük müharibədə Müqavimətin qələbəsi İslam dünyasının taleyinə və Qərbin nüfuzuna necə təsir etdi? Regionda baş verəcək bundan sonrakı hadisələrlə bağlı nikbin olmaq mümkündürmü? Bu suallarla bağlı məntəqə üzrə ekspert cənab Hüseyn Ruyvəranla söhbəti nəzərinizə çatdırırıq.

Sual: Müqavimətin qələbəsi ilə başa çatam 51 günlük Qəzzə müharibəsi məntəqənin güc balansında yeni səhifə açdı. Sionist rejim Qərbin məntəqədəki iqtidar təzahürü olaraq məğlubiyyətə uğradı. Məntəqənin hazırkı durumunda sionist rejimlə müharibənin hansı təsirləri var?

Cavab: Unutmamalıyıq ki, sionist rejim Qərb kapitalizminin məhsuludur, yarandığı gündən Qərbin mənafelərinə xidmət edib. Ötən əsrin 40-cı illərində Amerika meydana daxil oldu və sionist rejimin yaradıldığı elan edildi. Sionist rejimi rəsmi tanıyan ilk dövlət ABŞ-dır. Amerika ilk gündən bu rejimi həm hərbi, həm də iqtisadi baxımdan himayə edib. Bu günə qədər ABŞ İsrailin yolunda ən azı bir trilyon dollar xərcləyib.

Amma İsrail məntəqədə bir baza kimi yaradılıb və Qərbin siyasətlərini yerinə yetirməklə məşğuldur. Bu ölkənin həyata keçirdiyi siyasətlərdən biri yerli əhalinin doğma torpaqlardan çıxarılmasıdır. İsraildən əvvəl də bu siyasət həyata keçirilib. Amerikanın özündə və Kanadada yerli əhalinin sıxışdırılması bəşər tarixində analoqsuz hadisələrdir. Bu günə qədər Fələstində 90-a yaxın qətliam baş verib, bunun nəticəsində yerli əhalinin 90%-i doğma yurdunu tərk edib, Suriya, Livan, İordaniya, Misir və Qəzzəyə mühacirət edib. Bu siyasəti qorxutmaq və qətllərlə həyata keçiriblər.

Qərb kapitalizminin məhsulu olan sionist rejim yarandığı gündən imperializm tərəfindən himayə olunur. Bu ölkənin bütün ehtiyacları qeyd-şərtsiz ABŞ və müttəfiqlərinin öz ehtiyacı kimi qəbul edilir və qısa müddətdə tədbir görülür.

Qərb öz mənafeləri yolunda bütün əxlaqi prinsipləri ayaq altına alır. Bu günə qədər İsrailin cinayətləri Qərb dövlətləri tərəfindən məhkum edilməyib. Əksinə, BMT-nin işğala qarşı 80 qətnaməsinə Qərb dövlətləri veto qoyub. Nüvə silahı məsələsində də vəziyyət oxşardır. Nüvə Silahının Yayılmaması Hərəkatına

qoşulmaqdan imtina edən sionist rejim heç vaxt cəzalandırılmayıb. İsrail lazım gələndə Qərbin, lazım gələndə Amerikanın xidmətində dayanır. Bu rejim müstəqil rejim deyil. Amma qeyd edim ki, xüsusi ilə 51 günlük müharibədən sonra vəziyyət İsrailin xeyrinə deyil. İsrail qətnamələrə məhəl qoymayaraq işğal olunmuş ərazilərdə tikinti işlərini davam etdirir.

İsraili öz yerində oturtmaq üçün yeganə yol Müqavimətin gücləndirilməsidir. Sionist rejim yalnız ardıcıl müharibələr nəticəsində çökə bilər. Elə bu məqsədlə də Qərb sahilinin silahlandırılması zəruri sayılır. Bu iş baş tutarsa tam qələbə əldə edilir.

İsrailin verdiyi itkilərin yerini doldurmaq üçün vaxtı yoxdur. Bu ölkə böhran yaşayır və biz bu böhranın dayanmasına yol verməməliyik. Müqavimət davam etəlidir, Qərb Sahili silahlanmalı və Qəzzə ilə birlikdə müqavimət göstərməlidir.

Sual: Fələstin və Livanda Müqavimətin qələbələri ictimai fikirə necə təsir göstərir?
Müqavimət Livan və Fələstində böyük uğurlara imza atdı. 2006-cı ildə İsrail Livana hücum etdi və qeyri-bərabər müharibə başladı. Bu müharibə müqavimətin sonrakı mərhələlərində də eyni şəkildə davam etdirildi. Adətən müharibədə hərbi arsenal son sözü deyirsə, işğalçı rejimlə müharibələrimizdə qələbəni toplar həll etməyib. Belə bir deyim vardı ki, Livana hücumda İsrailin təyyarələri vardı, vurulacaq hədəflər yox idi. Beləcə Livan Müqaviməti dünyada mövcud olan düsturları pozub güclü ordunu dizə çökürdü.

Sual: İnformasiya inqilabı, mətbuata nəzarətin dünya boyu zəifləməsi son Qəzzə müharibəsi barədə böyük ictimai etiraza yol açdı. Bunu necə dəyərləndirirsiniz?

Cavab: Bu vaxta qədər beynəlxalq sionizm öz təbliğatı ilə ictimai fikri çaşdıra bilmişdi. Bununla da Qərb cəmiyyətləri onu haqlı sayırdı. Amma ötən 10 ildə baş vermiş hadisələr, kiber fəzasının dəyişməsi, İslam dünyasına öz səsini dünyaya çatdırmaq imkanı yaratmışdı. Son Qəzzə müharibəsində London, Paris və dünyanın bir çox başqa şəhərlərində əzəmətli anti-sionist aksiyalar keçirildi. Qərbdəki ədalətsevər ictimai təşkilatlar da Fələstin xalqı ilə həmrəylik nümayiş etdirdi.

Biz müxtəlif informasiya şəbəkələrində bu aksiyaları izlədik. Qərb dövlətləri Qərb xalqlarının etirazı qarşısında aciz qaldılar. Bu ölkələrdə seçki sandıqları rol oynadığından xalqın etirazı dövlətə təsirlidir. Xalqdan asılı dövlətlər İsrailə yardımları azaltmağa məcburdurlar. Məntəqədə oyanış gücləndikcə Qərb dövlətlərinin İsrailə köməyi azalacaq. Qərb cəmiyyətində ictimai fikir dövlət rəsmilərini qorxudur. Qərbə söykənən İsrailin belə bir vəziyyətdə ağır böhran yaşaması qaçılmazdır.

Qərbdəki ictimai təşkilatlar arasında həqiqət və ədalət ardınca olanları çoxdur. Belə təşkilatlardan biri Qalvey təşkilatıdır. Belə təşkilatlar informasiya vasitələrinin himayəsindən bəhrələnir, Fələstin xalqına yardım edir, ən əsası sionist rejimə təzyiq göstərir. Qərb zolağına kurs götürmüş humanitar yük aparan gəmilər İsrailə böyük problemlər yaratdı. İsrail çıxılmaz vəziyyətdə qalmışdı. Ya bu karvana hücum etməli, ya da mühasirəni açmalı idi. Amma İsrail öz xəbis xislətini göstərərək cinayətə əl atdı, humanitar karvana hücum etdi.

Sual: Bu hadisələr İslam dövlətlərini sionist rejimə qarşı hərəkətə gətirəcəkmi?

Cavab: Bu sualı cavablandırmaq üçün bir qədər geriyə qayıtmalıyıq. İslam inqilabının qələbəsindən sonrakı ilk illərdə Fələstin probleminin həlli üçün iki yol təklif olundu. Birinci yol Fələstin xalqının himayəsi üçün ictimai fikir yaratmaq idi. Vəhdət həftəsi, məzhəblərin yaxınlaşması, Qüds günü bu məqsədlə həyata keçirilən tədbirlərdir. Məqsəd Fələstini İslam dünyasının döyünən ürəyi kimi tanıtdırmaqdır. Sionist rejimin iki dayağı var: mühacirət və hərbi imtiyaz. Son müharibədən sonra hər iki dayaq süstləşib. İndi İsraildən mühacirət edirlər. Sionist rejim yəhudi dövləti qurmaq məqsədinə çata bilmədi.

İkinci yol Müqavimətin formalaşdırılması və İsrailin süqutuna inam yaratmaq idi. Bu işin öhdəsindən Livan Hizbullahı layiqincə gəldi. Fələstin Hizbullahın himayəsindən çox bəhrələnib. 1967-ci il ərəb-İsrail müharibəsində böyük məğlubiyyət yaşandı.

Sual: Son müharibələrdə sionist rejimin geri çəkilməsinə şahid olduq. Müqavimət bunu necə bacardı?

Cavab: Bəli, Müqavimət İsrailin mühacirət və hərbi üstünlük kimi sütunlarını qıra bildi. Yəni İsrailin dirçəliş imkanları əlindən alınıb. Hazırda İsrail böyük mühacirət yaşayır. Son müharibədə sionist rejimin təhlükəsizliyi təmin edə bilməməsinə əmin olan yəhudilər dünyaya səpələnir. Mütləq yəhudilərdən təşkil olunmuş dövlətin öz varlığı sual atındadır.

## Ayətullah Xamenei: Ən əziz adamlarımdan birini itirdim...

Rəhbərin həyat yoldaşı şəhid ailəsi ilə görüşdə

Şəhid Tehrani Müqəddəm ("İran Raket sənayesinin atası") İranda hərbi mərkəzdə partlayış zamanı həlak olmuş 39 şəhiddən biridir...

Şəhid Tehrani Müqəddəmin xanımı İlham Heydəri Həzrət Ağanın həyat yoldaşının onların görüşünə gəlməsi barədə danışır. Məşriq İnformasiya Agentliyi yazır ki, İlham Heydəri Nuruz-Zəhra elm hövzəsi və Banu Əmin hövzəsinin doktorudur. General şəhid Həsən Tehrani Müqəddəmlə müştərək həyatından 4 övladı var. Xanım İlhamın şəhid Tehrani ilə bağlı dəyərli xatirələri var. Hazırda bu xanım 3 il öncə, şəmsi 1390-cı il, 21 abanda hərbi bölmədə partlayış nəticəsində şəhadətə çatanların ailələri ilə daimi əlaqə saxlayır. Şəhidin həyat yoldaşı şəhid Tehrani Müqəddəmə böyük sevgidən danışır. Bu şəhidlərin fədakarlıqları sayəsində bir sıra problemlər aradan qalxıb. Xanım Heydəri deyir ki, şəhid Tehrani Müqəddəm hətta öz dövrünün vəliyyi-fəqihinin qəlbini ələ ala bilmişdi. Xatırladır ki, Tehrani Müqəddəm şəhadətə çatan gün Rəhbər Xamenei çox üzüntülü bir ruhiyyədə olub. Məşriq agentliyi xanım İlham Heydəri ilə müsahibəni təqdim edir.

Sual: Şəhid Tehrani Müqəddəmdən sonra ailənizin fəzası necədir? Övladlarınız atalarının şəhadətini dərk edirlərmi? Azyaşlı övladınıza atasızlığı necə izah edirsiniz?

Xanım Heydəri: Uşaqlar çox ağıllıdır. Xüsusi ilə kiçik övladım Zəhranın dərin zəkası var. Gözləmirdim ki, övladlarım bu hadisəni asanlıqla qəbul edə biləcək. Partlayış baş verəndə namazın vaxtı keçmişdi. Mən oruc idim, bir az da halım yaxşı deyildi. Bir neçə dəfə orucumu açmaq istədim. Güclü səs eşidiləndən sonra mənə xəbər verdilər ki, hacı Həsənin iş yerində partlayış baş verib. Müharibə dövründən hazırlığım olub. Sadəcə "inna lillah və inna iləyhi raciun" söylədim. Sanki bu sözləri mənə özü pıçıldadı. Sağlam bir insanı yola salırsan, bir az keçmiş şəhadət xəbəri gəlir. Buna dözmək asan deyil. Bu partlayışda 39 nəfər şəhid oldu. Əza məclisində oturan xanımlar 20-22 yaşlı gənc xanımlar idi. Onlar həyat yoldaşlarını sevirdilər və buna görə gözlərinin yaşı qurumurdu. Bu böyük müsibət idi. İki böyük övladım nə baş verdiyini yaxşı anlayırdı. Məni narahat edən iki kiçik qızım idi. Zəhranın 5 yaşı vardı, o biri qızım büluğ həddinə çatmışdı. Onların bu hadisəni asanlıqla qəbul etməsi mümkün deyildi. Hadisə baş verən gecə qohumlardan biri Zəhranı evlərinə apardı. Səhəri gün nə olur olsun onu evdə saxlamaq qərarına gəldim. Bilmirdim bu ağır xəbəri ona necə çatdırım. Evə get-gəl vardı. Başsağlığı verirdilər. Amma qızım hələ nə baş verdiyini anlamırdı. Arabir yanıma gəlib, mənə sarılırdı. Mən ona sadə dillə Kərbəladan danışırdım. Deyirdim ki, xanım Rüqəyyə və xanım Səkinə Kərbəlada Allah yolunda atalarını veriblər. Zəhra qulaq asır, bəlkə də yaxşı dərk etmirdi. Sonra oynamağa gedirdi.

Şəhidlərin dəfn mərasimi televizorda geniş yayımlandı. Həmin vaxt Zəhranı qucağıma almışdım, birlikdə baxırdıq. Zəhra hadisəni ilk dəfə televiziyadan eşitdi. Bir ah çəkib dedi: "Anacan, atam şəhid olub?" Mən cavab verdim ki, bəli, şəhid olub. Çətin olsa da Allahınköməyi ilə Zəhra buna öyrəşdi. Amma ilk dəfə bu xəbəri eşidəndə çəkdiyi yanıqlı ahı unuda bilmirəm. Doğrudan da hacı Həsən bizimlədir. Biz onsuz olduğumuzu ağlımıza gətirə bilmirik. Həyatda olduğu zaman da tez-tez məzuniyyətə gedərdi. İndi məzuniyyət də yoxdur. Amma biz onun daim evdə olduğunu hiss edirik.

Zəhra hələ məktəbə getməmişdən atasının şəkillərini çəkirdi. Bu şəkilləri saxlamışam. Mənə öz zehnində olanları danışanda deyərdim ki, nə qədər ki, unutmamısan, tez kağıza köçür. Yuxularını yazdırmışam. Düşünürəm ki, bu çox dəyərlidir. Atasının şəkilləri, onun haqqında yazdığı ilk cümlələr böyük dəyərə

malikdir. O biri qızım üçün də çox çətin idi. Amma tədricən mövcud vəziyyəti qəbul etdi.

Sual: Şəhid Tehrani Müqəddəmin hansı fəaliyyətləri barədə şəhadətindən sonra xəbər tutmusunuz?

Xanım Heydəri: O heç vaxt iş barədə danışmazdı. Mən yalnız şəhadətindən sonra gördüyü işlər barədə eşitdim. Bacı-qardaşı da onun işlərindən xəbərsiz idi. Şəhadətindən sonra televizorda onun fəaliyyətləri barədə məlumat verildi. Heç kimin ağlına gəlmirdi ki, o belə böyük işlər görüb. Olduqca təvazökar idi.

Suriyaya səfərindən qabaq raket bölməsində təlimlərdə olmuşdu. Mən bilirdim ki, o Almaniya, Koreya, Çinə gedib-gəlir. Amma heç vaxt hansı iş ardınca getdiyini bilməzdim. Özünü elə aparırdı ki, sanki belə səfərlərdə olmayıb.

Hacı Həsən müharibə dövründə də belə idi. Cəbhədən çox danışmazdı. Adətən cəbhədə olanlar həmin günlər haqqında həvəslə danışır. Hacı Həsən belə deyildi. Başqaları haqqında danışsa da özü haqqında heç nə deməzdi. Əgər onunla müharibədən sonra ailə qursaydıq bəlkə də cəbhədə olduğunu deməzdi.

Sual: Rəhbər Ayətullah Xameneinin həyat yoldaşı ilə görüşünüzü necə xatırlayırsınız?

Xanım Heydəri:: Həzrət Ağanın xanımı başsağlığı vermək üçün evimizə gəlmişdi. Mən bu barədə ilk dəfədir danışıram. 1391-ci il mehr ayı idi. Rəhbərin xanımı şam namazından sonra gəldi. Bir qədər söhbətdən sonra ondan soruşdum ki, partlayış baş verən gün harada olub? Həzrət Ağa bu xəbəri eşidəndə hansı hissləri keçirib? Həzrət Ağanın xanımı buyurdu ki, süfrəyə əyləşmək istədiyimiz vaxt partlayış səsi eşitdik; hər ikimiz ayağa qalxıb pəncərəyə yaxınlaşdıq. Dedim olsun ki, bizim məntəqədə hadisə baş verib. Nə baş verdiyi məlum deyildi. Həzrət Ağa yeməkdən sonra evdən çıxdı; gecə qayıdanda çox narahat idi; Səbəbini soruşanda buyurdu: “Ən əziz adamlarımdan birini itirdim!” Həzrət Ağanın həyat yoldaşı elə danışdı ki, göz yaşlarımı saxlaya bilmədim.

Mən onun ağanın dilindən nəql etdiklərini unutmamaq üçün dəftərçəyə yazdım. Yaddaşıma bir o qədər də etibarım yoxdur. Həzrət Ağanın Hacı Həsəni əziz adamı kimi təqdim etməsi məni fərəhləndirirdi. Xoş Hacı Həsənin halına ki, hətta dövrün vəliyyi-fəqihinə özünü sevdirə bilmişdi. Çox böyük sözdür. İndi də arabir Həzrət Ağanın yoldaşını görürəm. Onun bizim ailəyə xüsusi diqqəti var.

Sual: Hər ay şəhid ailələri ilə görüşürsünüz. Bu məclisi qurmaqda məqsəd nədir?

Xanım Heydəri: Hər ayın əvvəlində belə məclislərin təşkili həm də Hacı Həsənin öz istəyi idi. Bu məclisə həmdərd insanlar toplaşır. Şəhid ailələri bir-birlərini görəndə təsəlli tapırlar. Ğədir şəhidlərindən sonra hiss etdim ki, şəhid ailələrinin belə məclisə ehtiyacları var. Mənim qəlbim ağrayanda psixoloq yanına gedirəm. Mənə nə qədər tövsiyə versə düşünürəm ki, mənim problemimi yaşamadığından məni başa düşə bilməz. Bu ailələr arasında həm yaşım, həm də təcrübəm çox olduğundan məsuliyyət hiss edirəm. Allahdan istəyirəm ki, sözümə təsir versin, onlara xidmət edə bilim. Mənim rəsmi məsuliyyətim yoxdur, təşkilata başçılıq etmirəm. Sadəcə günün yarısını şəhid ailələri ilə dərdləşməyə sərf edirəm. Allahdan, Peyğəmbərdən (s), ayə və hədislərdən danışırıq. Danışırıq ki, biz tək deyilik. Tarix boyu haqq yolunda bu ağrını çəkənlər olub. Hadisələri yada salırıq, şəhidlərlə iftixar edirik. Çətinliyi olanlara yardım əli uzadırıq. Şəhid xanımları bu məclisdə öz yaşıdlarını gördükdə qəlbləri aramlıq tapır.

Mən məclislərdə hər dəfə yada salıram ki, biz burada toplaşdığımız kimi onlar da axirətdə bir məclisə toplaşıblar. Şəhidlər şaddırlar ki, onların ailələri bir yerdədir. Məsləhət istəyən məsləhət veririk. Amma əsas mehvər Qurandır. Onlar Quran yolunda gediblər. Ayə və hədislər danışırıq, dini mövzularda söhbət edirik, nəticəsi də yaxşı olur. Bir çox şəhid anaları uzaq yol gəlir. Məclislər Kərəcdə keçirilir. Evi Kərəcdə olanlar da çoxdur. Allaha şükr edirəm, çox razıyam. Xanımlar deyirlər ki, bu məclisdə bir araya gəlməyimiz bir dünya dəyərə malikdir.

Həyat yoldaşlarımızın şəhadətindən qabaq ailəvi get-gəlimiz yox idi. Mən 39 şəhid arasında yalnız cənab Nəvvab və Səlgini tanıyırdım. Ötən il şəhidlərin ildönümünə toplaşdığımız zaman bütün şəhid zövcələrinin danışmasını istədim. Məclis çox isti oldu. Hamı ağladı. Bu məclislərin səmərəsi sonradan iki kitabın ərsəyə gəlməsi oldu. Artıq hamı bilir ki, hər ayın əvvəlində toplaşmalıyıq.

## Cənab Rəhbər: Əfqan mühacirləri əzizləyin!

Hoccətülislam İbrahimi ilə söhbət

İran İslam Cümhuriyyəti ölkəsində qeyri-sabitlik, dini dəyərlərə basqı yaşanan müsəlmanların sığınacağıdır desək yanılmarıq. Bu gün Əfqanıstanda, İraqda və bir çox başqa müsəlman ölkələrində etiqadlı insanların normal yaşaması üçün şərait mövcud deyil. Misilsiz sanksiyalara, siyasi təpkilərə məruz qalmış İran bütün problemləri kənara qoyaraq mühacirlərə ağuş açıb. Bu gün İranda çoxluq təşkil edən əfqan mühacirlər deyir ki, onları ilk dəfə İrana üz tutmağa sövq edən Xomeyni eşqi olub. Mərhum İmam imperializm və beynəlxalq sionizmin meydan suladığı bir dövrdə İranda İslam bayrağını ucaldaraq İslam dünyasının müdafiəsinə qalxdı.

Əfqanıstanda vəziyyət dözülməz oldu. Əfqanlar İrana üz tutdular. 30 ildən artıqdır ki, əfqanıstanlı müsəlmanlar İrana sığınıb. İmam Xomeyni (r) təkcə iranlıların yox, həm də əfqanların imamı idi. İmam dünyasını dəyişəndən sonra Ayətullah Xamenei rəhbərlik məsuliyyətini üzərinə götürdü. Höccətülislam İbrahimi uzun illər Əfqanıstan üzrə rəhbərin nümayəndəsi olub. Əfqan mühacirlər cənab İbrahimini öz problemlərinin həllində ən təsirli sima sayırlar. Sayı milyonu aşan əfqan mühacirlərin heç şübhəsiz kifayət qədər problemləri var. Amma bu problemlərin səbəbi İran rəhbərliyinin diqqətsizliyi deyil. Cənab İbrahimi Ayətullah Xameneinin əfqan mühacirlərlə bağlı göstərişini yada salır: “Cənab Rəhbər göstəriş verib ki, əfqan mühacirlər əzizlənsin. Ayətullah Xamenei əfqanların üzünə qapı açılmasını yetərli saymır, onlara hörmət-ehtiram göstərilməsini tələb edir.”

Tanınmış əfqan diplomat Məhəmməd Rəhim Əfzəli bir müsahibəsində deyir ki, höccətülislam İbrahimi öz duasında qiyamətdə əfqanlarla səhnəyə gətirilməsini istəyir. Diplomatın sözlərinə görə cənab İbrahiminin fəaliyyətləri həmişə əfqanlar üçün ümidverici olub.

Təsnim İnformasiya Agentliyi əfqan mühacirlərlə bağlı cənab İbrahimi ilə söhbətləşib. Bu söhbətin bir hissəsini oxucuların diqqətinə çatdırırıq.

Sual: Cənab İbrahimi, biz əfqan mühacirlərin problemləri ilə bağlı araşdırma aparırıq. İmam Rahil buyurmuşdu ki, İslam sərhəd tanımır və insanların dəyəri onların milliyyəti və ölkəsi ilə ölçülmür. İmamın (r) sözlərinə görə, İran İslam Cümhuriyyətində əfqan mühacirlə iranlı arasında fərq olmamalıdır. Amma biz mühacirlərin çoxsaylı problemləri ilə rastlaşdıq. İslam Cümhuriyyətinin birinci şəxslərinin mühacirlərə böyük sevgisi olduğu halda nə üçün belə problemlər yaranır?

Höccətülislam İbrahimi: Mühacirlərlə bağlı mövzunun müxtəlif yönləri var. Təhlükəsizlik, dolanışıq, məskən, təhsil sahəsində danışmaq lazım gəlir. Amma qəbul etməliyik ki, mühacirət prinsipcə çətinliklə müşayiət olunan hadisədir. Əfqan şairlərdən biri deyir ki, mühacir bir yerdən başqa yerə köçən quş deyil. Şair mühaciri ağacdan düşmüş yarpağa bənzədir və bu yarpağın ayaq altda qalmasını təbii sayır. Bütün dünyada mühacirlər oxşar problemlər yaşayır. Əgər mənəviyyat məsələsini nəzərə almasaq mühacirət özü çətinlik deməkdir. Bəli, bizim əqidəmiz budur ki, İslam sərhəd tanımır. Amma dünyada bizdən asılı olmayan işlər var. Müsəlman ölkələri arasında coğrafi sərhədlərin olmaması bizim arzumuzdur. Reallıq bizə nə diktə edir? Yaşadığımız dünyanın qanunlarını biz tənzimləmirik. İslam dünyası vahid ümmət olsaydı gözəl olardı. Nə zamansa belə olub. Bəni-Üməyyə dövründə sərhəd məhdudiyyəti yox idi. Necə ki, Harun müxaliflərini hara getsələr bu torpaqlardan çıxa bilməyəcəkləri ilə hədələyirdi. Amma müsəlmanların zəifliyi, daxili ixtilaflar sərhədləri yaratdı. Vəhdət ixtilafa çevrildi. Vahid ümmət parçalandı. Sərhədləri biz yaratmamışıq. Bizim əqidəmiz budur ki, əfqanla iranlı arasında heç bir fərq yoxdur. Əqidəmiz budur. Nə edək ki, mövcud şərait ölkələri sərhədlərlə ayırıb. Dünya keçmişdəki dünya deyil. Ölkəmizə qarşı qlobal dağıdıcı planlar mövcuddur. Biz düşmənlərimizin hədəfində olduğumuzu unuda bilmərik.

Biz əfqanları özümüzdən sayırıq. Amma dünya bu sözü qəbul etmir. Əfqanıstanı ayrı, İranı ayrı ölkə sayırlar. Bugünki şəraitdə mühacirlər, əfqanlar üçün görə biləcəyimiz yeganə iş problemləri aradan qaldırmaq, onlar üçün münasib şərait yaratmaqdır. Reallıqla barışmaqdan başqa yol yoxdur. Mühacirlərin qarşısında nə qədər böyük problemlər olsa da bu sahədə çox iş görülür. Başqa ölkələrdə mühacirə münasibəti nəzərə alsaq ölkəmizdə mühacirə münasibətin üstün olduğunu görərik. Görün çoxsaylı əfqanlar neçə illərdir ölkəmizdədir. Ölkəmiz subsidlərlə yaşayır. Elektrik enerjisi, qaz, su, çörək və bu qəbildən olan məhsullar xalqa istehsal dəyərindən aşağı qiymətə satılır. Əfqanlar da iranlılar kimi bu güzəştlərdən faydalanır. Hansı ölkədə əfqanlar üçün belə bir şərait var?! Bir zaman imamın dəftərində, bu gün rəhbərin ofisində əfqanlar da çalışır. İmam Xomeyninin (r) dəftərində çalışan əfqanıstanlı Hacı İshaqın nüfuzu əfqanların nüfuzudur. Bu gün imam Xomeyninin (r) hərəmini əfqanlar idarə edir. Mərhum Hacı Əhməd Xomeyninin ən yaxın adamları əfqan mühacirlər idi. Biz BMT-nin siyasi oyunu olan qaçqın düşərgəsi yaratmadıq, əfqanlar bütün İran ərazisində yerləşə bilir. Elm hövzələrində 9 min əfqan tələbə təhsil alır. İran universitetlərində 10 minə yaxın əfqan gənc təhsilini davam etdirir. İrandakı mühacirlər əksər təhsil ocaqlarında imtahanlarda iştirak edir.

Mühacirlərə diqqət nümunəsi sayılacaq bir xəbər verim. Ayətullah Xameneinin göstərişi ilə onun ofisində xüsusi bir komitə yaradılıb. Mən də həmin komitənin üzvüyəm. Komitənin işi mühacirlərin problemlərini araşdırıb həll etməkdir. Cənab Rəhbər göstəriş verib ki, mühacirlərə ehtiram göstərilsin. Yəni söhbət adi diqqətdən yox, xüsusi hörmətdən gedir. Komitədə əksər dövlət qurumlarının nümayəndəsi var. Ehtiram qanunun fövqündə dayanan həqiqətdir. Əslində Həzrət Ağa sadəcə hörmət yox, mühacirlərin əzizlənməsini göstəriş verib. Biz bu göstəriş əsasında çalışırıq. İndi əfqan alimlər radio-televiziyada çıxış edə bilirlər. Onların cəmiyyət yaratmaq, tədbir keçirmək imkanları var və biz onları himayə edirik. Biz hətta mühacirət kartı olmayan mühacirlərə qayğı göstəririk. Qərara alınıb ki, nə qədər ki, mühacirlər İrandadır, onların övladları məktəblərdə maneəsiz təhsil alsın. Onların öz təhsilini davam etdirməsi üçün şərait yaradılır. Əfqan uşaqların hətta qeyri-dövləti məktəbləri var. Biz heç zaman iranlı ilə əfqan arasında fərq qoymamışıq. Ölkəmiz ağır sanksiyalarla üzləşib. Əgər bir çörəyimiz varsa, onu əziz əfqanlarla bölürük. Əfqanlar da iranlılar kimi məşğulluq imkanına malikdir. Bu gün elm hövzəsinə getsəniz bir çox ustadların əfqan olduğunu görərsiniz. Universitetlərdə də əfqan ustadlar var. Düşünürəm ki, İran İslam Cümhuriyyətini bütün müsəlmanların evi saymaq olar. Amma siyasi baxımdan, təhlükəsizlik

baxımından məhdudiyyətlərin olması təbiidir. İrandan sonra ikinci farsdilli ölkə Əfqanıstandır.

Mühacirlər, əfqanlar üçün ən böyük mənəvi dayaq Cənab Rəhbərin onların sevgisidir. Ayətullah Xamenei əfqan alimləri iranlılardan da artıq əzizləyir. Düşünürəm ki, biz mümkün olan işləri görürük və Cənab Rəbər də uzaqgörənliklə buna nəzarət edir. Bir dəfə Cənab Rəhbərin qəbuluna yazılmışdım. Həmin vaxt Əfqanıstanın prezidenti Rəbbani ağanın görüşünə gəlmişdi. Cənab Rəhbərin Rəbbani ilə söhbəti başa çatana qədər gözləyəsi olduq. Həzrət Ağa onların inqilabçı olmasına böyük əhəmiyyət verir. Onun istər şiə, istər sünni əfqanlarla görüşündə adətən iştirak etmişəm. Həzrət Ağa əfqanlara misilsiz diqqətlə yanaşır. Əgər bu gün çatışmazlıq varsa bəziləri aradan qaldırılmaqdadır, bəziləri imkanlarımızdan xaricdir.

Sual: Cənab İbrahimi, mühacirlər özləri də qəbul edirlər ki, onlara qarşı haqsızlıq yoxdur. Sadəcə idari işlərdə, ayrı-ayrı məmurlar, hansısa məsul işçilər müəyyən diqqətsizlik göstərir.

Höccətülislam İbrahimi: Bəli, idari işlərdə problemlər var və bu təkcə əfqanlara yox, həm də iranlılara aiddir. İranlılar da haradasa məmurların diqqətsizliyindən əziyyət çəkir. Bu günlərdə televiziyada bizim bəxtiyarilər haqqında film getdi. Bəxtiyarilər bu filmə etiraz etdilər. Onlar ki, əfqan deyil, iranlıdır. Televiziyada kiminsə ləhcəsinin yamsılanmasına siyasi rəng verməməliyik. Belə nöqsanlar hər yerdə var.

Həzrət Ağa buyurur ki, qanunların icrasında problemimiz var. Parlamentlə dövlət arasında gərginlik yarananda Həzrət Ağa da eynən İmam (r) kimi dövlətin tərəfini saxlayır. Mən iki dəfə parlamentə seçilmişəm. Dövlətə təzyiq göstərən kimi İmamdan mesaj gəlirdi ki, əyləci çəkin. Çünki icra işi çox çətindir. 3 milyon mühaciri yerləşdirmək asan məsələ deyil. Mən 22 ildir mühacirlərlə işləyirəm. Say artdıqca problemlərin artması təbiidir.

Biz ölkədə hicaba zəruri diqqət verilməsinə çalışırıq. Bu barədə qanun çıxarılanda həmin qanunu həyata keçirmək asan olmur. İcra işi doğrudan da çətindir. Qanunlar gözəldir, amma onların həyata keçirilməsində çətinlik çoxdur.

Əfqan diplomatı Rəhim Əfzəli deyir: Cənab Rəhbərlə bağlı bir xatirəni nəql etmək istəyirəm. Ayətullah Xamenei Rəhbər məqamına seçilməzdən öncə ona tez-tez zəhmət verirdik. Qəribə hadisələr baş verirdi. Bir dəfə sərhəddən keçməli olan əfqanlara heç bir qanuni əsas olmadan demişdilər ki, 2 min tüməndən artıq pul apara bilməzlər. Gömrükdəki məmur özbaşınalıq edərək əfqanları saxlamışdı. Həmin gecə Ağanın görüşünə gedəcəkdik. Cənab Xamenei o zaman gənc idi. Mən ustad Rəbbani ilə Ağanın görüşünə getdim. Süfrəyə səngək çörəyi qoydular. Çörək çox quru idi. Cənab Xamenei soruşdu ki, pendir yoxdur? Dedilər ki, olan budur. Bir az keçdi, çay gətirdilər. Binanın çölündə ehsan üçün xurma qoyulmuşdu. Xidmətçi bayıra çıxıb bir neçə xurma gətirdi. Ağanın ac olduğu hiss edilirdi. Nə isə, iki mövzuda sözümüz vardı. Biri bu idi ki, əfqanları sərhəddən 2 min tüməndən artıq pul keçirməyə qoymurlar. Ağa çox narahat oldu. Gecə saat 12-də harayasa zəng vurdu, etirazını bildirdi və elə həmin saat problem aradan qaldırıldı.

Bir ideal vəziyyət var, bir də real. Əgər reallığı nəzərə alsaq deməliyik ki, İran dövləti və xalqı mühacirlərə münasibətdə bacardığını edib. Amma ideal vəziyyətə çatmaq çətindir. Elə problemlər var ki, onlardan çıxış yolu tapmaq mümkünsüz olub. Biz əfqanlar inanırıq ki, məsullar bu sahədə çalışır...

## İslam vəhdəti barədə 5 mühüm nöqtə

Höccətülislam doktor Mehdi Əlizadə Musəvi ilə müsahibə

Cənab Rəhbər Ayətullah Xamenei Beynəlxalq İslam Vəhdəti Konfransının 28-ci toplantısında dövlət rəsmiləri və qonaqlarla görüşdə buyurdu: “Biz öz xarici siyasətimizi bütün müsəlman ölkələr, region ölkələri ilə dostluq və qardaşlıq prinsipi üzərində qurmuşuq. Buraya qonşu olmayan ölkələr də aiddir. Bu bizim siyasətimizdir. Biz bu prinsipi gözləmişik, gələcəkdə də bu xətt üzrə hərəkət

edəcəyik.” Cənab Rəhbərin informasiya mərkəzi bu mövzu ilə bağlı höccətülislam doktor Mehdi Əlizadə Musəvi ilə söhbətləşib. Cənab Əlizadə Musəvi politologiya üzrə doktordur və hazırda Həcc-Ziyarət Araşdırma Mərkəzinin rəisidir.

Sual: Bəziləri bu fikirdədir ki, biz vəhdət zəminində dialoqa getməli və təşəbbüs göstərməliyik. Bunun səbəbi İslam vəhdəti mövzusunun Əhli-Beyt məktəbi və Qurandan qaynaqlanmasıdır. İlk sualımız budur ki, vəhdəti dünyaya dialoq vasitəsi və meyar kimi tanıtdırmaq üçün nə etməliyik?

Cavab: Əvvəla müəyyənləşdirməliyik ki, təqrib adlandırdığımız məzhəblərin yaxınlaşması, başqa sözlə İslam vəhdəti strategiyadır, yoxsa taktika? Strategiya ilə taktika arasında fərq bundan ibarətdir ki, strategiya məqsədə doğru aparan ümumi siyasətdir, taktika həmin məqsədə çatmaq yollarıdır. Belə görünür ki, biz təqribə bir strategiya kimi baxmalıyıq. Təqrib İslam dünyasının bünövrə siyasətlərindən və məqsədlərindəndir. Əhli-Beyt (ə) yoluna nəzər saldıqda da bunu görürük. Başqa dinlərdə də belə prinsip var. Bir zaman məsihi məzhəbləri, protestantlar və katoliklər ağır müharibələr aparırdı. İndi onlar arasında da gərginliyin zəiflədiyinə şahid oluruq. Onlar da dialoq sorağındadır. Bir növ düşüncələrdə də qloballaşma gedir. Təkcə ideologiya sahəsində yox, siyasət və iqtisadiyyatda da bunu müşahidə edirik. Bu gün dünya həmkarlıq, yaxınlaşma, həmrəylik marağındadır. Müştərək mənafelərin daşıyıcısı olan təşkilatlar, qruplar yaranır. Hamı bu yaxınlaşmanın zərurətini dərk edir.

Növbəti nöqtə budur ki, İslam tam şəkildə vəhdət yaratmaq potensialına malikdir. Bizim dini təlimlərimizdə İslam vəhdətinə yol açan təlimlər çoxdur. Təkcə ümmət sözünə diqqət yetirək. Ümmət sözü coğrafi sərhəd tanımır. Bu söz sırf ideoloji məfhum daşıyır. Harada İslam düşüncəsi varsa İslam coğrafiyası da genişdir. Vəhdət mövzusu ortaya gələndə milliyyətçilik, tayfaçılıq, cinsi və irqi fərqlər, dini mənsubiyyət kənara qoyulur. Amma vəhdət dini təlimlər üzərində qurulub.

Sual: Əgər bu prinsipi nümunə, meyar şəklində təqdim etmək istəsək onun hansı xüsusiyyətləri olmalıdır?

Cavab: İlk məsələ budur ki, müştərək prinsipləri ortaya qoyaq. Elə prinsiplər ki, bütün məzhəblər onu qəbul edir. Elə müştərək nöqtələr tapılmalıdır ki, bu məzhəblər arasında bağlılıq yaratmağa qadir olsun. Zənnimcə bütün məzhəblərdə belə nöqtələr var. Tövhid, nübüvvət, məad, Quran məzhəblər arasında müştərək mövzulardır. Bu mövzular məzhəbləri bir-biri ilə əlaqələndirir. Demək, əsas məsələ müştərək nöqtələrdir və həmd olsun Allaha ki, məzhəblərdə belə nöqtələr var.

İkinci məsələ müxaliflərə qarşı dözümlü olmaqdır. İslam məzhəbi daşıyıcıları bir-birinə qarşı dözümlü olmağa çalışmalıdırlar. Dini mətnlərdə belə dözümlülük haqqında buyuruqlar var. Məsələn deyilir ki, İslamı qəbul edən şəxsi qeyri-müsəlman saymaq olmaz. Quranda, Peyğəmbər (s) Əhli-Beyt (ə) buyuruqlarında bu ruhiyyə müşahidə olunur. Əmirəlmöminin (ə) xəlifələr dövründə haqqı tapdansa belə xəlifələrlə yoldaşlıq edirdi. Məsələn, ikinci xəlifəyə məsləhət verirdi.

Bu misallardan görünür ki, İslam prinsiplərini qorumaq ixtilaflardan önəmlidir. Bu yolu siz məzhəb başçılarında da müşahidə edə bilərsiniz. Nəql olunur ki, Əbül-Həsən Əşəri dünyadan gedəndə ətrafındakılara dedi: “Şahid olun ki, mən qiblə əhlindən kimsəni təkfir etmirəm.”

Əhməd ibn Hənbəl Cəhmiyyənin arxasında namaz qılırdı, hansı ki, onun küframiz əqidədə olduğunu düşünürdü. Bunun səbəbini soruşanda Cəhmiyyənin qiblə əhli olduğunu söylədi.

Üçüncü nöqtə budur ki, təqrib, məzhəblərin yaxınlaşması məzhəb əqidələrindən imtina etmək deyil. Biz təqrib deyəndə öz təlimlərimizə göz yummağı nəzərdə tutmuruq. Həqiqət budur ki, dialoq mədəniyyəti gözlənilməlidir. Təqribin xüsusiyyətlərindən biri budur ki, bu mövzuda danışılsın, dəlillər göstərilsin. Əgər şiə ilahi təyinat, sünnə əhli şura seçiminə inanırsa hər tərəf öz dəlillərini göstərməlidir.

Mərhum Seyyid Şərəfuddinin Əl-Müraciat kitabı ilə yanaşı Təliful-ummə kitabı var. Əl-Müraciat kitabında ixtilaflı baxışlar nəzərdən keçirilir. Bu kitabda şiə məzhəbinin baxışları şərh olunub. Amma qeyd edir ki, biz belə düşünsək də, başqa məzhəblərlə rabitə fikrində olmalıyıq. Yəni məzhəbləri yaxınlaşdırmaq, ümmət arasında vəhdətə nail olmaq lazımdır.

Hər bir məzhəbə hörmət, onun müqəddəsliklərinə ehtiram göstərilməsi zəruridir. Biz təqrib yolunu gedərkən bu yola münasib mədəniyyət yaratmalıyıq. Heç bir məzhəbin müqəddəsliyi təhqir olunmamalıdır. Sadəcə insan öz əqidəsini sübut etməlidir. Əhli-Beyt (ə) heç zaman müqəddəsliklərin alçaldılmasına yol verməyib. Münasibətlər gərginləşəndə məzhəblər arasında uçurum dərinləşir. Gördüyünüz kimi ifratçı, təkfirçi cərəyanlar uçurum yaratmaqla məşğuldur. Bu gün Pakistanda müxtəlif firqələr bir-birini küfrdə suçlayır. Elə firqələr var ki, özləri açıq-aşkar yolu azdığı halda başqalarını küfrdə ittiham edir. Amma məzhəblərin bir-birinin müqəddəsliyinə hörmət göstərməsi lazımdır.

Dördüncü nöqtə budur ki, məzhəbi anlaşmalar kənarında İslam alimləri arasında məhəbbət olmalıdır. Heç bir alim başqa məzhəbdən olan alimə qarşı sərt davranmamalıdır. Həmin alimlər üzləşəndə özünü müharibə səhnəsində görməməlidir. Bizdə çox işlənən iki söz var: sual və şübhə. Təqribin əsas işlərindən biri şübhəni suala çevirməkdir. Şübhənin işi dağıdıcılıqdır. Şübhə qarşı tərəfin əqidəsini aşağılayır. Şübhə olan yerdə məntiqi cavab axtarışı yoxdur. Şübhəyə cavab verildikdə də başqa şəkildə təkrarlanır. Əgər məzhəb nümayəndələri öz şübhələrini sual formasında ortaya qoysalar həm qarşılıqlı anlaşma yaranar, həm də mövzu elmiləşər.

Təqribdə son nöqtə budur ki, düşməni tanıyaq. Düşmənin İslama qarşı əsas işlərindən biri təfriqə yaratmaqdır. Müsəlmanlar öz aralarında mehriban, düşmənə qarşı sərtdirlər. Düşmən heç zaman sülh, barış istəmir. Onların əsas işlərindən biri məzhəblər arasında dialoqu əngəlləməkdir. Bu gün İslam oyanışı ifadəsi aktualdır. Başqa bir ifadə İslam huşyarlığıdır. İslam oyanışı daxildən gəlir. Yəni onun dirçəliş təsiri daxildəndir. İslami huşyarlıq isə İslam dünyasının xaricinə aiddir. Yəni öz çevrəmizdən kənara baxışımızı nizamlamalıyıq.

Sual: Biz ciddi informasiya hücumları ilə üzləşmişik. Elə bir saniyə yoxdur ki, regional və ya beynəlxalq mətbuatda İran əleyhinə söz deyilməsin.

Cavab: Bəli bu hal var. İnqilabın dünyaya yayılması məqsədi düşmən tərəfindən həmişə şiəliyin yayılması kimi təqdim olundu. Biz ötən vaxtda daha səmərəli işlər görə bilərdik. Həzrət İmam (r) və Cənab Rəhbərin yanaşması dünya müsəlmanlarını vəhdətə maraqlandırmağa xidmət edir. Məsələn, İfratçı və Təkfirçi Cərəyanlar İslam Alimlərinin Nəzərində beynəlxlaq konfransının iştirakçıları ilə görüşdə Cənab Rəhbər söhbətini başa çatdırandan sonra onun ətrafında saysız alimlər toplaşdı. Onlar Cənab Rəhbərə sevgilərini bildirirdilər. Şübhə yeri qalmır ki, ayrı-ayrı məzhəblərdən olan alimlər Cənab Rəhbəri bir məzhəb çərçivəsində görmürlər. Onu İslamın rəhbəri kimi qəbul edirlər. Hətta bəzi alimlər açıq şəkildə İslam dünyasının vahid rəhbəri tələbini ortaya qoyurdular. Deyirdilər ki, Ayətullah Xamenei İslam dünyasının rəhbəri məsuliyyətini daşıyır.

Cənab Rəhbərin vurğuladığı məsələlərdən biri bu idi ki, İran İslam Cümhuriyyətinə vəhdət fəzası hakimdir. İran İslam Respublikasının xarici siyasətində vəhdət, məzlumların müdafiəsi mühüm yer tutur.

Başqa bir nöqtə budur ki, İran İslam Respublikası dünyanın istənilən bir nöqtəsində müsəlmanların müdafiəsini özünə vəzifə sayır. Myanmarda faciə baş verəndə ilk addım atan İran İslam Cümhuriyyəti oldu. Fələstin probleminə münasibətdə də belədir. Qərb imperializminə etiraz səhnəsində də İran öncüldür. İslam İnqilabının başlanğıc dövründən İran İslam Cümhuriyyəti dünya məzlumlarının müdafiəsində durub. Bütün bunlar təqrib, məzhəblərin yaxınlaşması prosesində əsas prinsiplərdir.

Sual: Qeyd etdiniz ki, Həzrət Ağa həmin məclisdə buyurub: “İran İslam Cümhuriyyəti Allahın lütf və fəzli ilə məzhəbi məhdudiyyətlər və ixtilaflara səbəb olmayıb. Livanda şiə Hizbullaha kömək etdiyi kimi Fələstində sünni İslam Cihadı və başqa qruplara yardım göstərib və bu yardımı davam etdirir.” Bu sözün ardınca salonda təkbir səsi eşidildi.

Cavab: Əgər xatırlayırsınızsa həmin məclisdə Cənab Rəhbər ixtilaf salan cərəyanların biganələrlə əlaqəsinə işarə etdi. İran İslam Respublikasında insanın şiə və ya sünni olmasına fərq qoyulmur. Bu nümunə məhdud məzhəbi baxışın fövqündədir. Bəli, Rəhbər həm şiə Hizbullahın, həm də sünni İslami Cihad qrupunun himayəsini qeyd etdi. İraqın Mosul, Neynəva, Səlahəddin, Əl-ənbar məntəqələrində şiə azdır, əksəriyyət sünnə əhlidir. Amma İran İslam Respublikası bu insanların taleyi ilə bağlı məsuliyyət hiss edir. Əksər kürdlər sünnə əhlindəndir. Şahid olduq ki, Kobanidə faciə baş verəndə İran sərt siyasi mövqe nümayiş etdirdi.

Əgər İslam oyanışı coğrafiyasına baxsaq Misirdə hərəkat şiə hərəkatı deyildi. İslami bir hərəkat hesab edilirdi. Bu hərəkata münasibətdə İran İslam Respublikası hami mövqeyi tutdu. Tunisdə də belə oldu. Əksər müsəlman ölkələrində İslam oyanışı zamanı İran İslam Cümhuriyyəti birinci addım ataraq hərəkatı müdafiə etdi. Bu zaman məzhəb ayrıseçkiliyinə yol verilmədi. İslami oyanış coğrafiyasında yalnız Bəhreyn əhalisi arasında şiələr çoxdur. Amma İran Bəhreynə diqqət yetirdiyi qədər Liviyaya, Tunisə diqqət ayırdı. Yəni İran İslam Cümhuriyyəti məzhəb mənsubiyyətinə baxmadan İslam amallarını izləyir.

Əgər diqqət yetirsəniz şiə müctəhidləri də məsələyə belə yanaşır. İfratçı və Təkfirçi Cərəyanlar İslam Alimlərinin Nəzərində konfransı müqəddəs Qum şəhərində keçirildi. Konfransda 300-dən artıq qonaq iştirak edirdi. Onların 70%-i sünnə əhlinin təmsilçisi idi. Qum şiə mərkəzi kimi tanınır. Şiə mərcə alimlərinin baxışı məzhəb fövqündədir.

Son illər bəzi cərəyanlar səhnəyə gəlib. Bunlardan biri təkfirçilikdir. Təkfirçilər meydana çıxandan sonra yaranmış faciələri müşahidə edənlər vəhdət prinsipinə daha çox diqqət yetirməyə başladılar. Təkfirçilər hər yerdə ənənəvi məzhəblə müxalifdirlər. Nigeriyada Boko-Haram qruplaşması bu ölkənin sünnə əhlini qətlə yetirir. Əl-Şəbab terrorçuları da Somalidə sünnə əhlini qılıncdan keçirir. Tunisdə, Əl-Cəzairdə özünü Ənsarul-sünnə adlandıran qrup da eyni şəkildə hərəkət edir. Bütün bunlar onu göstərir ki, hazırda İslam dünyasının qurtuluşu vəhdətdədir.

Sual: Siz İfratçı və Təkfirçi Cərəyanlar İslam Alimlərinin Nəzərində konfransında katib idiniz. Konfrans iştirakçılarının Rəhbərlə görüşünü də izlədiniz. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Konqres gecə saat 11-də işini başa çatdırdı. Biz səhəri gün Həzrət Ağanın görüşünə getdik. Gecə qonaqları Tehrana apardıq. Təxminən saat 12-də yola düşdük. Mən qonaqlardan soruşdum ki, bu vaxt yola çıxdığımıza görə narahat deyilsiniz? Onlar iştiyaqla bildirdilər ki, İran səfərimizdə əsas məqsədlərimizdən biri Həzrət Ağanı görməkdir. Onların Cənab Rəhbərə xarizmatik baxışı var.

Qonaqlar Tehrana çatıb hoteldə yerləşənə qədər gecə yarı oldu. Sübh saat 7-də yenidən yola düşdük. Qonaqlar qəribə bir iştiyaqla Ağa ilə görüşü gözləyirdilər. Əksər qonaqlar ön sırada əyləşmək istəyirdi. Səbəbini soruşanda bunu Həzrət Ağanı yaxından görmək istəyi ilə əlaqələndirdilər.

Başqa bir nöqtə budur ki, görüşdən sonra Ağanın buyuruqlarını yada saldım. Mən mindən artıq məqalədə əksini tapmış mövzuları onun söhbətində müşahidə etdim. Həzrət Ağa məqsədə doğru yol göstərirdi. Təkfirçi cəryanların xaricdəki düşmən qüvvələrə bağlılığını sübuta yetirən dəlillər söyləyirdi. Bəzi qonaqlar deyirdilər ki, Həzrət Ağa budaq və yarpaqlar yox, kökə diqqət yetirir. Cənab Rəhbər buyururdu ki, ey İslam alimləri, mövzunun kökündən qəflətdə qalmayın, bu cərəyanların dünyada hansı nöqtədən qaynaqlandığını bilsəniz mövzuya daha düzgün yanaşarsınız.

Həzrət Ağanın sözləri başa çatanda çoxları təkid edirdi ki, Ağanın söhbəti tərcümə olunsun və qonaqlar ölkələrinə qayıdanda bu çıxışı müsəlmanlara təqdim edə bilsinlər. Onlar Həzrət Ağaya uzaqgörən bir rəhbər kimi baxırdılar. Kimsə mövzuya onun kimi əhatəli yanaşa bilmirdi.

Maraqlı nöqtələrdən biri budur ki, qonaqlar arasında sələfilər vardı. Sələfilər təbərrük, əlamətlərdə bərəkət axtarmağı düzgün saymırlar. Hansı ki, onların

əksəriyyəti Ağanın boynundakı şala (çəfyəyə) sahib olmağa çalışırdı. Hətta bu şalı əldə etmək üçün tələsirdilər də.

## Qərbdə vəziyyət necədir?

Hamburq İslam Mərkəzinin rəisi ilə söhbət

Cənab Rəhbərin son bəyanatı ilk baxışdan bütün dünya əhlinə ünvanlanmış kimi görünsə də, əslində qərb gənclərinə müraciətdir. Müraciətin səbəbi həmin məntəqədə fərqli mədəni və coğrafi durumun hakim olmasıdır. Höccətülislam vəlmüslimin doktor Riza Ramazani Hamburq İslam Mərkəzinin rəisidir. O, bu müsahibədə mövzu ilə bağlı sualları cavablandırır.

Qərbdə fərqli durum nədən ibarətdir?

Cənab Rəhbər Ayətullah Xameneinin qərb və Şimali Amerika gənclərinə müraciət ünvanlaması özü bu məntəqələrdə fərqli durumdan danışır. Təbii ki, müraciətdəki tövsiyələrdə bütün dünya gəncliyinin nəzərdə tutulması mümkündür. Bu gün dünyada baş verən hadisələr bütün ədalətsevər və həqiqətpərəst insanları məsələyə ciddi yanaşmağa vəzifəli edir. Avropa və Şimali Amerikada xüsusi durumu şərh etmək üçün bəzi nöqtələri qeyd edə bilərik:

1.Açıq və məxfi formada, ciddi şəkildə izlənən islamofobiya layihəsi güclü informasiya şəbəkəsinin dəstəyi ilə strateji məqsəd olaraq izlənir.

2.Söz azadlığı şüarları altında səmavi din və peyğəmbərlərə, o cümlədən İslam Peyğəmbərinə (s) qarşı təhqir kampaniyası aparılması.

3.İslam dininin mətbuatda, elmi mərkəzlərdə qeyri-peşəkar, məlumatsız insanlar tərəfindən təqdimatı və nəticədə dinin ictimii nüfuzunun sıfra endirilməsi.

4.İslamın həqiqi İslam yox, iki təhrif olunmuş formatda: liberal İslam və radikal-təkfirçi İslam şəklində təqdimatı.

5.Dinlər, məzhəblər, hətta bir məzhəb ardıcılları arasında ixtilaflar yaradılması.

Sovetlər Birliyi dağılandan sonra dünyada nə kimi dəyişikliklər oldu?

Sovetlər Birliyi dağılandan sonra qərbdə ilğım rəqibsizlik, yeganə güc olmaq təsəvvürü yarandı. Amma qərb belə aldanışda ikən İslam Oyanaşı dalğası ilə rastlaşdı. Başa düşdülər ki, böyük insan potensialına malik İslam güclü rəqib olaraq səhnəyə gəlir. Elmi və təcrübi araşdırmalar apararaq anladılar ki, İslamın bütün dövrlər üçün cəmiyyəti idarə edəcək proqramları var. Şübhə yeri qalmamışdı ki, İslamın idarəçilik iqtidarı liberalizm və kommunizm cərəyanlarını gec-tez muzeyə göndərəcək.

Qərbdə başqa bir qrup peşəkarlıqla və öncədən planlaşdırma əsasında İslama qorxunc sifət vermək üçün ifratçılığı qızışdırmağa başladı. Onlar cihad ayələrini əsas götürüb bu dini müharibə, təcavüz dini kimi tanıtdırmaq istiqamətində fəaliyyətlərə strat verdilər. Daha çox İslam Peyğəmbərini (s) müharibə adamı kimi təqdim etmək üçün iş görüldü. Onlar öz zəhərli fikirlərini yaymaq üçün tanınmış simalardan istifadə edirlər.

Dünyanı imperializmin əsarəti altına almaq məqsədilə İslam Oyanışını əngəlləməyi qarşıya məqsəd qoyublar. Həqiqi İslam qəddarlıq, müharibə, ayrıseçkilik, irqçilik, diktaturadan uzaqdır və sülh, dostluq, əxlaq, ədalət, məntiq və ağıl üzərində qurulub. Bu gün diktatura bayrağı qaldıran Ərəb kralları, ərəb şeyxləridir. Onlar heç zaman həqiqi İslam yolu tutmayıblar. Onların həqiqi İslamla baş-başa gəlməsi təbii haldır.

Dinin müasir tələblərə cavab verməsinə münasibət necədir?

Amerika və Qərbdə hər gün İslama qarşı düşmən layihələrin işə salınmasına şahid oluruq.

Qərb milyonlarla avro xərcləyərək Quranla bağlı yeddi illik layihə həyata keçirir. Qurandan yalnız tarixi mətnləri işıqlandırır və bu kitabın keçmişə aid olduğunu, günün tələblərinə cavab vermədiyini iddia edirlər. Demək istəyirlər ki, Quran tarixi təcrübələrin əks olunduğu bir kitabdır.

Universitetlər, təhsil ocaqlarında təşkil olunan tədbirlərə liberal islamçıları dəvət edir, onların dili ilə İslamın köhnəldiyini təlqin etməyə çalışırlar. Bu yolla İslamın ictimai qanunları, şəriət qanunlarının aktuallığını inkar edirlər.

Başqa bir fəaliyyət istiqaməti həqiqi İslamın təhrif olunması, onun radikal cərayan kimi göstərilməsidir. Bu istiqamətdə bütün fəaliyyətlər İslam və Peyğəmbəri qəddar müharibə tərəfdarı kimi tanıtdırmağa hesablanıb. Bu sahədə qərbin tanınmış şəxsiyyətləri də icraçı kimi fəaliyyət göstərir.

Qeyd olunmuş məqsədlərə doğru hərəkətdə informasiya şəbəkələri, kino maqnatlarının rolu danılmazdır. İnternetdə, televiziya və radio şəbəkələrində İslam üzərinə cəbhə boyu hücumun şahidiyik. İslamın təhrifi məqsədi ilə şəbəkələr işləyir, kinolar çəkilir, televiziya verilişləri hazırlanır, romanlar yazılır. Bütün bu fəaliyyətlərdə Quranın cihad ayələri düşmənin istinad nöqtəsidir.

Qərb həm də müsəlman ölkələrində fəaliyyət göstərir. Bu gün əksər müsəlman ölkələrində liberal qərb dəyərlərini əsas götürən partiyalar var və bu partiyalar qərb tərəfindən himayə edilir. Maraqlıdır ki, anti-islam fəaliyyətlər insanlarda İslamla yaxından tanış olmaq marağı yaratmışdır. Dünya boyu təxribatlar güclənsə də, İslamı qəbul edənlər də artmaqdadır.

Düşmən İslamla mübarizə fonunda bütün səmavi dinlərə qarşı təxribatçı fəaliyyətlər aparır. Biz məsihi alimlərlə söhbətləşdiyimiz zaman onlar müqəddəsliklərə qarşı dağıdıcı fəaliyyətlər, dinsiliyin yayılması, hətta həftədə bir dəfə ibadətə maneçilik törədilməsindən şikayətlənirlər. İslam Peyğəmbərini təhqir edənlər İsa Məsih, həzrət Məryəmi də təhqir edirlər.

Qərbdə müsəlmanlar artırmı?

Əminliklə deyə bilərik ki, qərbdə dinin yayılması üçün heç vaxt bugünkü kimi maraq və imkan olmayıb. Qərbdə 50 milyondan artıq müsəlmanın mövcudluğu deyilənləri tam təsdiqləyir. Bu statistika qərəzli insanları qıcıqlandırmaya bilməz.

Qərbin anti-islam partiyalar yaratması, anti-islam təbliğatlar aparması qərb cəmiyyətində İslama ciddi maraq oyadıb. İnsanlar həqiqəti bilmək istəyir. Qərbdə Quranın tərcüməsini dəfələrlə oxumuş insanlar çoxdur.

İnformasiya vasitələrinin İslama qarşı qəfil hücumlarının təsiri qısamüddətli olur. Belə hücumlardan zaman ötdükcə insanların İslamı öyrənmək marağı güclənir.Qətiyyyətlə deyə bilərik ki, İslama qarşı atılmış addımların əksəri əks-nəticə verib, insanlar İslamdan uzalaşmaq əvəzinə, ona yaxınlaşıblar.

Cənab Rəhbərin əhatəli və yığcam məktubu vaxtında yazılmış bir məktub idi. Cənab Rəhbər pak fitrətli, günah çirkabında hələ ki həqiqətə marağı məhv olmamış qeyri-müsəlman gənclərə də üz tutub. Bu gənclərin həqiqəti eşitmək istəyi var.

Bunu da qeyd etməliyik ki, qərbin kəşfiyyat orqanları tərəfindən yaradılan və idarə olunan radikal-təkfirçi cərəyanların mövcudluğu İslamın qəbuluna mənfi təsir göstərir. Qərbdə şiə adı altında informasiya şəbəkələrində radikallıq təbliğ edənlər də var. Belə bir taktika var ki, həqiqətə ən böyük zərbə onun arzu olumayan şəkildə müdafiəsidir.

## Rəhbərin müraciətində strateji nöqtələr

Düşünürəm ki, Cənab Rəhbərin yığcam müraciəti vaxtında bir müraciət idi. Müraciətdə beynəlxalq müstəvidə həqiqətlərin aydınlaşdırılması zərurəti, bu yoldakı təhlükələr açıqlanırdı. Cənab Rəhbər bütün gənclərə, hətta qeyri-müsəlman gənclərə müraciət etmişdi. Pak fitrətli bu gənclər hələ o qədər süquta uğramayıblar ki, həqiqəti eşitmək istəməsinlər.

Qərb gəncliyi onlara hakim rejimlərdən fərqli olaraq həqiqət sorağındadırlar. Onlarda İslamofofiya təxribatını zərərsizləşdirmək potensialı var. Doğru sözün məntiqi bəyanında elə bir güc var ki, təbliğat şəbəkələrinin çirkin məqsədini puça çıxara bilsin.

Cənab Rəhbər həm də müsəlman gənclərə müraciət edib. Bu gənclər İslamdan uzaq düşdükləri üçün bu dinin həqiqi simasını tanıya bilməyiblər. Onlar

təkfirçilərin hay-küylü təbliğatı qarşısında özlərini bir qədər itirmiş kimi görünürlər. Maddiyatçılıqdan bezmiş, mənəviyyat ardınca olan belə gənclərin bir qrupu aldanaraq təkfirçilərə qoşulur. Onlar hətta İraq kimi ölkələrdə vuruşmağa gedir, özləri də istəmədən düşmənin çirkin məqsədlərinin həyata keçməsinə vasitə olurlar.

Cənab Rəhbərin Avropa və Şimali Amerika gənclərindən istədiyi budur ki, İslam və Quranı vasitəsiz olaraq ilk mənbələrdən öyrənsinlər, imkan verməsinlər ki, başqaları onların əvəzinə düşünsün və qərar çıxarsın. Cənab Rəhbərin böyük təcrübəyə əsaslanan səmimi tövsiyələrinin çox yatmış vicdanları oyadacağına inanıram, inşaallah!

## Ayətullah Xameneinin məktubunun əks-sədası

Sloveniyalı ictimai fəal Fayla Paşiklə müsahibə

Təsnim informasiya agentliyi avropa müsəlmanlarından olan ictimai fəal Fayla Paşiklə müsahibə dərc edib. Fayla deyir: Bu gün dünya əhalisinin çoxu təşvişdədir. Əgər siz dünyanı dəyişmək istəyirsinizsə, özünüzdən başlamalısınız. Artıq sükut üçün heç bir bəhanəmiz qalmayıb... Bu gün yalnız müsəlmanların amansızlığından danışırsınız, hazırki qərb mədəniyyətinin yaranışına təsir göstərmiş müsəlman mədəniyyətini yada salmırsınız. Siz İslam memarlığı, müsəlman ədəbiyyatı barədə susursunuz. Nə üçün qərbə inteqrasiya etmiş və müsbət impuls vermiş müsəlmanlar haqqında danışmırıq? (Sloveniyanın Abraham – İbrahim müəssisəsinin rəisi Fayla Paşikin qeydlərindən)

Fayla Paşik Avropada islami fəaliyyətlərdə məşğuldur. Ötən on ildə bir çox dünya ölkələrində səfərdə olub. Qarşılıqlı dözümlülük, dinlar arasında anlaşma, təbiətin mühafizəsi, mədəniyyətlərin dialoqu sahəsində fəaliyyət göstərib. Paşik Sloveniyanın azsaylı hicablı xanımlarındandır. Paşik işdə də hicablı olur. Müsəlman və hicablı olmasına baxmayaraq ictimai fəal kimi bir çox mükafatlar alıb. 2007-ci ildə Avropada ilin siması, Xeyriyyəçilik banisi, 2008-ci ildə Sloveniya ilin xanımı mükafatına namizəd, 2010-cu ildə yoxsulluqla mübarizə sahəsində AB-nin səfiri, 2012-ci ildə Sarayevoda Fəal Müsəlman, 2013-cü ildə Avropada Fəal Qadın titullarına sahib olub.

Paşik düşünür ki, Avropada əsas problem dinlə bağlı dərin biliyin olmamasıdır. Bu səbəbdəb fəallar həyatverici İslam təlimlərini Avropada necə yayacaqlarını bilmirlər.

Cənab Rəhbər Ayətullah Xameneinin Avropa və Şimali Amerika gənclərinə məktubu Fayla Paşikə mübarizə əzmi verib. O deyir: Dünən tarixdir, sabahı kimsə görmür. Mən sabahı görəcəyimə əmin deyiləm. Demək sizin üçün ən mühüm gün bu gündür. Bu gün siz iş görməli, cavab verməlisiniz. Biz elə bu gün məktubun mesajlarını yaymaq üçün çalışmalıyıq.

Təsnim: Xanım Paşik bizə vaxt ayırdığınız üçün sizə təşəkkür edirik. Bizim bir çox oxucular sizin fəaliyyətlərinizlə tanış deyil. Öz fəaliyyətləriniz barədə qısaca məlumat verərdiniz.

Fayla Paşik: Mən Bosniyada yaşayıram. İslam həyat tərzini seçmişəm və bu həyat tərzinin təbliği ilə məşğulam. Fəaliyyətlərimin əsas hissəsini ictimai fəaliyyətlər təşkil edir. Əsas fəaliyyətlərimdən biri dinlər, Qərb və Şərq mədəniyyəti arasında dialoqdur. Bu fəaliyyətlərə görə bu günə qədər bir çox mükafatlar almışam. Avropada aldığım fəal qadın mükafatını daha dəyərli sayıram. Mən bu mükafatı 2013-cü ildəki fəaliyyətimə görə almışam. Avropa cəmiyyətində bərabər imkanlardan danışa bilmərik. Mən Avropada hicabla fəaliyyət göstərən yeganə qadınam. Hicablı vəziyyətdə fəaliyyət göstərdiyim üçün bir çox şəbəkələrə müsahibə vermişəm. Bildiyiniz kimi Sloveniya məsihi ölkədir. Bu ölkədə İslam və hicabın təbliğatı çətindir. Bizim ölkədə cəmi 20 hicablı xanım var. Bu arada yalnız mən hicabla işə gedirəm. Təbliğat imkanları başqa dinlərlə eyni deyil. Mən fəaliyyətlərimi Avropa coğrafiyası üçün nəzərdə tutmuşam. Sloveniyanın Abraham

müəssisəsinin rəisiyəm. Dillər və mədəniyyətlər arasında dialoq sahəsində çalışıram.

Təsnim: Sizin bu sahədə fəaliyyətlərinizin səbəbi nədir?

Fayla Paşik: Məni bu fəaliyyətlərə sövq edən əsas səbəb Sloveniyada ayrıseçkiliyin aradan qaldırılması olub. Mən mövzuya müsəlman olaraq yanaşmışam və müsəlmanlar üçün başqaları kimi bərabər seçim imkanları istəmişəm. Bizim ölkədə müsəlmanların əsas problemi budur ki, birlik məfhumu anlaşılmır. Bizim müsəlmanlar birlik məfhumunu düzgün dərk etmir. Biz Avropa cəmiyyətində birləşməyin yolunu tapmalıyıq və bu sahədə sualları cavablandırmalıyıq. Avropada elə bir dövr çatıb ki, müsəlmanların və İslamın varlığını rədd etmək mümkün deyil. Hələ məktəb illərində öz dinimin müdafiəsi üçün çalışırdım. Deyə bilmərəm ki, bu yolda çox müvəffəq olmuşam. Əsas məsələ budur ki, düzgün yol seçmişəm və bu yolda fəalam. Bunu da bilirəm ki, biz birgə fəaliyyət göstərməliyik, təkbaşına fəaliyyətin səmərəsi böyük ola bilməz. Dostlarıma da daim deyirəm ki, biz öz vəzifəmizi yerinə yetirsək Allah yardımçı olar. Avropada müsəlmanların varlığı son dövrün söhbəti deyil. Müsəlmanlar 100 illərdir Avropada yaşayırlar. Biz müsəlmanların və ya İslamın varlığını inkar edə bilmərik. Əsas məsələ budur ki, müsəlmanlara xoş gəldin deyən Avropa İslamı belə qarşılamayıb.

Təsnim: Nə üçün Avropa müsəlmanları qəbul etdiyi halda İslamı qəbul etmək istəmir?

Fayla Paşik: İslam dinində hər günün yaşam tərzi nəzərdə tutulur. İslam bu günün, sabahın və ya şənbə gününün dini deyil. Müsəlman üçün hər gün görəcəyi işlər var. Siz İslamın etiqadlı ailədə təsirini müşahidə edə bilərsiniz. Avropa cəmiyyətdə, küçə və meydanlarda İslamın təsirini görmək istəmir. Avropa müsəlmanların əl-ayağını, beynini, vücudunu istəyir. Onlar müsəlmanların xəlvəti şəkildə xüsusi həyat tərzinə müdaxilə etməsələr də bunun ictimailəşməsinə qarşıdırlar.

Avropa cəmiyyəti insanın qəlb və ruhunu yox, vücudunu istəyir. Amma biz bilirik ki, müsəlmanlıq imansız mümkün deyil. Müsəlmandan dini alınarsa şəxsiyyəti alınmış olur. Şəxsiyyətsiz insan söz sahibi ola bilməz.

Təsnim: Avropa mətbuatı ayrıseçkiliyi işıqlandırırmı? Sizcə informasiya vasitələri bu sahədə bir iş görə bilər, yoxsa başqa çıxış yolları axtarılmalıdır?

Fayla Paşik: Şübhəsiz ki, informasiya vasitələrinin, xüsusi ilə incəsənətin mühüm rolu var. Cəmiyyət informasiya ardıncadır. Təkcə bir fotoşəkil cəmiyyətdə fikir formalaşdırır. Biz layihələr həyata keçirib, informasiya şəbəkələrinin rolunu artıra bilərik. Təbii ki, müsəlmanların ixtiyarında olan təbliğat imkanları məhduddur. Sloveniyada cəmi 40 min müsəlman var. Onların da əksəriyyəti iqtisadi problemlərinin həlli üçün bu ölkəyə mühacirət edənlərdir. İnformasiya vasitələrindən lazımınca istifadə edə bilməməyimizin bir səbəbi də məlumatsızlığımızdır. Biz bildiyimizi öyrədə bilərik. Təbii ki, çalışırıq. Bəzi dostlarımız məsihidir. Biz insan olaraq bacı-qardaşlarıq. Bunu onlara anlatdıqda bizə kömək edirlər, problemlərimizin həllinə yardım göstərirlər. Biz audio-video, mətbuat materialları vasitəsi ilə öz həyat tərzimizi çatdırmağa çalışırıq. Deyə bilərəm ki, böyük işlər görülüb.

Təsnim: Alternativ informasiya vasitələrinin təsirinə şübhə yoxdur. Bu barədə nə deyə bilərsiniz?

Fayla Paşik: Biz informasiya vasitələri ilə həqiqi İslamı Qərb cəmiyyətinə tanıtdırmalıyıq. Mətbuat bu sahədə böyük rol oynayır. Hələ ki, müsəlmanlara məxsus informasiya şəbəkəsi lazımınca formalaşmayıb. Avropa informasiya vasitələri müsəlmanları hələ ki, mənfi simada tanıtdırmaqla məşğuldur. Onlar həqiqi İslamın nümayişindən çəkinirlər. Artıq Avropa mətbuatında müsəlman incəsənəti, memarlığı, ədəbiyyatı barədə yazılar görmək çətin olub. Biz müsəlman olaraq bu həqiqətləri çatdırmağa borcluyuq. Bu işi avropalılar görəsi deyil. Bu bizim vəzifəmizdir. Qardaşım doktor Əhməd Paşik Sloveniyada ictimai fəaliyyətləri ilə seçilir. O bir çox Avropa ölkələri ilə bağlı araşdırmalar aparıb. Araşdırmalarından aydın olur ki, hələ ki, bizim imkanlarımız zəifdir. Biz hələ ki, öz varlığımızı qorumalıyıq. Peşəkar fəaliyyətlər üçün hələ ki, gücümüz yoxdur. Bəli, Avropa müsəlmanlarının əsas problemi peşəkar olmamalarıdır. Öz dinimiz haqqında məlumatımız kifayət qədər deyil. Bilmədiyimizi başqalarına necə öyrədə bilərik?!

Təsnim: İnformasiya şəbəkələrində nüfuzu necə artırmaq olar?

Fayla Paşik: Elə düşünürəm ki, sualın cavabında İran modelindən danışmaq yetərlidir. İran necə güclənmək yolunu keçib, bu yolu bilir, bu sahədə sualları cavablandırmağa qadirdir. Biz güclənmədən, təbliğat imkanlarımızı genişləndirmədən ayrıseçkiliyin qarşısını ala bilməyəcəyik.

Təsnim: Necə düşünürsünüz? Dəyişən dünyada biz öz zəif nöqtələrimizi necə aradan qaldıra bilərik?

Fayla Paşik: Biz bu günlərdə yalnız internet mücahidlərinə çevrilmişik. Biz böyük bir cəmiyyət olduğumuz halda ayrıseçkiliyə məruz qalırıq. Demək, zəifik. Biz fəaliyyətsiz oturduğumuzdan qarşı tərəf istədiyini edir. Biz yalnız internetdə cihad aparırıq. Yalnız internetdə Fələstindən, Qəzzədən danışırıq. Bir növ pəncəsiz şirlərə çevrilmişik. Bizim Avropa cəmiyyətində müsəlmanlara nümayəndəlik edəcək şəxsə ehtiyacımız var. İslam məcazi, internet dini deyil. İslam dünyanı xilas edəcək bir dindir. Sadəcə biz zəif olduğumuzdan bu dinin güclü nöqtələrini işə sala bilmirik. Avropada Asiya, Balkanlar, Ərəbistan, Afrikadan xeyli müsəlman yaşasa da hələ ki, vahid mərkəz yoxdur. Sizin İranda dini təmsil edən alimləriniz, Ayətullahlar var. Bosniyada alimlər, Afrika ölkələrində şeyxlər var. Sizin İranda dini rəhbəriniz var. Ərəb ölkələrində də müftilər, din rəisləri var. Amma bizim Avropada şəraitə uyğun fitva verəcək alimimiz yoxdur. Məzhəbdən asılı olmayaraq Avropada müsəlmanlara rəhbərlik edəcək şəxsə ehtiyac var.

Təsnim: Siz müsəlmanların əlaqələrindən danışdınız. Dediniz ki, Cənab Rəhbər Ayətullah Xameneinin Avropa və Şimali Amerika gənclərinə ünvanlanmış məktubunu oxumusunuz. Bu məktuba münasibətiniz necədir?

Fayla Paşik: Dünya insanların daxilindən dəyişməyə başlayır. Ayətullah Xameneinin məktubu gənclərə dəyişmək əzmi verir. Məktub gözəl, ali, şəffafdır. Onu həqiqi bir Ayətullah yazıb. Ayətullah Xameneinin məktubu bütün dünyada

müsbət dəyişikliklər istiqamətində böyük rol oynaya bilər. Hamının vahid rəhbərə ehtiyacı var. Hamı ona yol göstərəcək birinə ehtiyaclıdır. Siz bu məktuba baxanda hiss edə bilərsiniz ki, sizə yola göstərən var. Dünya əhalisinin böyük əksəriyyəti təşvişdədir. İnsanlar həyat yolunu tapa bilmir. Nəyin düz, nəyin yanlış olduğu məlum deyil. Əgər bir şəxs öz məktubu ilə sizin yolunuzu qısaldırsa bu çox gözəldir. Siz öz iradənizlə həyat yolu seçib, bu yolda irəli getməlisiniz. Əgər dünyanı dəyişmək istəyirsinizsə, əvvəlcə özünüzü dəyişməlisiniz. Hamı dünyanın dəyişməsini istəyir. Amma kimsə özünü dəyişmək üçün iş görmür. Biz özümüzdən başlamalıyıq. Artıq bizim özümüzü dəyişməmək üçün heç bir bəhanəmiz yoxdur.

Təsnim: Necə düşünürsünüz, biz hər birimiz bu məktubun mesajlarını çatdıra bilərikmi? İnternet cihadı adlandırdığınız formatda bu iş mümkündürmü?

Fayla Paşik: Sabahı kimsə görməyib. Biz Ayətullah Xameneinin məktubunu bu gün dünyaya çatdırmalıyıq. Bəli, biz bu işi görə bilərik. Bəzən bu iş kompyuter arxasında bir kliklə başa gəlir. Amma gənclərimizə xatırlatmalıyıq ki, bir kliklə iş görmək hələ son məqsədə çatmaq deyil. Biz uzunmüddətli iş görməliyik. Allah bizi gün ərzində 5 dəfə çağırır. Əgər biz bu 5 çağırışda özümüzü dəyişə bilsək, şübhəsiz dünya dəyişəcək. Söhbət əməldə dəyişməkdən gedir. Təəssüf ki, insanların çoxu hələ ki, nə vəziyyətdə olduğunu dərk etmir. Hansı yolun düzgün olduğunu təyin etməkdə çətinlik çəkirlər. Allah hər gün bizə baxır. Biz bunu hiss edib, günü alnıaçıq, pak vəziyyətdə başa çatdırmalıyıq. Dünən tarix olub, sabahı kimsə görməyib. Mən əmin deyiləm ki, sabahı görəcəyəm. Demək, bu gün ən mühüm gündür. Biz bu gün iş görməliyik. Bu günün suallarına cavab verməliyik. Bu gün Ayətullah Xameneinin məktubundakı mesajları çatdırmalıyıq.

Təsnim: Məktubla bağlı başqa nə deyə bilərsiniz?

Fayla Paşik: bu məktub məni çox sevindirdi. Məktubun yayılmasını zəruri sayıram. Mən öz fəaliyyətlərimin bəhrəsini görmək istəyirəm. Yaşadığımız əsr göstərir ki, bu bəhrəni görəcəyik. Məqsədə çatmaq o qədər də asan deyil. Məsihi ölkəsində müsəlmanlığı qorumaq, müsəlman kimi yaşamağın çətinlikləri var. Siz çox güclü olmalısınız ki, maneələri aşa biləsiniz.

Digər tərəfdən siz İslamın səfirisiniz. Çünki başınızda hicab var. Biz məsihi ölkəsində yaşayırıq. Demək, mən İslamın səfiriyəm, dinimi təmsil edirəm. Düzgün yolu göstərmək böyük işdir. Problemlər çoxdur. Çünki cəmiyyətin əksəri İslama pəncərədən daxil olur. Bu dini düzgün tanımaq üçün qapıdan daxil olmaq lazımdır. Biz İslamı bilən insanlar olaraq əxlaqi vəzifələrə malikik. Başqalarına kömək etməli, düzgün yolu göstərməliyik. Allah bizi seçib ki, bu sahədə çalışaq, onun səfiri olaq. Mən İslamı təmsil etməyimlə fəxr edirəm.

Təsnim: Demək, razılaşırsınız ki, dünya dəyişib. Dəyişən dünyada Avropa və Şimali Amerika gənclərinə məktub ünvanlanıb. İnsanlar mövcud imkanlardan istifadə etməklə doğru yol axtarışına çağırılıb. Gənclərə müraciət olunub. Çünki ölkənin gələcəyi gənclərin əlindədir. Gələcəyi onlar qurur. Onlar sonrakı nəsillərə də təsirlidir. Biz düşünürük ki, məktub İslama çağırış deyil. Məktubda gənclər müstəqil qərar çıxarmağa dəvət olunur. Gənclər özlərini tanımasalar doğru yolu da seçə bilməzlər. Siz gənclərin bu yola çağırışına necə baxırsınız?

Fayla Paşik: Düşünürəm ki, gənclərin inqilabi ruhiyyəyə ehtiyacı var. Elə bir ruhiyyə ki, onlar özlərini tapa bilsinlər. Əgər ruhla vücud arasında əlaqə olsa arzu olunan həyat tərzinə çata bilərik. Gənclər cəmiyyətin mühüm bir hissəsidir. Onlar gələcək nəslin bir hissəsidir. Onların sualları çoxdur. Əgər suallarına cavab verməsək doğru yolu tapa bilməzlər. Ya da öz sualları ilə başqalarının sorağına gedərlər. Siz dişiniz ağrayanda diş həkiminə müraciət edirsiniz. Əgər dinlə bağlı sualınız varsa din aliminə müraciət etməlisiniz. Biz gənclərin suallarına necə gəldi cavab verə bilmərik. Bir neçə ildən sonra onlar bizim övladlarımıza dərs keçəcəklər. Əgər doğru yolu tanımasalar, övladlarımıza da bu yolu göstərə bilməyəcəklər. İnqilabi ruhiyyə növbəti nəsillərə müsbət təsir göstərəcək. Çünki bu nəsil hazırda yolunu azıb. Bu gənclərin hazırda hansı dinə aid olmasının fərqi yoxdur. Onların heç birinin ruhani həyatla bağlılığı yoxdur. Vücudları bir tərəfə yön alıb, ruhları başqa bir tərəfə. İnsanın ruhu ilə vücudu arasında harmoniya olmalıdır. Bu olmasa insan başını itirər. Gənclərin sualları çoxdur, biz onlara yetərli cavablar axtarmalıyıq. Gənclər başa düşürlər ki, informasiya vasitələrində deyilənlər onların suallarına cavab deyil.

Təsnim: Hazırkı informasiya mühitində bir çox gənclərin ümumiyyətlə sualı yoxdur. Onlar bu ehtiyacı əldən çıxarıblar. Bu məsələyə necə baxırsınız?

Fayla Paşik: Mən belə düşünmürəm. Gənclər düşüncəlidir və informasiya vasitələrinin dediklərinə inanmırlar. Biz başqa bir dövrdə yaşayırıq. Əvvəlki nəslin yaşadığı dövrdən fərqli bir dövrdəyik. Burada yaxşı cəhətlər var. Ailələrimiz bizə tövsiyə verməklə kömək edə bilər. Onların dediyini universitetdə öyrənə bilmərik. Təbii ki, biz azad olduqda düşüncə köməyimizə gəlir. Azad olmaq üçün cəsarət lazımdır. Biz şüursuz canlı kimi deyilən sözlər qarşısında lal-kar dayana bilmərik. İnsan öz şəxsiyyətini, kimliyini müəyyənləşdirməlidir. Bizə yol göstərənləri tanımalıyıq. Dəyişmək üçün bəlkə də bir-iki nəfər bəs edər. Amma hər şey özünüzdən asılıdır. Sizin buna cəsarətiniz çatırmı? Bəziləri yaxşı təhsil alıb, varlıdır, gözəldir, xarizmatikdir. Amma onların cəsarəti yoxdur. Cəsarəti olmayan insan yolu azıb və doğru yolu tapmağa cürəti yoxdur. Bu gün cəsarətli insanların günüdür. Təəssüf ki, cəsarətli müsəlman cəmiyyətinə malik deyilik. Əgər bir-iki nəfər cəsarətli insan olsa böyük işlər görmək olar. İmam Xomeyni (r) tək idi, amma cəmiyyəti dəyişdi. Biz isə hələ ki, sadəcə tamaşa edirik.

Təsnim: Çox doğru buyurdunuz. İmam Xomeyni (r) həqiqətən ən cəsarətli insanlardan idi.

Fayla Paşik: Təsəvvür edin ki, siz özünüz haqqında bir mövzudan xəbərsizsiniz. Mən bir neçə gün öncə dostlar arasında belə bir sual verdim ki, nə üçün İran inqilabı qalib gəldi? Amma digər inqilablarda biz bu qələbəni görmədik. Çünki siz iranlılar nə istədiyinizi bilirsiniz. Amma başqa inqilablarda yalnız bu barədə düşünürlər ki, biz nəyi istəmirik. Qələbəyə çatmaq üçün insan nə istədiyini bilməlidir. Onlar demokratiya istəyirlər. Amma hansı demokratiya? Onlar insan haqları istəyirlər, amma hansı insan haqları? Amma siz dəqiq bilirdiniz ki, nə istəyirsiniz. Sizin müvəffəqiyyətinizin səbəbi bu idi. Sizin ölkədəki model başqaları üçün böyük nümunədir.

Təsnim: Bu günə qədər fəaliyyətlərinizə görə təzyiqə məruz qalmısınızmı?

Fayla Paşik: Təbii ki, fəaliyyətlərimə görə çətinliklərlə üzləşmişəm. Amma problemləri aradan qaldırmağın yolları var. Həmişə çıxış yolu var. Biz insan haqları, bərabərlik, qardaşlıq, həmrəylik kimi dəyərlərə inanırıq. Təəssüf ki, insan olaraq bir-birimizə inamımız yoxdur. Bu mövzular barədə müzakirə aparmırıq. Təəssüf ki, ətrafdakılara sevgidən çox nifrətimiz var. İnsanları cəzb etməkdən çox onları rədd etmək barədə düşünürük. Ətrafa mənfi enerji veririk. Nə qədər ki, dialoq yoxdur, bir iş görə bilməyəcəyik. Mədəniyyətlər, dinlər arasında dialoq çox zəruridir. Biz bu barədə hökmən danışmalıyıq. Bu dialoqlar bir çox problemləri aradan qaldıra bilər.

Təsnim: Son söz olaraq nə deyərdiniz?

Fayla Paşik: Mən 7-ci dəfədir İrana gəlirəm. Bəlkə də inanmazsınız İran mənim üçün doğma ev olub. Mən İranda özümü evimdəki kimi hiss edirəm. Dəfələrlə Yaxın Şərq ölkələrinə səfərə çıxmışam. Əminəm ki, yolumu işıqlandıran İran olub. Başqalarına necə kömək etməyi mən sizdən öyrənmişəm. Mən İrandakı hisslərimi bölüşmək istəyirəm. İranı tanıtdırmaq üçün görəcəyim ən kiçik iş budur. Mən İrana vüqarlı xalq adını vermişəm. Başqa heç yerdə belə vüqarlı millət görməmişəm. İran mənim üçün bir həyat modelidir. Mən demək olar ki, hər il Avropadakı sənətçilər, mətbuat işçiləri, yazıçılardan bir qrupunu İrana gətirirəm. Müəssisəmizin əsas layihələrindən biri budur. Radio-televiziya, mətbuatda ölkəniz haqqında danışıram. Biz sənədli bir film, müsahibə vasitəsi ilə çox iş görə bilirik. Təbii ki, işin çətinliyi var və bu yol uzun yoldur. Amma bütün gördüyümüz işlər İranda gördüyümüz məhəbbətin əvəzi ola bilməz.

Müsahibəni apardı Məhəmməd Hüseyn Pərtuyan

## İŞİD-in düşüncə və ideoloji mənbəsi nədir?

Hikmət və Fəlsəfə Araşdırma İnstitutunun rəisi doktor Xosrovpənahla söhbət

Mehr informasiya agentliyinin Hikmət və Fəlsəfə Araşdırma İnstitutunun rəisi Xosrovpənahla söhbətləşib. Alim deyib: Şiə imamları ağılın əhəmiyyətini vurğulayıb. Ağıla qarşı çıxmaq şiə məktəbinin mahiyyəti ilə uyğunlaşmır. Ağıl amansızlığa ziddir. Amma ağıl imana əsaslanmayanda amansızlıq mənşəsi ola bilər.

Bu gün İraq və Şam İslam Dövləti (İŞİD) yaratmaq iddiası ilə çıxış edən sələfi cərəyan və İŞİD təkfirçiləri tarixdə özünü göstərmiş azğın cərəyanların əqidə daşıyıcısıdır. Sələfilik yeni hadisə deyil. Belə görünür ki, bu cərəyan tarixin müxtəlif dövrlərində imkan yarandığı zaman ortaya çıxır. Təkfirçi cərəyanlar öz addımlarını xüsusi bir nəzəriyyə ilə əsaslandırırlar. Baş verən hadisələri düzgün şəkildə dəyərləndirmək üçün təkfirçilərin istinad etdiyi düşüncələrlə tanış olmaq lazım gəlir. Mehr informasiya agentliyi bu sahədə müxtəlif ekspertlərlə söhbətləşib. Bu dəfə agentliyin həmsöhbəti Hikmət və Fəlsəfə Araşdırmaları İnstitutunun rəisi doktor Əbdülhüseyn Xosrovpənahdır. Doktorla təkfirçilərin düşüncəsi barədə söhbətləşdik. Müsahibəni diqqətinizə çatdırırıq.

Mehr: İŞİD-in düşüncə və ideoloji mənbəsi nədir?

Doktor Xosrovpənah: Mən Mehr informasiya agentliyinə təşəkkür edirəm ki, xəbər sahəsində fəaliyyətlərdən əlavə nəzəri məsələlərə də vaxt ayırırsınız. Bu Mehr informasiya agentliyi üçün bir imtiyaz sayıla bilər. İŞİD hadisəsi təkfirçi cərəyan adlanan daha böyük hadisənin bir qoludur. Bu yeni yaranmış bir cərəyandır. Amma təkfirçilik yeni cərəyan deyil. Bu gün informasiya texnologiyaları gücləndiyindən xəbər ani olaraq dünyanın bütün nöqtələrinə çatır. Hazırda dünya İŞİD-in qlobal təhlükə olduğunu hiss etməkdədir. İŞİD-in cinayətlərini əyani göstərən videomateriallar dünyada qorxu yaratmaqdadır. Bilməliyik ki, İŞİD tarixi keçmişə malik olan təkfirçi cərəyana bağlıdır. Biz İŞİD-in atdığı addımların nümunələrinə

İslam tarixində müxtəlif firqələrdə rast gələ bilərik. Əksəriyyət bundan xəbərdardır ki, İslam dünyasının "Şəhide əvvəl" və "Şəhide sani" adı ilə məşhur olan iki böyük alimi şiə olduğu üçün Cəbəlamildə öldürüləræk yandırılıb. "Şəhide sales" (üçüncü şəhid) adı ilə tanınan Qazi Seyid Nurullah Şuştəri Hindistanda Tacmahal adlanan yerdə dəfn olunub. Bu şiə alimi Əkbər şahın qazisi olub. Sonradan o əskər və ya ordu qazisi kimi tanınıb. Hərbi sahədə mühakimə aparmaq məsuliyyəti onun üzərində olub. Alimin məskunlaşdığı Aqra şəhəri hərbi şəhər olub. Əkbər şahın ölümündən sonra Cahangir şah onun yerinə gəlib. Bir qrup sünnə əhli, alimi qamçı ilə o qədər vurublar ki, bədəni parça-parça olub. Sonra onu yandırmaq qərarına gəliblər. Amma şiələr onun cənazəsini ala biliblər. Bir müddət qəbrinin üstündə keşik çəkiblər. Yoxsa alimə qarşı olan firqə onu yandırmaq istəyirmiş.

Təkfirçi qruplar öz müxaliflərini qətlə yetirir, onların cənazələrini muslə edir, yəni doğrayır və ya yandırırdılar. Vəhhabilərin rəhbəri Məhəmməd ibn Əbdül Vəhhab Nəcddə iqtidara çatanda qısa müddətdən sonra öz müxalifləri ilə amansız rəftar etməyə başladı. O şafei, hənbəli və başqa məzhəblərdən olanları qətlə yetirir, ağıla gəlməyən cinayətlər törədirdi. Sünnə əhlindən olanlara belə rəhm etmir, onları qətlə yetirir, təkfir edib cəzalandırırdı.

Bəli, təkfirçilik yeni hadisə deyil. Mən bu cərəyanı təşkilatlanmış və himayə olunan bir cərəyan hesab edirəm. Biz deyə bilmərik ki, təkfirçilər yalnız sünnə əhli arasından çıxıb. Şiələr arasında da təkfirçilər olub. Amma şiələr təkfir etməklə, küfürdə ittiham etməklə kifayətləniblər. Tarixdə az nümunə tapılar ki, şiə qarşı tərəfi təkfir etdiyi üçün cəzalandırsın. Şiə məktəbində fəlsəfə və irfanla məşğul olanları təkfir edən alimlər olub. Bu gün də buna oxşar ittihamlara rast gəlirik. Sırf fiqh və kəlamla məşğul olan bəzi alimlər bu fikirdədirlər ki, ariflərin vəhdəti-vücud nəzəriyyəsi dindən uzaqdır və onlar təkfir olunmalıdır. Bəzi alimlər Molla Sədranın məadla bağlı fikirlərini qəbul etməyib, onu təkfir ediblər. Amma təkfir etdikləri şəxsə qarşı təzyiqdən başqa bir işləri olmayıb. Molla Sədra bu təzyiqlər altında İsfahandan Qumun Kəhək kəndinə mühacirət edib. Amma onu qətlə yetirməyiblər. Sərt fitvalar verilsə də sərt cəzalar tətbiq olunmayıb.

Mən deyə bilmərəm ki, İslamda təkfir adında bir düşüncə yoxdur. Xeyr belə deyil. İslamda təkfir mövcuddur. Bu çox ciddi bir mövzulardandır. Amma İslamın qəbul etdiyi təkfirin şərtləri, meyarları var. İstər şiə, istər sünni məktəbi İslamda təkfirin mövcudluğunu qəbul edir. Amma hər iki məktəb bu fikirdədir ki, şəhadəteyn kəlmələrini deyən şəxs müsəlmandır və bu şəxs məbdə və məadla bağlı xüsusi təfsir versə belə onu təkfir etmək olmaz. Amma bu şəxsi tənqid etmək

mümkündür. Biz alimi tənqid edə bilərik ki, onun məadla bağlı fikirlərində yanlışlıq var. Bəli, bir şəxsin məad barədə şərhi yanlış ola bilər. Amma biz onu kafir saya bilmərik. Şəhadəteyn kəlmələrini deyən bir şəxs heç bir halda küfürdə ittiham oluna bilməz. Onun məbdə və məada etiqadı var. Bu insan əməldə dinin hökmlərini yerinə yetirir. İslam belə insanı küfürdə suçlamağa icazə vermir. Əgər biz şəhadəteyn kəlmələrini demiş bir şəxsi təkfir ediriksə bu ifratçı münasibətdir. Təəssüf ki, aramızda beləlləri var. Nəzəri problemlər sonradan ictimai problemlərə çevrilir. Bizim ictimai həyatda sabitlik üçün müdara, keçinməyə ehtiyacımız var.

Siz sual verdiniz ki, təkfirçi cərəyanın düşüncə mənbəyi nədir? İŞİD, Ən-Nüsrə cəbhəsi, Əl-Qaidə kimi qrupların ideoloji mənbəsi nədir? Bu qruplar sələfiliyin bir qolu sayılır. Sələfinin hənbəli, şafei və ya başqa firqədən olmasının fərqi yoxdur. Adətən malikilər arasında sələfilər olmur. Ən çox hənbəlilər arasında sələfilər müşahidə olunur. 7-ci əsrdə yaşamış İbn Teymiyyə sələfiliyin ideoloji banilərindəndir. Sələfi düşüncəsini təmsil edən başqaları da olub. Amma sələfilik əsasən 3-cü əsrdə mötəzilə firqəsi əhli-hədis, əxbarilər qarşısında dayananda özünü göstərib. Sonradan əşairə və maturidiyyə səhnəyə gəldi və əhli-hədis, mötəzilə səhnədən çıxdı. Artıq İslam cəmiyyətində onlar tanınmırdı. Daha çox əşərilik təfəkkürü yayılmışdı. Beləliklə mötəzilə və əhli-hədis, eləcə də maturidiyyə firqələrində bu düşüncə özünü göstərib. 7-ci əsrə qədər əhli-hədisdən bir xəbər olmayıb. Nəhayət İbn Teymiyyə onu ikinci dəfə aktuallaşdırıb. O deyir ki, biz sələflərimizə qayıtsaq, o zaman sələfi təfəkkürü səhnəyə gələcək.

Mehr: Belə qənaətə gəlmək olarmı ki, təkfirçi düşüncəni ikinci dəfə səhnəyə qaytaran İbn Teymiyyə olub?

Doktor Xosrovpənah: Bəli. Təkfirçiliyi teorizə edən İbn Teymiyyədir. O İslam cəmiyyətinin sonradan bu cərəyana meyli üçün zəminə hazırlayıb. Əlbəttə ki, istər İbn Teymiyyənin dövründə, istərsə də neçə əsr sonralar sələfi təkfirçiliyi özünü qabarıq göstərməyib. Ayrı-ayrı hallarda bu düşüncənin müdafiəsinə qalxan fərdlər olub. Nəhayət, hicri 11-ci əsrdə Məhəmməd ibn Əbdül-Vəhhab sələfi təfəkkürünü siyasətlə birləşdirərək onu genişləndirib, amma 20-ci əsrin əvvəllərində Osmanlı süqut edənə qədər özünü söz sahibi kimi göstərə bilməyib. Nəhayət, Avropa dövlətləri o cümlədən Britaniya və Fransa birləşərək Osmanlı imperiyasını süquta uğradaraq parçalayıb. Yunanıstanla qarşıdurmada yalnız bugünki Türkiyə qalıb. Atatürk bugünki Türkiyəni parçalanmadan qoruya bilib. Osmanlının nəzarəti

altında olan digər ölkələr Avropanın nəzarəti altına keçib. Bu sırada ərəb ölkələrinin adını çəkə bilərik. Səudiyyə Ərəbistanı bu sahədə birinci olub. Həmin dövrdə Ərəbistan şiə alimi olan Şərif Hüseyn tərəfindən idarə olunurdu. Britaniyalılar fitnəkarlıq edərək onu hakimiyyətdən uzaqlaşdırdılar, hakimiyyəti azsaylı vəhhabilərə təhvil verdilər. Şiələr, malikilər, digər müsəlman firqələr sayca daha çox olduğu halda iqtidardan kənarda qaldılar. Bunu dünya bilir ki, vəhhabi firqəsinin yaradıcısı ingilislərdir. Əslində isə vəhabiliyi İngiltərə yaratmayıb, vəhhabilərin yaranışı üçün meydan verən İngiltərə olub. Beləcə Ərəbistanda vəhhabilik rəsmi hakimiyyətə yiyələnib. Xüsusi ilə Əbdül-Əziz, Fəhədin dövründə bir sıra uğurlar qazanıblar. İran İslam İnqilabından sonra Amerika İrandan ümidini üzdü. Bundan sonra bütün diqqətini Ərəbistan üzərində cəmləşdirdi. Ərəbistan Yaxın Şərqdə İran şahının rolunu oynayaraq Amerikanın əlaltısına çevrildi.

Gördüyünüz kimi belə tarixi şəraitdə sələfilik genişlənib. Onun siyasi nüfuzu artdıqca icitimai və ideoloji nüfuzu da artıb. Unutmamalıyıq ki, sələfilikdən danışanda sələfilik iddiasında olanların sözü ilə əməlləri arasında fərq müşahidə edirik. Bu gün Səudiyyə Ərəbistanındakı sələfilər modernləşmədən maksimum istifadə edirlər. Ali-Səud sülaləsinin əksər şahzadələri Amerika, Kanada, Avropa ölkələrində yaşayırlar və modern bir həyat tərzi sürürlər. Onların sələfi əqidəsinə zərrəcə bağlılığı görünmür. Onların bir çoxu dinə belə etiqadlı deyil. Sadəcə sələfiliyi əllərində vasitə olaraq saxlayıblar.

Sələfi düşüncəsinin kökü nədir? Əl-Qaidə, İŞİD və başqaları nədən qaynaqlanır? Düşünürəm ki, ağıl və zahir arasındakı ziddiyyət problemlər yaradır. Sələfilər bu iddiadadır ki, öz sələflərinin yoluna qayıdırlar. Deyirlər ki, onların sələfləri əhli-hədis olub. Onlar hədisə dəyər veriblər. Sünnə əhli arasında hədisin yeri böyükdür. Sünnə əhli alimləri arasında qəbul edənlər çoxdur ki, kifayət qədər uydurma hədislər var. Əbu Hureyrə, İbn Cündəbin hədisləri bu qisimdəndir. Kəbul-Hibar kimi İslam adından danışan biganələr az olmayıb. Bəzi sünnə alimləri hədisin doğru və ya yanlış olmasını mümkün sayır. Bəziləri isə hədisləri birmənalı olaraq qəbul edir. Hər halda sələfilər hədislərə bağlıdır. Hədislərin də zahiri mənasını əsas götürürlər. Açıq-aşkar əqlə zidd olan hədisləri özlərinə şüar edirlər. Onlara deyəndə ki, bu hədis ağıla sığışmır, cavabları bu olur ki, ağıl nə zamandan dəlil sayılır?! Onlar ağılı həqiqətin tanınmasında bir vasitə kimi qəbul etmirlər. İbn Teymiyyə deyir ki, məntiq elmi batildir. O əql və nəql arasında ziddiyyət kitabında ağıla qarşı müzakirələr açır. Bu kitab 3 cilddir. Bir sözlə, sələfiçilik düşüncə yox, hədislərin zahiri mənasına əsaslanır. Nəticəsi bu olur ki, sələfilər arasında

amansızlıq genişlənir, istənilən müxalif çox asanlıqla kafir adlandırılır və cəzalandırılır. Bütün bunlar düşüncəyə açıq-aşkar ziddir.

Demək istədiyim o deyil ki, bütün sələfilər Əl-Qaidə və İŞİD kimidir. Bugünki Əl-Qaidə və İŞİD bir çox sələfilər tərəfindən tənqid olunur. Amma istənilən halda sələfi məktəbində ağıl məqbul sayılmır. Şiə məktəbində üsullar imamət tərəfindən təsdiqlənir. İmamlar isə qətiyyətlə əqlin tərəfində olub. Şiə məktəbində ağıl batini peyğəmbər kimi qəbul olunur. Amma şiələr arasında da əxbarçılar, yalnız hədisə istinad edənlər tapıla bilər. Bu halda onların ağıla qarşı çıxması mümkündür. Ağıl insanı amansızlıqdan, cinayətdən çəkindirə biləcək əsas amillərdəndir.

Burada bir nöqtəni vurğulamaq lazım gəlir. Ağıl imana əsaslanmasa o da amansızlıq mənbəyi ola bilər. Biz modern düşüncənin, ağılın qəddarlığa yol açdığına şahid olmuşuq. Avropada tanınmış ideologiyalardan olan subyektivizmə görə insan süjetdir, əsas fəaliyyətlərdir. Bu baxışa görə insan həyatında iman və Allahın yeri yoxdur. Burada makiyavelizm ortaya çıxır. Yəni insan qarşısında məqsəd var və o bu məqsədə istənilən yolla çata bilər. Bu nə deməkdir? Bu o deməkdir ki, insan hətta ağılın qəbul etmədiyi qəddar yollarla məqsədə çatmaq səlahiyyətinə malikdir. Aydın olur ki, imandan kənar ağıl da qəddarlığı qəbul edir.

Mehr: Nə üçün gənclər qəddar təkfirçi cərəyanlara maraq göstərir? Bu cərəyanlarda gənclər üçün cazibəli nə var? Daim ağıl iddiası ilə çıxış edən Amerikadan belə təkfirçilərə qoşulanların olması nə ilə əlaqələndirilə bilər?

Doktor Xosrovpənah: Əgər bu gün təkfirçiliyə meyl varsa, bu o demək deyil ki, təkfirçilik maraqlıdır. Sadəcə bəzilərinin düşüncə tərzi sələfilərin düşüncəsinə uyğundur. Əgər bir insanda amansızlıq varsa və o təkfirçililəri öz əqidəsinə uyğun görürsə bu qrupa qoşulması təbiidir. Müasir dünyamızda amansızlıq təbliğ olunur və gənclər özlərindən ixtiyarsız olaraq bu təbliğatın təsiri altına düşürlər. Ən sadə kompyuter oyunlarında belə amansızlığın təbliğatını görmək çətin deyil. Təkfirçilər dini bir hökumət qurmaq iddiası ilə çıxış edirlər. Onlar əvvəlcə Şam və İraqda hökumət qurmaq, sonra bu hökuməti genişləndirmək fikrindədirlər. Onlar iqtidara çatdıqdan sonra İslamı bütün dünyaya yaymağı planlaşdırırlar. Düşünürlər ki, bir vaxt gələcək ki, Osmanlı dövləti kimi dünyanı nəzarətə götürə biləcəklər. Bizim meydandan kənar bir guşədə bu barədə danışmağımızın böyük təsiri yoxdur. Qeyd etməliyik ki, təkfirçiliyə qoşulanlar arasında sırf şiə, hətta Qərbin düşmənləri

var. Deyə bilmərik ki, təkfirçilərin sıralarında cəmləşən insanları vahid əqidə birləşdirir. Onlar İraq və ya Suriyada bir mərkəz yarandığı zaman orada toplaşırlar. Zahirən məqsəd İslam dövləti yaradıb, onu gücləndirməkdir. Heç bir halda deyə bilmərik ki, bütün təkfirçilər bu əqidə ətrafında birləşib.

Bu gün təkfirçilərə qoşulanlar arasında fərqli prixoloji və ictimai maraqla addım atan insanlar var. Təkfirçilərə qoşulanlara pul verilir. Biz inkar edə bilmərik ki, müasir dünyada maliyyə çətinliyi çəkən insanlar kifayət qədərdir. Pakistandan bir qrup götürüblər ki, bu qrupun işi intihar əməliyyatlarıdır. Onlardan soruşulanda ki, nə üçün bu işi görürsünüz, cavab verirlər ki, bizə pul lazımdır. Təkfirçilərə qoşulan hər bir şəxs ən azı öz ailəsini dolandıra bilir. Bəzilərinin düşüncə tərzi belədir ki, bütün ailənin məhv olmasındansa bir nəfərin məhv olması məqsədə uyğundur. Demək, təkfirçiliyə marağın bir səbəbi iqtisadi çətinlikdir. Demək, təkfirçilərə qoşulanlar arasında həm ideoloji maraqla gələnlər, həm də iqtisadi problemini həll etmək istəyənlər var.

Bunu da qeyd edək ki, dünya imperializmi və beynəlxalq sionizm işsiz oturmayıb. İmperializm və sionizmin qlobal layihələri var və bu layihələri həyata keçirən qüvvələrə ehtiyac duyulur. İstismarçı qüvvələrin əsas məqsədlərindən biri onlara mane olan İslam birliyini parçalamaqdır. Onlar belə bir qrupu həvəslə himayə edirlər. İŞİD meydana çıxan kimi biz İsrailin dəstəklərinə şahid olduq. Qərb və Amerika müxtəlif zamanlarda təkfirçiləri dəstəkləyirlər. Onlar işin başlanğıcında Ən-Nüsrə və İŞİD-ə müxalif deyildilər. Təkfirçilər Bəşar Əsəd dövləti və İraqa qarşı vuruşanda Qərb və Amerikadan güclü dəstək alırdı. Sonradan şahid oldular ki, bu cinayətkarlar kimsəyə fərq qoymur. Məcbur oldular ki, öz müxalifətçiliklərini elan etsinlər. Amma bu gün təkcə Amerika və müttəfiqləri təkfirçiləri silahlandırmasa onlar qısa bir müddətdə səhnədən çıxar. Demək, silahlandırma davam edir. Aydın olur ki, istənilən bir şəraitdə ABŞ və müttəfiqləri təkfirçilərə yardım edir.

Mehr: Siz ağıl və məntiqə zidd hərəkətlərdən danışdınız. Demək, İŞİD əməliyyatçıdır. Gənclərin bu qrupa cəlb olunmasının səbəbi məhz bu ola bilməzmi?

Doktor Xosrovpənah: Təbii ki, bəzi gənclər İŞİD-in İslamçılıq iddialarına aldanaraq bu qrupa qoşulur. Əgər bir gənc məqsədə doğru hərəkətdə qəddarlığı qəbul edirsə İŞİD-i də qəbul edir.

Onlar insanları diri-diri yandırır, qadınları əsir götürür, ilkin İslam dövründəki kimi quldarlıqla məşğul olur. Təbii ki, bu xarakterdə olan insanlar həvəslə təkfirçilərə qoşulur. Amma deyə bilmərik ki, təkfirçilərə qoşulanların əksəriyyəti İslam dərdi çəkir. Təkfirçiliyə marağın səbəbləri çeşidlidir.

Mehr: Hazırkı əsrdə İslam alimləri bu radikal cərəyana qarşı bir iş görə bilirlərmi?

Doktor Xosrovpənah: Mən inanıram ki, Qərbin İŞİD-i dəstəkləməsinin səbəbi İslamın Qərb ölkələrində sürətlə yayılması oldu. Onlar şahid oldular ki, yerli xalq müsəlmanlaşır. Bir çox Avropa və Amerika şəhərlərində məscid yox idi. Amma bu gün kilsələrdə sükut hakim ikən məscidlərdə izdiham yaranır. Hətta müxtəlif obyektləri alıb məscid yaradanlar var. Qərb gördü ki, İslam haqqında mənfi təsəvvür yaratmadan öz xalqını bu əqidədən çəkindirə bilməyəcək. Ona görə də təkfirçiliyə, o cümlədən İŞİD-ə yardım göstərdilər. Məqsədləri xalqlarına İslamı təkfirçilərin simasında təqdim etmək idi. İslamafobiya nə qədər güclü olarsa, Qərbin maraqları da təmin edilər.

Hövzə və universitet alimləri, müsəlman və qeyri-müsəlman alimlər dünyaya göstərməlidirlər ki, ilahi dinlər düşüncə və məntiq dinidir. Dinlərin məqsədi iman və düçüncəni birləşdirməkdir. Alimlərin ilkin vəzifəsi bu nöqtəni işıqlandırmaqdır. Əgər müxtəlif ideologiyaları nəzərdən keçirsək şahid olarıq ki, İslam yeganə dindir ki, onda qəddarlığa yer yoxdur. Daha humanist tanınan buddizimdə kifayət qədər amansızlıq elementləri var. Biz bunu Miyanmarda gördük. Miyanmarda buddistlər müsəlmanları diri-diri yandırırdılar. Amma müsəlmanların bu işi gördüyünə yalnız təkfirçilərin simasında şahid oluruq. Biz məsihilikdə də amansızlıq əlamətləri görmüşük. Villi Dorant da mədəniyyət tarixindən yazarkən qeyd edir ki, məsihilərin müxalif əqidəli insanları diri-diri yandırması hadisələri olub. İslam alimləri sübuta yetirməlidir ki, İslam azğın və qəddar təkfirçiliyi qəbul etmir, ağıldan kənar addımlara qarşıdır.

İlahi dinlərin gəlişində məqsəd insanların sülh şəraitində yaşamasıdır. İslam gəlib ki, ağıl və məntiqə meydan açılsın. Din qılınc altında qəbul etdirilən əqidə deyil. Bir insanın əqidəsində mərifət yoxsa, dəyər də yoxdur. Bu sahədə alimlərin rolu

böyükdür. Amma bunu da qeyd edək ki, təkcə müzakirələr konfranslar bəs etmir. Biz müxtəlif informasiya vasitələrində həqiqi İslamı tanıtdırmalıyıq. Müxtəlif seriyallar, sənədli filmlər, incəsənət sahələri vasitəsi ilə həqiqi dini dünyaya çatdırmaq lazımdır. Bu gün təkfirçiliyin təbliğatının mində biri bizim tərəfimizdən icra olunurmu?! Hətta Hollivudun Nuh və həzrəti İsa barədə çəkdiyi filmlərdə amansızlıq yer alıb. Bu isə ağıl və məntiqə ziddir. Bugünki təbliğat vasitələri dinin həqiqi simasını məsx etməklə məşğuldur.

Müxtəlif yollarla o cümlədən informasiya texnologiyalarının köməyi ilə həqiqi dini, ağıl və məntiq dinini dünyaya tanıtdırmalıyıq. Bu sahədə fəaliyyətlərimizi gücləndirsək ən azı dünya İŞİD-in həqiqi simasını görər. Çoxları yanlış informasiya sayəsində İŞİD-i ideoloji bir cəryan kimi qəbul edir. Amma dünya başa düşəndə ki, bu cəryanın kökü cəhalətdir, ona qarşı olacaq. Əlbəttə ki bu gün də dünya təkfirçiliyə qarşıdır. Demək informasiya şəbəkələrində alimlərin fəaliyyətlərinə ehtiyac artıb.

Mehr: Bizim fiqh və kəlam təkfirçilik düşüncəsinin cəmiyyətdə formalaşmasına icazə verirmi? Əgər belə bir hadisə baş versə harada baş verə bilər?

Doktor Xosrovpənah: Mən söhbətin əvvəlində işarə etdim ki, əgər imandan ağılı çıxsaq iman amansızlığa səbəb ola bilər. Ağıl da belədir. Ağıldan imanı çıxdıqda qəddarlığa yol açılır. Ağıl şiə məktəbində bünövrə etiqadlardandır. Çünki şiəliyin cövhəri imamətdir, imamət isə ağıl və məntiqə yer verir. Biz iman və ağıl arasında rabitəni qorumalıyıq. Nə edək ki, bizim də aralarımızda əxbarçılar, ifratçılar tapılır. Bu gün şiələr arasında da ağılı dəlil olaraq zəif sayanlar var. Bu səbəb olur ki, fəlsəfəyə qarşı ikrah yaransın. Molla Sədra kimi bir şəxsin təkfir olunması elə belə baxışlarla əlaqəlidir. Əgər təkfirçilik davam etsə bizim aramızdakı təkfirçilərin də artması mümkündür. Amma hələ ki belə bir hadisə baş verməyib. Təəssüf ki, təhlükə var.

Bəzən elə adamlar tapılır ki, İslam inqilabı ilə müxalifət bəhanəsi ilə fəlsəfə və düşüncə ilə mübarizəyə qalxır. Bəziləri sünnə əhli ilə müxalifət adı altında ağla qarşı çıxaraq şiəliyi zəiflədir. İslam inqilabı şiə və sünnilərin vəhdətinə yol açan inqilabdır. Amma aramızdakı təkfirçi düçüncəyə malik olanlar bu vəhdətə qarşı çıxırlar. Müxtəlif peyk şəbəkələrində belə təbliğatlar aparılır, şiə və sünni vəhdətinə çağıran inqilab hədəfə alınır. Xəlifələrin təhqiri məsxərəyə qoyulması iki

məzhəb arasındakı münasibətləri gərginləşdirməyə xidmət edir. Aramızdakı əxbarçılar, fəlsəfə və irfana zidd olanlar həm də inqilaba qarşıdırlar. Onlar sünnə əhli ilə xoş münasibətdə olan şiələrə qarşı da çıxırlar. Əgər bu danışıq tərzi, bu yanaşma dəyişməsə İŞİD-in qəddarlığına oxşar bir qəddarlıqla rastlaşa bilərik.

İnsanın tutduğu yol məntiqi yolsa qorxu yoxdur. Mənim nəzərimcə sağlam məntiq əsasında tənqid tərəqqiyə səbəb olur. Sağlam tənqid fəlsəfəyə irfana, fiqhə faydalıdır. Amma yanlız bir nəfər söz sahibi olanda və ağıl və məntiq kənara qoyulanda tənqid təhqirə keçir, amansızlıq ortaya çıxır.

Mehr: Siz təkfirçiliyə qarşı hansı üsulu qəbul edirsiniz?

Doktor Xosrovpənah: Mənim əqidəm budur ki, şiə və sünni olamsından asılı olmayaraq, qəddarlığa əl atan təkfirçiliklə sərt tərzdə danışılmalıdır. Əgər onlar hərbə əl atıbsa hərbi də cavab almalıdırlar. Təbii ki, müharibə səhnəsindən kənarda elmi təbliğatlara ehtiyac var. Dinimiz elm və məntiq, mədəniyyət dinidir. Amma ağıl və məntiq tanımayan, təpədən dırnağadək silahlanmış İŞİD-çi ilə yalnız hərbi dildə danışmaq olar. Mən hələ ki hərbi yola əl atmamış təkfirçilərlə mübahisə və müzakirələr yoluna üstünlük verirəm. Bu insanlarla elmi mübahisələr faydalı ola bilər. Əgər qeyri-hərbi təkfirçilərlə sərt rəftar etsək əks nəticə ala bilərik. Belə hərəkət imperializmə xidmət edə bilər. Çünki dünya imperializmi və beynəlxalq sionizm müsəlmanların parçalanmasını istəyir. İnsanların mərifətini artıra bilsək müsbət nəticələr əldə edərik.

Müsahibəni hazırladı: Xudadad Xadim

## Amerikanın hiylə təcrübəsi

Doktor Əli Əkbər Vilayəti ilə söhbət

İranla 5+1 ölkələri arasında müzakirələr boyu düşündürücü nöqtələrdən biri budur ki, Cənab Rəhbərin təbirincə, İran siyasi, islami əxlaqa sadiq qalıb. MAQATE-nin rəsmi məruzəsində təsdiqlənib ki, İran hazırkı vaxta qədər bütün öhdəçiliklərini yerinə yetirib. Əksinə, amerikalılar müzakirələr boyu yalan və hiylədən əl çəkməyib. Şəmsi 1394-cü il, fərvərdin ayının ilk günü, Cənab Rəhbər öz bəyanatında Amerikanın hiylələrinə işarə edərək buyurdu: “Ameikanın müqavilə bağlayaq, sonra rəftarlarınıza baxıb sanksiyaları qaldırarıq deməsi onun bir hiyləsidir!” İranın müzakirə aparan heyəti etibarlı və canıyanan insanlardan ibarət olsa da onların düşmənin hiylələrinə diqqətli olması lazımdır. Doktor Əli Əkbər Vilayəti Cənab Rəhbərin beynəlxalq məsələlər üzrə müşaviridir. Hazırkı söhbət Ameikanın müzakirələrdə rəftarları barədə Doktor Vilayətinin fikirlərindən ibarətdir. Doktor Vilayəti Amerikalıların İranla müzakirələrə yeganə seçim olaraq ehtiyaclı olduğunu bildirib. Amerikalı mütəxəssislər də müzakirələrin faydalarından danışır.

Sual: Nə üçün bu gün İranın nüvə texnologiyalarına sahib olmaq istiqamətində hərəkətləri zəruri sayılır?

Doktor Vilayəti: Demək olar ki, bir mövzunu hamı gözəl başa düşür. Dünyanın gələcəkdə ehtiyacına cavab verəcək enerji nüvə enerjisidir. Bu həm ekoloji baxımdan təmiz, həm də tükənməyən bir enerjidir. Fəlsəfi baxımdan tükənməyən demək olmaz. Təbii ki, maddi olan hər bir şey nə zamansa tükənməlidir. Amma praktiki olaraq ötən onillərə baxdıqda nüvə enerjisini istinad olunacaq yeganə enerji olduğunu görürük. Sənayenin inkişafı, ümumi inkişaf nüvə enerjisi ilə şərtlənib.

Nüvə enerjisi iki növdür. Biri nüvənin parçalanması, digəri nüvənin qaynamasıdır. Nüvənin qaynaması enerji istehsalında son mənbədir. Günəş belə bir mənbəyə nümunə göstərilə bilər. Günəşin neçə milyard il verdiyi enerji nüvənin qaynaması vasitəsi ilə yaranır. Gələcək enerji mənbəsi nüvənin qaynamasıdır. Alimlər belə

proqnozlaşdırır. Hazırda bu mövzu üzərində iş gedir. Hələlik isə nüvənin parçalanmasından danışmaq olar. Nüvənin parçalanmasının qalıqları çoxdur. Nüvə enerjisindən istifadə edənlər bu qalıqların, nüvə zibilinin dəfn olunması problemi ilə üzləşiblər. Bu qalıq harada dəfn olunarsa 100 illər ondan şüalanma baş verir. Nəticədə xəstəliklər, ekaloji çirklənmə yaranır. Bu səbəbdən nüvə atqıntısını, zibilini bəzən dənizdə dəfn edirlər. Hətta bəzi ölkələr yoxsul Afrika ölkələrinə pul ödəyir, öz nüvə qalığını həmin ölkələrdə dəfn edir. Bu iş həmin ölkələrin əhalisi tərəfindən etirazla qarşılanır. Amma enerjinin qaynamasında atqıntı, zibil çox az miqdardadır. Əgər gələcək barədə düşünsək, bilməliyik ki, gec ya tez mövcud enerji mənbələri tükənəcək. Bundan əlavə hazırkı enerji mənbələri ekologiyaya böyük zərbə vurur. Öncə neft, sonra qaz təbiəti zəhərləyir.

Demək hazırkı enerji mənbələri tükənmək üzrədir. Bu mənbələr həm də ekoloji problem yaradır. Bundan əlavə. Neftdən daha faydalı başqa məqsədlərlə bəhrələnmək olar. Demək biz gələcəyin fikrində olmalıyıq. Öz gələcəyini düşünən xalq, müstəqilliyini qorumaq istəyən ölkə nüvə enerjisinə malik ölkələrin asılılığından qurtarıb nüvə enerjisi istehsal etməlidir.

İran İslam Respublikası bu əsasla nüvə proqramını işə saldı. Onlar da elə bu əsasla müxalifətə başladılar. Çünki İran öz müstəqilliyini qorumaq, biganə ölkələrdən asılı olmamaq istəyir. Başqa ölkələrdən asılılıq ölkəni öz ideallarından əl çəkməyə vadar edir.

Sual: Demək, məqsədləri İranı həm qanuni haqqından, həm də müstəqillikdən məhrum etməkdir?

Doktor Vilayəti: Bəli, belədir. Gözəl bilirlər ki, İran nüvə silahı yaratmaq istəmir. Bu bir bəhanədir. Deyirlər ki, biz sizin nüvə silahı yaradacağınızdan ehtiyatlanırıq. Biz deyirik ki, əgər nüvə silahı yaradılmasından ehtiyatlanırsızsa, Nətənz, Forda, Ərak və digər nüvə mərkəzlərini MAQATE-nin nəzarətinə veririk. Buş və Klinton dövründə bizi müharibə ilə hədələyirdilər. Sonra gördülər ki, hədə-qorxu təsir etmir. Sanksiyalara əl atdılar. Gördülər ki, sanksiyalar da təsirsiz qaldı. Doğrudur ki, sanksiyalar çətinlik yaradıb. Amma sanksiyalar qarşısında müqavimət göstərdiyimizi görürlər. Beləcə, yeganə yolları müzakirədir.

Sual: Cənab Rəhbər İmam Rizanın (ə) hərəmindəki çıxışında buyurdu ki, Amerikalılar İranla danışıqlara ehtiyaclıdır. Bunu necə əsaslandırmaq olar?

Doktor Vilayəti: Onların müzakirəyə ehtiyaclı olmasının sübutu budur ki, başqa çıxış yolları yoxdur. Bütün yolları sınaqdan keçiriblər, istəklərinə çata bilməyiblər. Müharibə ilə hədələyirdilər. Nə üçün addım atmadılar? Çünki, İraq, Əfqanıstanda bunu təcrübədən keçiriblər. Bir məntəqəyə müdaxilə etməyin ağır xərcləri var. İraq xalqına böyük zərbə vursalar da özləri də zərbə aldılar. Nəhayət geri çəkilməyə məcbur oldular. Bu təcrübə ilə yanaşı nəzərə alanda ki, İran İraq və Əfqanıstandan iqtidarlıdır, başa düşürlər ki, İranla hərbi dildə danışmaq olmaz. Onlar belə düşündükləri üçün məsələnin hərbi yolla həllindən vaz keçdilər. İran İslam Respublikası göstərdi ki, özünü müdafiə etmək gücündədir. Fərqi yoxdur ki, onun qarşısında dayanan Amerikadır, yoxsa başqa ölkə. Biz sübut etmişik ki, heç bir halda təzyiqlərə, sanksiyalara baş əyməyəcəyik. Deməli, yeganə çıxış yolu müzakirələrdir. Bu da var ki, müzakirələrdə öz məqsədlərinə çatmaq üçün hiylə və yalana əl atırlar.

Çalışırlar ki, bizi müzakirələrə çəksinlər, sonra desinlər ki, siz müəyyən mövzularda güzəştə getsəniz, müəyyən imtiyazlar alarsınız. Biz güzəştə getdikdə imtiyaz vermirlər. Başqa bir bəhanə tapırlar. Onlar diplomatiyada addım-addım irəli gedir, məntəqə ölkələri və böyük dövlətlərə münasibətdə bu üsulla məqsədə çatırlar. Bu məqsədlə 5+1 yaratdılar. BMT təhlükəsizlik şurasında veto hüququ olan dövlətləri bir yerə topladılar. Bu yolla öz mövqelərini möhkəmləndirməyə çalışdılar. İndi İranla müzakirələrdə qarşı tərəf çoxluğa malikdir.

Bəzən belə bir görüntü yaradırlar ki, onlarla razılığa gəlsək onlar başqa ölkələri də razı salacaqlar. Onlarla müəyyən mövzuda razılığa gəldikdə növbəti addımda vədlərinə əməl etmirlər və bəhanə gətirirlər ki, öz müttəfiqlərini razı sala bilmirlər. Bu halla dəfələrlə üzləşmişik.

Sual: Nümunələr göstərə bilərsinizmi?

Doktor Vilayəti: Məsələn Fransa Amerika ilə müxtəlif mövzularda həmfikir olsa da, Amerika İranla müəyyən məsələdə razılığa gəldikdə sonda Fransanın xarici işlər naziri deyir ki, biz bunu qəbul etmirik. Bu nöqtəyə qədər əldə olunmuş bütün

razılıqları Fransanın xarici işlər naziri gücdən salır. Bu qarışdırıcılıq Amerikanın daxilinə də sirayət edib. Bir də görürsən Amerika senatorları məktub yazıb, deyirlər ki, ABŞ prezidentinin qərarlarını qəbul etmirik. Amerika Xarici İşlər Naziri isə bunun boş söz olduğunu, dövlətin öz işini görəcəyini söyləyir.

Sual: Bu da maraqlı mövzudur və əvvəllər müşahidə edilməyib. Bunu necə izah edirsiniz?

Doktor Vilayəti: Bir təhlil budur ki, (Amerika daxilində dünyanı aldatmaq üşün) zərgər müharibəsi gedir. Başqa bir təhlilə görə Amerika daxilində ixtilaflar var. Respublikaçılarla demokratlar, başqa təbirlə desək, konqresdə iqtidar sahibləri ilə dövlət arasında ziddiyyətlər mövcuddur. Amma özünü super güc adlandıran dövlətdə xarici işlər naziri müzakirə apardığı zaman çətinə düşdükdə, ölkəsində sionist lobbinin müxalifətçiliyini bəhanə göstərməməlidir. Həqiqətən də belə bir müxalifətçilik ola bilər. Amma bizim xarici ölkələr o cümlədən Amerika ilə bağlı təcrübələrimizdən görünür ki, əgər bir partiya hakimiyyətə gəlirsə, həm milli mənafeləri, həm partiya mənafelərini nəzərə alır. Çünki qarşıdakı mərhələdə partiyanın nailiyyətləri onun nümayəndəsinə səs qazandırır. Bu əsasla müxalif partiya öz rəqibini səhnədən çıxarmaq üçün müxtəlif işlər görə bilər. Bu onun üçün qarşıdakı seçkilərdə imtiyaz olar. Amma özü hakimiyyətə gəldikdə əvvəlki dövlətin siyasətini davam etdirir. Təcrübədə görünüb ki, Amerikada hansı partiyanın iş başına gəlməsindən asılı olmayaraq xarici siyasətdə dəyişiklik baş vermir. İranın nüvə proqramları ilə bağlı müzakirələrdə Amerikanın atdığı addımlar tarixdə təkrarsız addımlardır. Xarici siyasətdə belə parçalanma müşahidə olunmayıb. Hakimiyyətdə respublikaçıların və ya demokratların olmasından asılı olmayaraq qərar çıxaran pərdə arxasındakı müştərək qüvvələrdir. Belə deyil ki, hakimiyyətdə olan partiya müqavilə imzalasın. Sonra hakimiyyətə gələn partiya bu müqavilədən imtina etsin. Viyetnam müharibəsi, sionist rejimin dəstəklənməsi, regionun mürtəce dövlətləri ilə əlaqələr, Avropa ilə münasibətlər, Çin və Rusiya ilə münasibətlər, İranın nüvə proqramı mövzusu Amerika xarici siyasətində istiqaməti təyin olunmuş mövzulardır. Bu siyasətlərin dəyişəcəyi gözlənilmir.

Cənab Rəhbərin buyurduğu kimi demokrat Klintondan başlamış respublikaçı Buşa qədər siyasətlər dəyişməyib. İrana münasibətdə eyni siyasət yürüdülüb. Demokrat Obama da əvvəlki siyasəti davam etdirir. Qarşıdakı seçkilərdə respublikaçıların və ya demokratların hakimiyyətə gəlməsindən asılı olaraq xarici siyasətin dəyişməsi

ehtimalı yoxdur. Buna görə deyə bilərik ki, yuxarıdakı iki yanaşma həqiqətin bir hissəsini əks etdirir. Yəni hər iki yanaşmanı düzgün saymaq olar. Amma hansısa yanaşmaya tam haqq qazandırmaq mümkün deyil. Baş verən hadisələr doğrudan da müəyyən həddə zərgər müharibəsidir. Bu hadisələrdə həm də partiya maraqları özünü göstərir. Qeyd etdiyim kimi, Amerikanın milli mənafeləri tələb edir ki, İranla müzakirə aparılsın. Hərbi hədə-qorxunu həm respublikaçılar, həm də demokratlar təcrübədən çıxarıb. Daim təkrarlayırlar ki, hərbi variant miz üzərindədir. Amma öz şərhçiləri qeyd edirlər ki, İranla müharibə Amerikanın xeyrinə deyil. Onlar İranla müharibəyə cürət etmirlər. Bilirlər ki, İranla müharibəyə başlasalar regionda təkrarsız bir böhranla üzləşəcəklər. Kimsə belə bir müdaxilənin nəticəsini proqnozlaşdıra bilməz. Amerika siyasətçiləri bu addımın Amerikanın xeyrinə olmadığını düşünürlər. Bu əsasla müttəfiqləri də Amerikanın İrana qarşı hədə-qorxularını ciddi qəbul etmir. Beləcə, yeganə yol olaraq müzakirələr gündəmdə qalır.

Sual: Amma İran hər zaman xarici siyasətdə vahid kurs izlədiyini nümayiş etdirib?

Doktor Vilayəti: Bizim öhdəmizdə olan budur ki, dünyaya diplomatik müzakirələr tərəfdarı olduğumuzu göstərək. Biz öz haqqımızın sübutu üçün zor yox, məntiqə əsaslanırıq. Sual veririk ki, nüvə silahının yayılmaması barədə beynəlxalq öhdəçiliyi imzalayan ölkənin nüvə enerjisindən sülhməramlı istifadəsi onun haqqı deyilmi? Biz bu öhdəçiliyi imzalamışıq, başqa ölkələr kimi MAQATE-nin nəzarətini qəbul edirik. Bütün öhdəçiliklərimizə əməl edirik, hətta parlamentin qəbul etmədiyi bir protokola müəyyən müddətdə sədaqətli qalmışıq. Bu addımla dünyaya göstərmək istəmişik ki, nüvə problemini sülh yolu ilə həll etmək istəyirik. Rəsmi öhdəçiliklərdən də artıq işlər görmüşük. Deməк, Amerikanın müzakirədən başqa yolu qalmır. Amma biz diqqətli olmasaq, beynəlxalq bir yalanın qurbanı ola bilərik. Müqavilə bağlayarlar, onun əksinə addım atarlar. Bəhanə göstərələr ki, Amerikanın daxilində müxalifətçiliklər güclüdür, təzyiqlər var. Xarici təzyiqləri də bəhanə göstərə bilərlər. Sionist rejim başçısı deyir ki, İranla razılaşma imzalanmamalıdır. Bir ərəb ölkəsi həddini aşaraq bu müzakirəyə qarşı çıxır. İşi pozmaq üçün bir siyasi bəhanə lazımdır. Amerika təcrübədə göstərib ki, öz iradəsini belə ölkələrə qəbul etdirə bilir. İran və Rusiyaya zərbə vurmaq üçün neftin qiymətinin aşağı endirilməsi buna sübutdur. Neftin qiyməti Amerikanın istəyi ilə aşağı salınıb. Həmd olsun Allaha ki, İran bu maneəni də aşdı. Rusiya da

özünə bir yol tapıb. Söz budur ki, Amerika istəyəndə məntəqə ölkələrini razı sala bilir. Neftin qiymətinin aşağı salınması bir nümunədir.

Sual: Cənab Rəhbər xibrə məclisi üzvləri ilə görüşdə buyurdu ki, 47 senatorun imzaladığı məktub Amerikadı siyasi əxlaqın süqutunu göstərdi. Bu məktub doğrudan da Amerika siyasətində böhrandır, yoxsa zərgər müharibəsi aparırlar?

Doktor Vilayəti: Olsun ki, bu məktubla 300-dən artıq məclis nümayəndəsinin imzaladığı məktub arasında fərq var. Çünki məktubun tonu və məzmunu bir qədər yumşaqdır. Demək istəyirəm ki, senatorlar məktub yazanda və İranın müzakirə komandası buna etiraz edəndə qarşı tərəfin tonu mülayimləşir. Amma istiqamət həmin istiqamətdir. İranın etiraz etdiyi görəndə, ikili siyasətə görə ittiham olunanda tonlarını mülayimləşdirib dövləti himayə edirlər. Bəli, Cənab Rəhbət buyurdu ki, bu məktub Amerikada siyasi əxlaqın süqutunu göstərir. Müzakirələr stolu arxasında əyləşmiş xarici işlər naziri təkcə icra aparatını təmsil etmir. O bütün dövlətin nümayəndəsidir. Amerikada nümayəndələr müzakirələrə qarışmamalıdır. Necə ki, bizdə Xarici İşlər Naziri danışıqlar aparır və parlament buna müdaxilə etmir. Demək, icra aparatı və xarici işlər naziri dövləti təmsil edir.

Digər tərəfdən, ABŞ prezidenti nüvə bombardımanı, bir məntəqənin işğalı, kimyəvi hücum və digər cinayətkar addımlar üçün əmr verə bilirsə demək onun səlahiyyətləri genişdir. Tarixdə çox görmüşük ki, ABŞ prezidenti tam ixtiyar sahibidir. Az ölkələrdə prezidentin bu qədər səlahiyyəti var. Prezidentin büdcə layihəsi nümayəndələr tərəfindən təsdiq olunmayanda prezident nümayəndələrin qərarına veto qoya bilir. Özü nə istəyirsə, onu da edə bilir. Bu Amerikada belədir.

Əgər xarici işlər naziri müzakirələrə qatılıbsa, dünyada qəbul olunmuş qanuna əsasən o dövləti təmsil edir. Kiminsə ölkə daxilindən buna qarşı çıxması və müzakirə aparan tərəfin bu müxalifətçiliyi bəhanə göstərməsi Amerikanın hiylələrindəndir.

Müzakirələrdə bir vaxt elə şərait yarandı ki, müzakirələrin sonuna bir neçə saat qalmış Xarici İşlər Naziri paytaxtla əlaqə saxladığını və təklifinin qəbul olunmadığını söylədi. Hansı ki, Amerikanın müttəfiqləri də düşünürdü ki, artıq razılaşma imzalanır. Beləcə müzakirələrin müddətini beş-altı ay uzadırdılar. Cenevrə müzakirələri buna bir misaldır. Amerikanın müttəfiqləri də razılaşmanı imzalamaq istəyirdilər. Bu vaxt Amerika Xarici İşlər Naziri Vaşinqtonu qane edə

bilmədiyini söylədi. Beləcə müzakirələr daha 5-6 ay uzandı. Bu gedişatda heç bir məntiq yoxdur. Əgər sənin səlahiyyətin yoxdursa nə üçün müzakirələrə qoşulmusan? Amerika kimi bir ölkənin belə iddia ilə çıxışı ciddi deyil. Necə olur ki, bizim Xarici İşlər Naziri müzakirə aparır və öhdəçiliklərinə əməl edir. Amma Amerikanın Xarici İşlər Naziri öhdəçiliyinə əməl etmək gücündə deyil.

Sual: Cenevrədən öncə də Amerikanın belə rəftarları müşahidə olunubmu?

Doktor Vilayəti: Müzakirələrdən qabaq məntəqə ölkələrindən biri vasitəçi olaraq müraciət etdi. Bildirildi ki, Amerika tərəfi müsbət addımlar atmaq istəyir. Bu vasitəçiyə inanırıq və bilirdik ki, Amerikanın sözlərini olduğu kimi çatdırır. Burada bir nöqtəyə diqqət yetirmək lazımdır. Əgər Amerika dolayı yolla vasitəçi göndərib müzakirə təklif edirsə, Cənab Rəhbərin buyurduğu kimi, bu müzakirələrə ehtiyaclıdır.

Digər tərəfdən, onlar həmin vasitəçi ilə bildirmişdilər ki, İranın nüvə enerjisi haqqını rəsmi tanımağa hazırdılar. Amma müzakirələr başlayanda başqa söz dedilər. Bütün bunlar Amerikanın hiylədən əl çəkmədiyini göstərir.

Sual: Bu hiylə nədən ibarətdir? Bu müzakirələrdə onu təcrübədən keçirmişikmi?

Doktor Vilayəti: Hiylə mövzunu külli və cüzi olaraq iki hissədən ibarətdir. Deyirlər ki, siz əvvəlcə öhdəçiliklərinizə əməl edin, biz bunu dəyərləndirək. Əgər siz düzgün əməl etsəniz biz tədricən sanksiyaları aradan qaldırarıq. Əvvəllər də bu addımı atıblar. Dedilər ki, uranın zənginləşdirilməsini bir müddət saxlayın, sonra daha artıq tələblər irəli sürdülər. Bu minvalla iki ildən artıq ötdü. Biz onlarla razılaşmaya getdik. Amma onların tədricən tələbləri artırdığına şahid olduq. Hətta uzaq mənzilli raketlərin ləğvini tələb etdilər. Sonra Brüsseldə, NATO qərargahında bizim raketlər mövzusu müzakirəyə çıxarıldı. Dedilər ki, siz Avropada İsraili hədəfə almısınız. Söhbət raketlərdən gedəndə insan haqları mövzusunu ortaya qoydular. Zərrəcə şübhə etmirəm ki, biz nüvə məsələsində güzəştə getsək onlar keçmişdə olduğu kimi yeni mövzular ortaya atacaq.

Bəzi bitərəf vasitəçilər ədalətli mühakimə aparmaq istədilər. Onlar dedilər ki, siz qısa müddətə onların tələblərini yerinə yetirin. Amma təcrübə göstərdi ki, biz geri çəkildikcə onlar yeni mövzular ortaya atır. İndi də belədir. Bu sadəcə bir nəzəriyyə deyil. Onların məntiqi budur. Təzyiqin təsirli olduğunu görəndə onu gücləndirirlər. Nüvə ardınca raket mövzusunu, sonra insan haqları mövzusunu müzakirəyə çıxarırlar. Deyirlər ki, nə üçün Bəhailərə azadlıq vermirsiniz? Bəhailərə azadlıq vermək o deməkdir ki, onlar rahat şəkildə Sionist rejimə casusluq etsinlər. Bəhailərin Sionist rejimlə əlaqələri kimsəyə gizli deyil. Onların mərkəzi işğal olunmuş ərazilərdə yerləşir. Bəzən də ölkəmizdə şəriət hökmlərinin icrasına etiraz edirlər.

Ötən söhbətlərdən belə bir nəticə alırıq ki, razılaşma balanslı olmalıdır. Belə olmaz ki, biz fəaliyyətləri dayandıraq amma sanksiyalar yerində qalsın. Biz öhdəçiliklərimizə əməl etdiyimiz kimi onlar da öz öhdəçiliklərinə əməl etməlidirlər. Hərbçilərin dili ilə desək konkret gün və konkret saatda hər iki tərəf öhdəçiliyə əməl etməlidir. Necə ki, biz İraqla eyni gün və eyni saatda atəşkəsin icrasına başladıq. Nüvə müzakirələrində də eyni cür rəftar edilməlidir. Onlar deyirlər ki, əgər öhdəçiliyinizə əməl etməsəniz biz sanksiyaları yenidən işə salacağıq. Biz də deyirik ki, əgər siz sanksiyaları işə salsanız biz nüvə fəaliyyətlərini əvvəlki səviyyəsinə qaytaracağıq. Onlar bu yanaşmaya qarşıdır. Sanksiyaların yenidən qüvvəyə minməsi üçün yol saxlamaq istəyirlər. Bizimsə fəaliyyətlərimizi birdəfəlik dayandırmağa çalışırlar. Amma biz yalnız hər iki tərəfin öhdəçiliyə eyni şəkildə əməl etməsini istəyirik.

Sual: Cənab Rəhbər öz söhbətində qarşı tərəfin məntiqsiz hərəkət etdiyini söylədi. Qarşı tərəfin məntiqsiz hərəkətlərinə başqa nümunələr varmı?

Doktor Vilayəti: Bəli, doktor Müsəddiqin dövründə Amerikanın prezidenti Trümen idi. Edvard Açson (Acheson) xarici işlər naziri postunda idi. Onlar doktor Müsəddiqə söz verdilər ki, İran neftinə qadağa kompaniyasında iştirak etməyəcəklər. Əgər İngilislər qadağa qoysa, onlar İrandan neft alacaqlar. Sonra seçkilər oldu və Eyzenhauer hakimiyyətə geldi. O doktor Müsəddiqə verilən vədi pozdu və Britaniya ilə birlikdə əl-ələ verərək 28 mordad çevrilişində iştirak etdi. İrana münasibətdə Amerikanın belə rəftarlarına tarixi dəlillər çoxdur.

Sual: Nə üçün Cənab Rəhbər bir neçə dəfə təkrarladı ki, İran yalnız nüvə mövzusunu müzakirə edir?

Doktor Vilayəti: Çünki İran və Amerikanın regiondakı məqsədləri fərqlidir. İran region ölkələrində xalq hakimiyyətinin qurulmasını istəyir. Amerika isə orta əsrlərə məxsus diktatorlarla həmkarlığa üstünlük verir. O İŞİD kimi terrorçu qrupu himayə edir. Əslində İŞİD-i yaradan Amerikadır. Onlar regionda gərginlik yaratmağa çalışırlar. Qarşılarına məqsəd qoyublar ki, məntəqə ölkələrini parçalasınlar. Amerikanın Liviyaya müdaxiləsi səbəb oldu ki, bu ölkədə hakimiyyətsizlik yaransın. Bu işi Yəməndə də həyata keçirmək istəyirlər. Əvvəllər Somalidə belə bir iş görüblər. Somalidə mərkəzi hökuməti parçalayan Amerika oldu. Bu gün həmin ölkə dəniz quldurlarının nəzarəti altındadır. Ölkəyə ayrı-ayrı qəbilələr nəzarət edir. Amerika öz siyasətlərini həyata keçirtmək üçün məntəqədə iqtidarlı ölkə olmamasını münasib sayır. İranın isə istəkləri buna qarşıdır. Biz Amerika ilə müzakirə aparsaq da regional maraqlarımız tam fərqlidir.

Amerika regionda demokratik dövlətlərin qurulmasını istəmir. Ümumiyyətlə, regionda müstəqil ölkənin olması İsrail və Amerikanın marağında deyil. Bu məqsədlə Əfqanıstanda Talibanı səhnəyə gətirdilər. Xanım Buto BBC-yə müsahibəsində demişdi ki, ABŞ, Ərəbistan, Britanya və Pakistan əl-ələ verərək taliban hökumətini yaradıblar. Bu gün xanım Klinton öz kitabında yazır ki, İŞİD onların layihəsidir. İnsan haqlarından dəm vuran hökumət vəhşicəsinə günahsız insanları qətliam edən qruplar yaradır. İŞİD muzdurları yaralandığı zaman onları işğalçı rejimin xəstəxanalarında müalicə edirlər. Digər tərəfdən Amerikanın məntəqədəki əsas məqsədlərindən biri sionist rejimin rəsmi tanınmasıdır. Hansı ki, İran İslam Respublikası Fələstinin azadlığı yolunda çalışır. İraqda, Suriyada xalq hökumətinin qurulmasını istəyirik. Hizbullahın himayəsi də belə məqsəd daşıyır. Bütün bunlar Amerikanın məqsədlərinə ziddir. Bizim müştərək regional hədəfimiz yoxdur. Onlar çalışırlar ki, İranı məntəqənin inqilabi qüvvələrinin gözündən salsınlar. Belə bir məqsəd izləyirlər.

Bizim məqsədimiz budur ki, İslam məmləkətləri iqtidarlı, müstəqil olsunlar. Onların öz mənafelərini müdafiə etmək gücündə olmalarını arzulayırıq. Lazım gələndə əl-ələ verib İslam ümmətinin mənafelərinin keşiyində dayansınlar. Bu istəklər Amerikanın istəklərinə ziddir. Deyirlər ki, İranla regional mövzuları müzakirə etmək istəyirlər. Amma bu işdə heç bir xoş niyyətləri yoxdur. Sadəcə İranı hörmətdən salmaq istəyirlər. OSLO müqaviləsini Fələstin Azadlıq Təşkilatına

qəbul etdirməklə bu təşkilatı gözdən saldılar. İndi bu işi İrana münasibətdə həyata keçirmək istəyirlər.

Sual: Bu gün Amerika və bəzi məntəqə ölkələrinin himayəsi ilə Yəmən hava hücumuna məruz qalır. Buna münasibətiniz necədir?

Doktor Vilayəti: Yəmənlə bağlı iki ümumi nöqtəni yada salmaq istəyirəm: Əvvəla, şəmsi 1389-cu il bəhmən ayında Cənab Rəhbər cümə namazı xütbəsində məntəqədə yeni İslam oyanışı hərəkatından danışdı. Həmin bəyanatdan sonra məntəqədə böyük hadisələr baş verib. Ümumiləşdirdikdə hadisələr məntəqə ölkələrinin xeyirinədir. Əlbəttə ki, dağıdıcı və ürək ağrıdan hadisələr də baş verib.

Ümidverici hadisələrdən biri Yəmən xalqının inqilabı idi. İslam oyanışı dalğasında bu ən ümidverici hadisə idi. Yəmən inqilabı İslam dəyərləri üzərində qurulub. Bu inqilabda xalq iştirak edir. Ölkədə ümumi İslam hərəkatı üçün zəminə var. Bir amil bu hərəkatın İslam hərəkatı olmasıdır. Onun yəmənlilərin qəlbində kökü var. Digər tərəfdən hərəkat xalq hərəkatıdır. Üçüncüsü, bütün şiə və sünni alimləri bu hərəkatı himayə edir. Dördüncüsü, inqilabçılar və xalqın ixtiyarında böyük müdafiə imkanları var. Beşincisi, bütün ölkə ərazisində, şimaldan başlamış cənuba qədər, mərkəz də daxil olmaqla partiyalar arasında ittifaqın olmasıdır. Elə buna görə də Yəmənin istefa vermiş prezidenti biganələrin himayəsinə baxmayaraq postunda qala bilmədi. Nəhayət ölkədən qaçmağa, biganələrə sığınmağa məcbur oldu. İkinci ümumi nöqtə budur ki, məntəqə ölkələrinin iradəsinə zidd olan ssenarilər məğlubiyyətə məhkumdur. Bu gün ABŞ, onun ərəb müttəfiqləri və sionist rejimin müştərək ssenariləri Yəməndə təkrarlanır. Bu ssenari Livanda, Qəzzədə, Suriyada, İraqda özünü doğrultmayıb. Yəməndə də onun məğlubiyyəti qaçılmazdır. Amerikanın hədiyyəsi olan təyyarələrlə günahsız xalqı bombalayanlar bu xalqla üz-üzə döyüşmək cürətinə malik olmayanlardır. Bir neçə ərəb ölkəsinin başqa ölkələrin psixoloji dəstəyi ilə Yəməni bombalaması onların məqsədə çatmasına kömək etməyəcək. Yəmənə hücum edənlər strateji səhvə yol verib. Onların məğlubiyyəti labüddür. Şüşə otaqda oturanlar qarşıdakı rəqibə daş atmır.

Yəməndə infrastrukturların bombalanması maadi baxımdan böyük zərbədir. Bu alov onu şöləländirənləri yaxalayacaq. Nəhayət peşiman olacaqlar. Onlara tövsiyə olunur ki, nə qədər gec deyil bu işdən əl çəksinlər. Yəmən xalqının qəzəb alovu onları bürüməmiş geri çəkilsinlər.

## Cümhuriyyət, respublika dini ola bilərmi?

Höccətülislam Doktor Məhəmmədcavad Ərəsta ilə söhbət

İslam Cümhuriyyəti nəzəriyyəsi və ya Cənab Rəhbərin təbirincə, dini demokratiya İslam inqilabının İranda qələbəsindən sonra İmam Xomeyni tərəfindən səhnəyə gətirilsə də, bu nəzəriyyənin əqli və nəqli möhkəm əsasları var. Bəziləri sübut etməyə çalışırlar ki, İslam demokratiya ilə ziddir. Cənab Rəhbər isə belə buyurur: "Dəfələrlə qeyd etmişəm ki, bizim nəzərdə tutduğumuz dini demokratiya demokratiya ilə dinin sonradan birləşdirilməsindən yaranan hadisə deyil. Bizim nəzərdə tutduğumuz demokratiya dindən qaynaqlanır. Bu yolu bizə İslam göstərir."

Höccətülislam Doktor Məhəmmədcavad Ərəsta hüquqşünasdır, Tehran Universitetinin Elmi Şurasının üzvüdür. Hazırkı söhbətdə Doktor Məhəmmədcavad Ərəsta dini demokratiya haqqında əqli, nəqli baxımdan, eləcə də, Əhli-Beytin (ə) həyat yoluna nəzər salmaqla söz açır.

Sual: İslam cümhuriyyəti, respublikası ifadəsinə müxtəlif şəkildə təriflər verilib və münasibətlər fərqlidir. Bəziləri cümhuriyyətin İslamdan ayrı olduğunu düşünür. Ona görə də bu fikirdədilər ki, cümhuriyyət, respublika hadisəsi din çevrəsindən xaricdə olan bir hadisədir. Bu qəbil insanlar İslam cümhuriyyəti ifadəsində cümhuriyyətin İslama əlavə olunduğunu düşünürlər. Bəziləri də bu iki hadisəni eyni sayır. Siz bu barədə nə düşünürsünüz?

Cavab: Yaxşı olar ki, əvvəlcə cümhuriyyət, respublika sözünə tərif verək. Respublika hakimiyyəti, üsul-idarəsi mənim nəzərimcə xalqın siyasi iştirakı ilə qurulan bir nizamdır. Bu nizamda dörd element var. Xalqın hökumətin təsisində iştirakı, hökumətin idarəçiliyində iştirakı, hökumətə nəzarətdə iştirak və respublika quruluşunun ziddinə olan hər hansı addıma qarşı etiraz. Əgər bu dörd elementi cümhuriyyət üçün qəbul etsək, qətiyyətlə deyə bilərik ki, İslamda nəzərdə tutulan hakimiyyət respublika hakimiyyətidir. Dini mənbələrə müraciət etdikdə aydın olur ki, ilkin İslam dövründən məsumlar xalqın hakimiyyət işlərində iştirakına şərait yaradıb və bunu zəruri sayıblar. Bu baxımdan cümhuriyyəti dini hakimiyyətin özü kimi qəbul edə bilərik.

Sual: İslam düşüncəsində cümhuriyyət hadisəsi yer alıbmı?

Cavab: Həzrət Peyğəmbərin (s) dövründə və Əmirəlmömininin dövründə (s) qurulan hakimiyyət bu elementlərə malik bir cümhuriyyət idi. Təbii ki, o dövrün öz məhdudiyyətləri var idi. Əmirəlmöminindən (ə) sonra qısa bir müddətdə İmam Həsənin (ə) hakimiyyətində bu nizamı görə bilərik. Demək Peyğəmbər, (s) Əli (ə) və İmam Həsənin (ə) hökumətlərində həmin dörd element nəzərə alınıb.

Sual: Amma dini mənbələrdə cümhuriyyət sözünə az rast gəlirik.

Cavab: Təəssüf ki, dini mətnlərdə yer almış bir çox məlumatlar dövrümüzün tələb etdiyi formatda ortaya qoyulmayıb. Dini mətnlərdə cümhuriyyət sözü ilə rastlaşmamağımız mümkündür. Amma mahiyyət baxımınca eyni xüsusiyyətlərə malik olan hakimiyyətdən danışılır. Deyə bilmərəm ki, fəqihlərimiz bu mövzuya diqqət göstərməyiblər. Bu gün qarşımızda dayanan və mənim də məşğul olduğum həmin mövzu dünyada mövcud olan formatlarla ortaya qoyulmalıdır. Fəqihlərimiz bu mövzu ilə məşğul olmayıblar, bu səbəbdən tanışlıqları da yoxdur. Belə bir vəziyyətdə həmin hadisənin günün formatında təqdimindən danışmağa dəyməz. Hüquq və siyasi elmlər sahəsində çalışan hər hansı bir araşdırmaçı elə terminlərdən istifadə edir ki, biz fiqhi mənbələrdə həmin terminləri görmürük. Bəziləri elə düşünə bilər ki, bu terminlər sonradan İslama əlavə olunub. Əslində isə mahiyyət baxımından həmin hadisələr dini mənbələrdə var və bugünkü terminlər həmin

məfhumların müasir formatda təqdimatıdır. Dini mənbələrdə araşdırmalar aparıb çıxarışlar edən fəqihlər və alimlərin zəhməti böyükdür. Kitab və sünnədən günün tələblərinə uyğun olan mövzuları günün formatında təqdim etmək zəhmət tələb edən işdir. Əgər bu gün cümhuriyyətlə bağlı fiqhi mənbələrdən dəlillər ortaya qoyulmayıbsa bu fəqihlərin günahı deyil. Bir növ bu iş üçün sosial sifariş olmadığını deyə bilərik. Əgər bir şəxs dini mənbələrlə o cümlədən hüquq və siyasi elmlərlə tanış olsa əminliklə cümhuriyyət mövzusunu ortaya qoya bilər. Onun bu addımının bəziləri tərəfindən qəribə qarşılanması mümkündür. Kimsə elə düşünə bilər ki, bu araşdırmaçıların cümhuriyyətlə bağlı dediyi sözlər İslama artırılıb və onların fiqhi mənbəsi yoxdur. Amma biz mahiyyət baxımından araşdırma apardıqda eyni hadisələrlə qarşılaşırıq. Sadəcə terminlərlə, adlarda fərq var. Biz dini mənbələrdə öz əksini tapmış hadisələri bu gün dini demokratiya kimi təqdim edirik. Bu yeni bir termindir. Hansı ki, mahiyyət baxımından ilkin İslam dövründə mövcud olub.

Belə deyil ki, demokratiya dindən kənar və Qərbdə yaranmış bir hadisə kimi qəbul edilsin. Biz demokratiyanı İslama sonradan gətirməmişik. Təhlillərimiz demokratiyanın dində olduğunu göstərir. Qərbdən öncə bizim dinimizdə demokratiya mövcud olub. Hətta bugünkü Qərb cəmiyyətindəki demokratiyadan üstün bir demokratiya İslam dinində mövcud olub. İslamdan sonra başqa ölkələrdə demokratik dəyərlər səhnəyə gəlib. Demək istəmirəm ki, demokratiya sözünü İslamdan götürürlər. Mən demokratiyanın mahiyyətini nəzərdə tuturam. Yanlış fikirdir ki, biz demokratiyanı qərbdən götürmüşük. Bəziləri düşünür ki, demokratiya İslamla uyğun gəlmədiyindən biz dini Demokratiya məfhumu ortaya qoymuşuq.

Sual: Sizin demokratiyanın dini mətnlərdə olmasına nəqli dəlilləriniz nədir?

Cavab: Əgər bu barədə ətraflı cavab istəyirsinizsə "İran İslam Cümhuriyyətinin Analitik Mənbələri" kitabının 14-cü fəslinə müraciət edə bilərsiniz. Xülasə şəkildə deyə bilərəm ki, Əmirəlmöminin (ə) buyurur: "Həzrət Peyğəmbər (s) mənimlə əhd bağlayıb buyurdu ki, ey Əbu-Talib oğlu, ümmətim üzərində vilayət sənə məxsusdur. Amma hökumət quranda bir şərtə əməl etməlisən. O budur ki, xalq sənin hakimiyyətini istədiyi zaman hakimiyyətdə qalırsan. Əgər xalq sənin hökumətini istəməsə hakimiyyətini onlara zorla qəbul etdirmirsən. Onlara istədiyi yolu getmək imkanı ver."

Başqa bir gözəl rəvayət də var. Bu Peyğəmbərin (s) rehlətindən sonrakı dövrə aiddir. Xanım Fatimeyi-Zəhra (s) sağ olanda və Əmirəlmömininə (ə) məxsus hakimiyyət qəsb ediləndə bir şəxs Xanım Zəhranın (s) yanına gəlib dedi: "Məgər Peyğəmbər (s) Əmirəlmöminini özündən sonra üçün xəlifə təyin etməyib? Məgər sənin "Qədir" hadisəsindən xəbərin yoxdur?! Həmin şəxs bu hadisədən xəbərsiz olduğunu dedi. Sual verdi ki, nə üçün həzrət Əli (ə) öz haqqını geri almaq üçün qiyam qaldırmır?

Xanım Zəhra (s) bu şəxsin cavabında buyurur: "Peyğəmbər (s) Əli (ə) ilə əhd bağlayıb ki, onun məqamı Kəbə kimidir. Buyurub ki, əgər istəsələr sənin yanına gələrlər, sən onların yanına getmə. Əgər sənin yanına gəlib hakimiyyətə sahib durmağını istəsələr qəbul et. Amma bunu istəməsələr onları azad burax."

Deyilənlər çox gözəl təbirlərdir. Biz başqa rəvayətlərdə də həzrət Əlinin (ə) Kəbəyə bənzədilməsinə şahid oluruq. Kəbə o zaman dəyərli olur ki, insanlar onun dəyərini bilsinlər, çətinliklərdən keçib Kəbənin təvafına gəlsinlər. İmamın da yeri Kəbə kimidir. O özü insanların sorağına getməli deyil. İmamın məqsədi nümunəvi bir cəmiyyət qurmaqdır. Belə bir cəmiyyət zorla qurula bilməz. Əgər İmam özünü xalqa zorla qəbul etdirsə və xalq onun dəyərini bilmədiyi üçün hakimiyyətini istəməsə, nəzərdə tutulmuş məqsəd həyata keçməz. Çünki İslamın məqsədi nümunəvi cəmiyyət qurmaqdır. Hakimiyyət zorla qəbul etdirildikdə nümunəvi cəmiyyət qurmaq mümkün olmur.

Sual: Məsum İmamlar (ə) necə, öz həyatlarında beləmi rəftar edir?

Cavab: Demokratiyanın İslamda olması ilə bağlı üçüncü dəlil məsumların həyatıdır. Öncə rəvayətləri dəlil göstəririk, sonra əqli dəlillər gəlir, sonda məsumların həyatına nəzər salırıq. Məsumların həyatına baxdıqda şübhəli yer qalmır ki, demokratiya İslamda olan bir dəyərdir. İkinci xəlifə xəstələnib yatağa düşdüyü zaman göstəriş verdi ki, 6 nəfərlik şura yaradılsın. Şura elə bir şəkildə yaradıldı ki, həzrət Əlinin (ə) müxalifləri çoxluq təşkil etdi. Zahirdə ədaləti gözləmək üçün Əbdül-Rəhman ibn Ovf xəlifəliyi həzrət Əliyə (ə) təklif etdi. Dedi

ki, sənə beyət edirəm, bir şərtlə ki, Allahın kitabı, Peyğəmbər (s) sünnəsi və şeyxlərin yolunu gözləyəsən. Həzrət (ə) buyurdu: “Allahın kitabı və Peyğəmbər (s) sünnəsini qəbul edirəm, amma şeyxlərin yolunu yox!”

Çoxları belə bir sual verir ki, həzrət Əli (ə) cəmiyyətin xeyirini nəzərə alaraq nə üçün sözdə bu təklifi qəbul etmədi. Həzrət Əlinin (ə) şuradakı təklifi qəbul etməməsinin səbəbi budur ki, həzrət Əli (ə) üçün istənilən bir qiymətə hakimiyyətə çatmaq məqsəd deyildi. Hakimiyyət ideal İslam cəmiyyəti qurmaq üçün bir vasitədir. Başqa bir nümunə üçüncü xəlifənin qətlindən sonra çoxsaylı insanların beyət üçün həzrət Əliyə (ə) üz tutmasıdır. İnsanlar həzrət Əli (ə) əllərini geri çəksə də zorla onun əlindən tutub beyət edirdilər. Həzrət (ə) beyətə razılıq verməyib buyurdu: “Mən əlimi geri çəkirəm, siz əlimdən tutmaq istəyirsiniz.” Həzrət (ə) buyurur ki, onlar mənim evimə hücum çəkdilər, əbam çiynimdən düşdü, beyət üçün üstümə gələnlər ayaqlarımın üstünə çıxdı.” Amma bu qədər təkiddən sonra da Həzrət (ə) hakimiyyəti qəbul etmək istəmirdi. Deyirdi ki, başqa birinin sorağına gedin. Həzrət Əli (ə) sadəcə təvazö göstərib imtina etmirdi. Əmirəlmömininin (ə) dilinə heç vaxt yalan gəlməyib. Bəs nə üçün xalqı başqasının sorağına göndərirdi? Məgər o xəlifəliyə yeganə namizəd deyildi? Həzrət (ə) özü bunun səbəbini belə açıqladı: “Biz elə bir dövrün sorağına gedirik ki, bu dövrdə çöhrələr çox fərqlidir, insanlar doğru yolda möhkəm dayana bilmir. Əgər belə bir vəziyyətdə hakimiyyəti öz üzərimə götürsəm həqiqətin icrasında kimsənin məzəmmətinə əhəmiyyət verməyəcəyəm. Siz buna dözə biləcəksinizmi?!

Maraqlıqdır ki, Həzrət (s) buyurmur ki, xilafəti mənə verməsəniz mən sizə müxalifət göstərəcəyəm. Buyurur ki, mənə beyət etməsəniz də sizlərdən biri kimi hətta daha artıq müti olub söz eşidəcəyəm. İmam nəzakət xatirinə imtina etmir, onun mövqeyi budur. İmam hakimiyyət üçün xalqın razılığını mühüm sayır. Yalnız o zaman hakimiyyəti qəbul edir ki, artıq başqa çıxış yolu qalmır.

Həzrət Əli (ə) əvvəlcə xalqı anladır ki, onun hakimiyyətinin öz xüsusiyyəti var. O seçki vədi vermir. Gələcəkdə necə rəftar edəcəyini xalqa aydın bildirir. Əgər bugünkü təbirlə desək, həzrət Əlinin (ə) nəzərincə xalq həqiqəti bilməlidir. Ona görə də buyurur ki, əgər mənə beyət etsəniz, qarşıda sadaladığım çətinliklər var. Həzrət necə müdiriyyət edəcəyini açıqlayır. Soruşur ki, belə bir şəraiti qəbul edəcəksinizmi? Həzrət (ə) qətiyyən özünü xalqa qəbul etdirmək fikrində deyil. O xalqın özünə qarşı sevgi və etimadından sui-istifadə etmir. Cəmiyyət Həzrətin (ə)

şərtlərini qəbul etdikdən sonra Həzrət (ə) beyətə razılıq verir. İnsanlar onun sözlərini eşitdikdən sonra da təkid göstərir, beyət istəklərini bildirirlər. Həzrət (ə) şahid olanda ki, hamı onun şərtlərini qəbul edir, bildirir ki, evdə yox, beyət məsciddə həyata keçməlidir. Həzrət (ə) bunu fikirləşir ki, sabah kimsə ona xəlvətdə beyət edildiyini deyə bilməsin. Həzrət (ə) buyurur: "Mənə beyətdə iki xüsusiyyət var. Əvvəla, bu beyət açıq-aşkar olmalıdır. İkincisi, bütün müsəlmanlar buna razı olmalıdırlar.

Sual: Qeyd etdiniz ki, demokratiyanın İslamda olmasına üç dəlil mövcuddur. Növbəti sual budur ki, dini demokratiyanın Qərb demokratiyasından fərqi nədir?

Cavab: Bir neçə fərq var. 1400 il boyu İslamda olan demokratiya Qərb demokratiyasında yoxdur. Qərb demokratiyasında istənilən bir yolla xalqın səsini almaq qarşıya məqsəd qoyulub. İslamda isə bu işi hər yolla görmək olmaz. Dini demokratiyada xalq kimə səs verdiyini, bu hökümətin hansı işi görəcəyini, hansı yolu tutacağını bilməlidir. Yəni, dini demokratiyada xalq üçün hər şey şəffaf olmalıdır. Dini demokratiyada xalq şüarlara aldanmadan, səs verdiyi hakimiyyətin mahiyyətini görərək səs verib. Digər bir fərq budur ki, hakimiyyət məsələsi ortaya gələndə xüsusilə cəmiyyətin avam hissəsində həyəcan yaşanılır. Tarix göstərir ki, diktatorlar kütlənin həyəcanından bəhrələniblər. Məsələn, ikinci dünya müharibəsindən öncə Hitler hökumətinin Qərb demokratiyası, liberal demokratiya ölçüləri yerində idi. Hitler hökumətini xalq seçmişdi. Xalq özü millətçi-sosialist partiya rəhbərini həmişəlik rəhbər görmək istəyirdi. Nasizmi xalq qəbul etmişdi. Bu baxımdan Hitler hökumətinin liberal-demokratik dəyərlərlə ziddiyyəti yox idi. Amma İslam baxımından belə bir hökumət məqbul deyil. Xalqın ötəri həyəcanlarından sui-istifadə etmək olmaz. Xalq rəy verərkən düşüncə ilə, səs verdiyi hakimiyyəti tanıyaraq səs verməlidir. Xalqın razılığı mütəxəssislərin, mütəfəkkirlərin baxışları üzərində qurulmalıdır. Bir rəvayətdə İmam Hüseynin (ə) bu mövzuda buyuruğu var. Həzrət (ə) Müslüm ibn Əqili nümayəndə olaraq Kufəyə göndərəndə ünvanladığı məktubda Kufə xalqına xitabən buyururdu. Əmim oğlunu nümayəndəm olaraq sizin görüşünüzə göndərirəm. Əgər müslüm mənə yazsa ki, şəhər böyüklərinin, alimlərin, söz sahiblərinin fikri mənə yazılan məktubdakı fikirlərlə eynidir onda Kufəyə gələcəyəm." İmam Hüseynə (ə) 12 min məktub yazılmışdı. Başqa bir mənbədə 16 min məktub yazıldığı söylənilir. Hətta kağız çətin tapılırdı. Məktub göndərmək üçün bugünkü kimi poçt şöbəsi yox idi.

Məktubu çaparlar uzun məsafə keçərək ünvana çatdırırdılar. Bu yolla həzrətə 12 min məktub çatmışdı. Əgər bu gün bir nəfərə 12 min ismarış göndərilsə və ondan namizəd olması istənilsə bu şəxs bu saydə tərəfdarlarla hökmən addım atar. 12 min imza əhəmiyyətli sayılır. Amma Həzrət (ə) bununla kifayətlənmir. Müslüm ibn Əqili göndərir ki, söz sahiblərinin, hörmətli insanların nəzərini öyrənsin. Həzrət (ə) bilmək istəyirdi ki, şəhərin hörmətli şəxsləri də onun gəlişinə razıdırmı? Əgər belə bir razılıq olmasaydı Həzrət (ə) Kufəyə üz tutmayacaqdı. Bu hadisə də İslamda dini demokratiyanın mövcudluğunu göstərir. Bu Qərb demokratiyasından fərqli bir hadisədir. Qərb demokratiyasında xalqın rəyini əldə etmək üçün namizəd bütün yollara əl atır. İslamda isə əksinə namizəd xalqı təkrar düşünməyə çağırır. Namizəd xalqa təklif edir ki, tələsik addım atmasın.

Qərb dünyasında bütün işlər təbliğat üzərində qurulub. İmam Xomeyni buyururdu ki, dünyanın işləri təbliğat əsasında gedir. Təbliğat barədə çox kitablar yazılıb. Bu gün təbliğat cəmiyyətləri idarə edir, ictimai fikir formalaşdırır. İslamda isə belə deyil.

Sual: Cənab Rəhbər Ayətullah Xamenei məmləkətin idarəçiliyində xalqın iştirakı haqqında buyurmuşdur: “Harada iş xalqa tapşırıldısa o işdə uğur qazandıq. Harada məğlub olduqsa, bu xalqın iştirak etməməsinin nəticəsi idi.” Sizin nəzərinizcə, xalqın İran İslam Respublikasının həyatında iştirakı bu nizamın faydalılığına necə təsir göstərir?

Cavab: Heç şübhəsiz, bir hökumətin möhkəmliyi onun ictimai dəstəyindən asılıdır. Hüquq elmində deyilir ki, hakimiyyət iki sütun üzərində qurulub. İqtidar və inam. İqtidar budur ki, hakimiyyət öz müxalifləri ilə qarşılaşmaq gücündə olmalıdır. Etiqad isə xalqın hakimiyyətə inamıdır. Xalqın inanmadığı hakimiyyət nə qədər güclü olsa belə acınacaqlı bir sonu var.

Heç şübhəsiz, bir hakimiyyət o zaman mütərəqqi sayılır ki, xalq həmin hakimiyyətdən razı olsun. Bugünkü təbirlə, hakimiyyətin iqtidarı haradan aldığı mühüm məsələdir. Hakimiyyətə sual verilir ki, sənin iqtidar mənbəyin nədir? Bu suala düşüncəli və məntiqli cavab verə bilən hakimiyyət legitim ola bilər. Bu sual

qarşısında məntiqi cavabı olmayan hakimiyyət qanuni hakimiyyət sayıla bilməz. Belə bir hakimiyyət üçün daim təhlükə var. Xalq istənilən bir zamanda bu hakimiyyətə qarşı qiyam qaldıra bilər. Xalq inanmadığı hökuməti dəyişib inandıqlarını hakimiyyətə gətirə bilər. Ona görə də xalqın seçmədiyi, inanmadığı hakimiyyət daim qorxu yaşayır. O bu qorxu əsasında xalqı nəzarətdə saxlamaq üçün böyük pullar xərcləyir. Amma nə qədər pul xərcləsə də qorxusu aradan qalxmır. Çünki dayağı xalq deyil. Belə bir hökumətdə xalqı susdurmaq üçün böyük güc sərf olunur, eyni zamanda xalq səhnədə olmadığı üçün hakimiyyət ölkəni inkişaf etdirə bilmir. Bir hakimiyyət o zaman möhkəm ola bilər ki, xalqın razılığı ilə iş başına gəlsin. Öncə qeyd etdiyim rəvayəti birdə yada salmaq istəyirəm. Kəbə o zaman dəyərlidir ki, onun ziyarətinə gedib təvaf edən olsun. Kəbə kiminsə görüşünə gəlmir.